Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 28 (6071) 2 avqust 2024-cü il | Qiyməti 40 qəpik

# DTX və DSX əməliyyat keçirdi




**Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Sərhəd Xidmətinin narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində İran İslam Respublikasının vətəndaşları tərəfindən Azərbaycan ərazisinə qaçaqmalçılıq yolu ilə keçirilmiş külli miqdarda narkotik vasitə aşkar edilərək götürülmüşdür.**

Adalet.az xəbər verir ki, görülmüş təxirəsalınmaz tədbirlərlə qeyd olunan xarici ölkənin vətəndaşlarının Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı qəsəbəsində yol kənarındakı yaşıllıq ərazidə gizlətdikləri və ümumilikdə 74 kq 163 qr çəkisi olan qurudulmuş marixuananı həmin ərazidən götürüb oradan uzaqlaşarkən Azərbaycan Respublikasının vətəndaşları - 1982-ci il təvəllüdlü Qasımov Vəli Mahir oğlu, 1988-ci il təvəllüdlü İsgəndərov İsgəndər Cəfər oğlu, 1993-cü il təvəllüdlü Süleymanzadə Aqşin Yusifəli oğlu və vətəndaşlığı olmayan 1982-ci il təvəllüdlü Daşdəmirov Çingiz Fakralı oğlu cinayət başında yaxalanmışlar.

Fakt üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən narkotik vasitələrin qaçaqmalçılığı), 234.4.1 və 234.4.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda narkotik vasitələrin qaçaqmalçılığı) maddələri ilə cinayət işi başlanılmış və adıçəkilən şəxslər cinayət məsuliyyətinə cəlb edilmişlər.

Hazırda araşdırmalar davam etdirilir.

## Əli Əsədov İran Prezidenti ilə görüşüb



**Tehrana işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 31-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla görüşüb.**

Adalet.az xəbər verir ki, bu barədə Nazirlər Kabinetindən məlumat verilib.

Bildirilib ki, Ə.Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və prezident səlahiyyətlərinin icrasına başlaması münasibətilə təbriklərini Məsud Pezeşkiana çatdırıb. Baş nazir cari ilin noyabr ayında Azərbaycanda keçiriləcək COP29-da iştirakla bağlı Prezident İlham Əliyevin dəvət məktubunu Prezident Məsud Pezeşkiana təqdim edib.

Görüş əsnasında Azərbaycan ilə İran arasında dostluq və qardaşlıq əlaqələrinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu, qarşılıqlı maraq doğuran əməkdaşlığın bütün istiqamətlər üzrə gələcək perspektivləri müzakirə edilib.

## SƏN CINDIR ƏSKİNİ YARIŞ MEYDANLARINDA ÇIXARA BİLƏRSƏN




***Bizim müqəddəs bayrağımızı isə Ali Baş Komandan, cənab prezident İlham Əliyev Şuşada, Xankəndində, Ağdərədə işğaldan azad olunmuş bütün bölgələrdə ən yüksək zirvələrdə dalğalandırır.***

## BİZ MƏĞLUB ETDİYİMİZİN ALNINDAN ÖPÜRÜK



**Olimpiadada Hidayət Heydərov fransızı itqusdu edəndən sonra əl atıb yerindən qaldırdı və alnından öpdü.**

Görən dünyada bizdən başqa belə bir millət varmı?

Məğlub etdiyimiz Ermənistana da sülh əlimizi uzatmışıq. Tutarlar sağ olsunlar, tutmazlar uzatdığımız əl dəmir yumruğa çevrilər. Və qalarlar altında.

## AMERİKA HAQQINDA ƏN MÜDRİK SÖZ



**Bilmirəm kim deyib və nə vaxt deyib, amma çox müdrikcəsinə deyib: "Amerikada dövlət çevrilişi ona görə olmur ki, ABŞ-da Amerika səfirliyi yoxdur".**

## *MƏNİ İNFARKT OLMAQDAN QURTARAN OĞLAN*

*Hidayətin fransızla güləşməsini elə həyəcanla izləyirdim ki, yerimdə otura bilmirdim, bağırırdım: "Qaqa, hücum elə, qaqa, hücum elə. Səni üç yüz milyonluq türk izləyir".*

*Mən adətən "Qarabağ"ın oyunlarında belə həyəcanlanıram. Amma bu dəfə ondan da betər idim. Uduzsa, bəlkə də infarkt olardım.*

*Sağ ol, Hidayət. Məni və mənim kimi nə qədər adamı infarktdan xilas etdiyinə görə.*

## *BAHALI FAHİŞƏLƏR*

***Olimpiadada Ermənistanı idmançıları keçərkən ermənilərin bahalı fahişə bacıları təqdimatda təxminən belə söylədilər ki, Ermənistanın Qarabağ əyalətini bir Qafqaz respublikası işğal edib.***

***İstəyirsən bir ağdamlı kimi söyəsən, oxuculardan ayıb edirsən.***

***Yüz ildən çoxdur ermənilər uydurma soyqırımı bəhanə edib ağlaşma qururlar. İndi min il də Qarabağ üçün ağlayacaqlar. Onların olmayan Qarabağ üçün. Fahişə bacıları ilə bir yerdə.***

## *Bu küçədə hərəkət məhdudlaşdırılacaq*

***Bakı şəhəri, Nərimanov rayonu, Əhmədbəy Ağaoğlu küçəsində (Təbriz küçəsi ilə kəsişmədən Fətəli xan Xoyski prospektinədək) aparılacaq təmir işləri ilə əlaqədar avtonəqliyyat vasitələrinin hərəkəti tam məhdudlaşdırılacaq.***

***Bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) məlumat yayıb. Bildirilib ki, məhdudlaşdırma 2 avqust saat 00:00-dan 5 avqust saat 06:00-dək davam edəcək.***

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## SONUNCU POST



(Kinossenari)

**(əvvəli qəzetin ötən saylarında)**

**Məkan. Yenə bizim post. Şaxta öz işini görür, vəziyyət daha da ciddiləşirdi. Komandir hiss edirdi ki, uşaqların sabaha sağ çıxması yalnız möcüzə nəticəsində baş verə bilər. Uşaqları donmaqdan xilas etmək üçün yollar axtarırdı, amma tapa bilmirdi. Əlini-əlinin üstə qoyub oturmaq olmazdı. Sibirdəki əsgərlik günlərini yadına salırdı. Yenə bir saman çöpündən yapışdı, bir xeyli uşaqları süzdükdən sonra qalxdı ayağa və dedi:**

**- Qalxın!**

**Amma uşaqlar onun sözünə o qədər də əhəmiyyət vermədilər, əvvəl bir-birlərinə, sonra da Komandirə baxdılar.**

**Komandir:**

**- Qalxın, dedim sizə!**

**Uşaqlar yerlərində qımıldandılar, gərnəşdilər, amma yenə qalxmadılar.**

**Bax:səh-3**

## GÜNÜN LƏTİFƏSİ

Əbülfət Mədətoğlu Vəli Xramçaylıdan soruşur ki, "Vəli, sən canın ayda neçə gün içirsən?"

**Vəli: - Qağa nə bilim ey, ayda 30 gün də olur, 31 gün də. Qağa, amma fevralda 28 gün içirəm, arada 29 gün də olur.**



## Prezident Bakıda yaradılan yeni parkda işlərin gedişi ilə tanış oldu



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda "Gənclik" metrosu yanında yaradılan yeni parkda işlərin gedişi ilə tanış olub.**

Adalet.az xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına parkda görülən və həyata keçiriləcək işlər barədə məlumat verdi.

Paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin 2023-cü il 18 avqust və 2024-cü il 13 yanvar tarixli sərəncamlarına əsasən Nərimanov rayonunda salınan yeni parkdır.

"Antena" parkı kimi tanınan bu ərazi əvvəllər baxımsız vəziyyətdə olub. İstirahət parkının yenidən qurulması və bərpası ilə əlaqədar bu ərazidə yararsız vəziyyətdə olan bəzi tikililər sökülüb. Söküntü işlərindən sonra parkın ərazisi daha da genişləndirilib və 19 hektara çatdırılıb.

Qeyd olundu ki, parkın ərazisindəki mövcud tarixi inzibati bina saxlanılıb və həmin binada bərpa işləri aparılacaq.

Yenidən qurulan parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılacaq. Belə ki, burada müasir tələblərə cavab verən iki restoran inşa olunur. Həmçinin burada 2 fəvvarə də quraşdırılacaq. Bu da istirahət məkanına əlavə gözəllik verəcək.

Müasir istirahət kompleksinin ərazisinin 13,8 hektarında yaşıllıq sahələri salınacaq. Burada işıqlandırma sistemi yeni layihə əsasında ən müasir standartlara uyğun şəkildə qurulacaq. Parkda piyada və velosiped yolları çəkiləcək, uşaq-əyləncə və idman meydançaları yaradılacaq.

Bildirildi ki, yenidən qurulan parkla yaxınlıqdakı "Dədə Qorqud" parkını əlaqələndirəcək tunelin də inşasına başlanılıb.

Dövlətimizin başçısına, eyni zamanda, Yaşıllaşdırma Təsərrüfatı Birliyinin Binə qəsəbəsi ərazisində yeni salınmış istixanası barədə də məlumat verildi. Qeyd olundu ki, istixanada 1 milyonadək gül yetişdiriləcək. Bu da ölkəmizə gül idxalının həcmini əhəmiyyətli dərəcədə azaltmağa imkan verəcək.

Yenidən qurulan park, həmçinin Azərbaycan dövlətinin ekoloji tarazlığın qorunması, yaşıllıqların artırılması, o cümlədən "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində görülən işlərə daha bir töhfə olacaq.

## *COP29-la bağlı QƏRAR: Tələbələr distant təhsil alacaq*

**Nazirlər Kabineti "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçiriləcəyi dövrdə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair əlavə tədbirlər barədə" qərar verib.**

Adalet.az xəbər verir ki, qərara əsasən, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrində (xüsusi təhsil müəssisələri istisna olmaqla) təhsilin pillələri üzrə tədris və təlim-tərbiyə prosesinin aşağıdakı qaydada təşkili təmin ediləcək:

- ümumi təhsil pilləsi üzrə -2024-cü il noyabrın 12-dən 22-dək payız tətili;

- peşə, orta ixtisas və ali təhsil pillələri üzrə - Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda 2024-cü il noyabrın 12-dən 22-dək distant (məsafədən) formada təhsil.

Elm və təhsil Nazirliyi yuxarıda qeyd edilənlər nəzərə alınmaqla təhsil proqramlarının təhsil alanlar tərəfindən tam mənimsənilməsini təmin etmək məqsədilə müvafiq tədbirlər həyata keçirməlidir.

# *Elçin Əmirbəyov:* "Ermənistanla sülh danışıqlarında mühüm irəliləyiş əldə etmişik"

**Biz Ermənistanla sülh danışıqlarında mühüm irəliləyiş əldə etmişik.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov Vaşinqtonda Hudson İnstitutunda onlayn seminarda çıxışı zamanı deyib.

"Biz sülh sazişi istiqamətində mühüm irəliləyiş əldə etmişik. Biz heç vaxt bu qədər yaxın olmamışıq. İndi hər iki ölkənin bu düşmənçilik fəslini nəhayət bağlamaq və Cənubi Qafqaz regionunda vəziyyəti dəyişmək, onu mehriban qonşuluq, sabitlik və sülh məkanına çevirmək üçün tarixi fürsət var. Bildiyiniz kimi, bu proses uzun müddətdir ki, davam edir. Demək olar ki, otuz ildir ki, vasitəçiliyimiz var, lakin ötən dekabrda hər iki ölkə qərara gəlib ki, danışıqları davam etdirmək və onları yekunlaşdırmaq üçün ən effektiv və ən perspektivli format ikitərəfli birbaşa formatdır. Və o vaxtdan bəri bir sıra mühüm nailiyyətlər, o cümlədən etimad əldə olunub", - o deyib.



Əmirbəyov hesab edir ki, danışıqlar masası üzərində olan sülh sazişinin mətninə baxsanız, tərəflər onun başa çatmasına çox yaxındırlar.

"Azərbaycan bütün beynəlxalq ictimaiyyətin gözləntilərini doğrultmaq, eləcə də bu münaqişənin əsasında duran bu problemi, yəni Ermənistanın Azərbaycana ərazi iddiaları məsələsini birdəfəlik həll etmək üçün əlindən gələni etmək niyyətindədir.

Buna görə də biz ümid edirik ki, qalan çətinliklər qısa müddət ərzində layiqincə həll olunacaq və biz təhlükəsiz, davamlı və dönüşü olmayan sülhə nail ola biləcəyik", - o əlavə edib.

Sülh müqaviləsinin imzalanması üçün mümkün müddətlərdən danışan Əmirbəyov qeyd edib ki, hər hansı bir vaxtdan danışmaq məqsədə uyğun deyil.

**"Bu, daha çox Ermənistan tərəfinin sülh sazişinin imzalanması yolunda qalan yeganə maneəni, yəni Azərbaycana qarşı konstitusiya ilə təsbit olunmuş ərazi iddialarını aradan qaldırmaq qabiliyyətindən və istəyindən asılı olacaq razılaşdırılıb, qalan bütün məsələlər mümkündür, lakin biz bu münaqişənin çox ekzistensial səbəbinə, yəni onların konstitusiyasında yer alan ərazi iddialarına göz yumaraq, sülh sazişi imzalaya bilmərik həll edilərsə, son həllə bir o qədər tez çatarıq", - o əlavə edib.**

# Seçkilərin demokratik keçirilməsi üçün bütün şərait yaradılıb

**Xəbər verdiyimiz kimi, 2024-cü ilin 1 sentyabr tarixində Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcək. Bu seçkilər 32 ildən sonra, ilk dəfə olaraq Respublikamızın işğaldan azad edilmiş bütün ərazilərində, 125 dairədə keçiriləcək.**



Mərkəzi Seçki Komissiyası seçkilərin azad, demokratik şəraitdə keçirilməsi üçün bütün işləri başa çatdırıb. Artıq Milli Məclisə deputatlığa namizədlərin sənədlərinin qeydiyyata alınması prossesi davam etdirilir.

Sevindirici haldır ki, Respublikada fəaliyyət göstərən siyasi partiyaların böyük əksəriyyəti bu seçkilərin demokratik və şəffaf keçiriləcəyinə inananaraq, çox aktiv şəkildə seçkilərə qoşulublar. Müxalifət partiyalarının namizədlərinin qeydə alınması prosesində bu günədək hər hansı bir problem qeydə alınmayıb. İşğaldan azad edilmiş ərazilərdə, Şuşada, Xankəndində, Laçında, Xocalıda, Füzulidə, Kəlbəcərdə, Zəngilanda, Qubadlıda, Xocavənddə və s. ərazilərdə yaşayan və bərpa-quruculuq işlərində çalışan vətəndaşlarımızın seçkilərdə fəal və maniəsiz iştirakını təmin etmək məqsədiylə müvafiq seçki məntəqələri fəaliyyət göstərir. Seçicilərin demokratik və şəffaf şəraitdə səs verməri üçün şəraitlər yaradılıb.

Bundan başqa, Respublikamızda ilk dəfə olaraq Milli Məclisə seçkilərlə bağlı "ASAN xidmət" mərkəzində innovativ layihə istifadəyə verilib. İnnovativ həll Mərkəzi Seçki Kommissiyası və "ASAN xidmət" birgə layihəsi çərçivəsində həyata keçirilir. 2024-cü il sentyabrın 1-də keçiriləcək növbədənkənar seçkilərdə vətəndaşların səsvermə hüquqlarının daha səmərəli təmin edilməsi üçün "ASAN xidmət" mərkəzində mütərəqqi və effektiv bir vasitənin tədbiqi fəaliyyətə başlayıb.

**Vətəndaşlar Mərkəzlərdə olan "ASAN növbə" terminalındakı "Seçici statusunu yoxla" adlı funksional bölmədə şəxsiyyət vəsiqələrini oxudaraq öz adlarını seçici siyahılarında yoxlaya, habelə aid olduqları seçki dairəsi və məntəqəsini müəyyənləşdirə bilərlər.**

**Rüstəm Hacıyev**

## *Ərdoğandan HƏMAS liderinin öldürülməsinə reaksiya*



**"HƏMAS Siyasi Bürosunun sədri İsmail Haniyənin Tehranda xaincəsinə öldürülməsini şiddətlə qınayır və lənətləyirəm".**

Adalet.az xəbər verir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

"Sionist barbarlıq indiyə qədər olduğu kimi yenə öz məqsədlərinə çatmayacaq", - deyə Ərdoğan HƏMAS liderinin öldürülməsinə reaksiya verib.

Türkiyə lideri qeyd edib ki, bu sui-qəsd Fələstin davasını, Qəzzanın müqavimətini və fələstinlilərin ədalətli mübarizəsini pozmağa, fələstinliləri ruhdan salmağa və qorxutmağa yönəlib: "Qardaşım İsmayıl Haniyəyə qarşı sui-qəsdin məqsədi Şeyx Əhməd Yasin, Əbdüləziz Əl Rantisi və bir çox digər Qəzzalı siyasi xadimlərə qarşı iyrənc hücumların məqsədi ilə eynidir.

Lakin sionistlərin barbarlığı indiyə qədər olduğu kimi yenə də öz məqsədlərinə çata bilməyəcək.

İnşallah, İslam dünyasının daha güclü mövqeyi və bəşəriyyətin ittifaqı ilə İsrailin coğrafiyamıza vurduğu terror, xüsusilə Qəzzadakı zülm və soyqırımı mütləq sona çatacaq, bölgəmiz və dünyamız dinclik tapacaq.

Bu səbəbdən Türkiyə olaraq bütün imkanlarımızı sınamağa, bütün qapıları açmağa və Fələstinli qardaşlarımızı bütün imkanlarımızla, bütün gücümüzlə dəstəkləməyə davam edəcəyik.

Biz 1967-ci il sərhədlərinə əsaslanan, paytaxtı Şərqi Qüds olan azad, suveren və müstəqil Fələstin Dövlətinin qurulması üçün işimizi davam etdirəcəyik.

Mənfur hücum nəticəsində şəhid olan qardaşım İsmayıl Haniyəyə Allah rəhmət eləsin. Ailəsinə səbr, qəzzalı və fələstinli qardaşlarımıza və İslam dünyasına başsağlığı verirəm".

## *Türkiyə-Ermənistan sərhədi bu halda açıla bilər*



**"Azərbaycanla Ermənistan arasında danışıqlar prosesi davam edir. Münasibətlərin normallaşacağı təqdirdə bizim də ssenarimizi hazırlamağımız lazım olacaq".**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan "Sabah" qəzetinə müsahibəsində deyib. Onun sözlərinə görə, hazırkı fəaliyyətlər də bu istiqamətdədir. "Əgər işlər tamamlanarsa, müsbət ssenarini aktivləşdirəcəyik. Beləliklə, biz sərhəd qapımızı aça bilərik".

**AQİL ABBAS**

# SONUNCU POST

(əvvəli qəzetin ötən saylarında)

Məkan. Yenə bizim post. Şaxta öz işini görür, vəziyyət daha da ciddiləşirdi. Komandir hiss edirdi ki, uşaqların sabaha sağ çıxması yalnız möcüzə nəticəsində baş verə bilər. Uşaqları donmaqdan xilas etmək üçün yollar axtarırdı, amma tapa bilmirdi. Əlini-əlinin üstə qoyub oturmaq olmazdı. Sibirdəki əsgərlik günlərini yadına salırdı. Yenə bir saman çöpündən yapışdı, bir xeyli uşaqları süzdükdən sonra qalxdı ayağa və dedi:

- Qalxın!

Amma uşaqlar onun sözünə o qədər də əhəmiyyət vermədilər, əvvəl bir-birlərinə, sonra da Komandirə baxdılar.

Komandir:

- Qalxın, dedim sizə!

Uşaqlar yerlərində qımıldandılar, gərnəşdilər, amma yenə qalxmadılar.

Komandir bu dəfə amiranə səslə hayqırdı:

- Bölük! Qalx ayağa!

Amiranə səs onları yerlərindən qalxmağa məcbur elədi, özlərini toparlayıb qalxdılar.

Komandir:

- Bölük! Düzlən!

Uşaqlar elə səngərin içində sıraya düzülməyə başladılar. Komandir titrəyən erməniyə baxdı və nə fikirləşdisə:

- Davay podnimaysya!

Erməni heç nə anlamadı.

Komandir:

- Podnimaysya, ya skazal!

Erməni də qalxdı.

- Vstat stroy.

Komandir uşaqların ona təəccüblə baxdığını görüb:

- Onu da sıranıza alın, yoxsa donacaq, - sonra üzünü tutdu erməniyə:

- Ne slışış? Vstat stroy!

Erməni də sıraya durdu.

Komandir:

- Bölük! Farağat! Önə bax! Yerində addımla marş!

Uşaqlar yavaş-yavaş yerlərində addımlamağa başladılar, erməni də qoşuldu onlara.

Amma bu Komandirin xoşuna gəlmədi. Yenidən əmr elədi:

- Bölük, olmadı! Farağat! Yerində möhkəm addımla marş! Bir! İki! Bir! İki! Bax belə.

Komandir sıranın önündə özü də öz əmrini yerinə yetirirdi:

- Bax belə! Bir! İki! Bir! İki! Bir!..

Şair hamıdan tez yoruldu və istehza ilə dedi:

- Komandir, bəlkə mahnı da oxuyaq?!

Komandir:

- Darıxma! Bir azdan mahnı da olacaq, solosun da sən oxuyacaqsan. Bir! İki! Bir! İki!..

Nəhayət, Komandir gördü ki, uşaqların taqəti qalmayıb əmr elədi:

- Bölük! Farağat! Azad! Otura bilərsiz!

Uşaqlar yenə kürək-kürəyə verdilər. Təklikdə daha çox üşüdüyündən erməni əli ilə işarə elədi ki, olar mən də sizin yanınıza gəlim. Hamı bir-birinə baxdı, Bakılı Balası hamıdan əvvəl dilləndi:

- Dava, idi k nam!

Erməni də gəlib onlara sığındı.

***

Məkan dəyişir. Kimsə qara bata-bata bizim posta doğru qalxır, əlində ağ bayraq var. Onu ilk dəfə Dağlaroğlu görür və Komandirə qaraltını göstərib deyir:

- Komandir! Ora bax, kimsə gəlir.

Komandir də, uşaqlar da həmin səmtə boylanır, gələnin əlində ağ bayraq var. Şair əlini avtomata atır, Komandir onu saxlayır:

- Atmayın! Əlində ağ bayraq var. Görək nə istəyir.

Erməni zabiti lap yaxınlaşır və bağırır (azərbaycanca):

- Ara, Komandir! Komandir! Mənəm Lyonik!

Komandir səngərdən çıxır:

- Nədi ə, dığa?

Erməni zabiti:

- Salam, Komandir.

- Tutaq ki, salam! Sözünü de!

Erməni zabiti:

- Necəsən?

Komandir:

- Sözünü de.

Erməni zabiti:

- Komandir, kəsəsi, bilirəm ki, iki-üç gündü yeməyə bir tikə çörəyiniz yoxdu. Tonqalınız da yanmır. Arseni burax nə qədər istəyirsən yemək də verim, tutovka da, yanacaq da.

Komandir:

- Lyonik, xoş getdin! Çörəyimiz də var, arağımız da. Sizin yoxdursa, köhnə qonşuluğa görə verim.

Erməni zabiti:

- Komandir, gop eləmə. Gəl sən Arseni burax. Sən yaxşı oğlansan, heç mən də pis oğlan deyiləm. Bir-birimizi uşaqlıqdan tanıyırıq. O yazıq uşağı burax, mən də dediklərimi verim. Onsuz da acından, şaxtadan öləcəksiniz. O bədbəxt sənin nəyinə lazımdı? Ərzaq verim, yanacaq verim, sizin də analarınız ağlamasın, bizim də. Onsuz da analarımızı ağlar günə qoyublar.

Qara :

- Dəyiş, Komandir.

Şair:

- Dəyiş Komandir, qoy cəhənnəm olub getsin!

Erməni zabiti:

- Görürsən uşaqlar da mən deyəni deyir, gəl daşı ətəyindən tök. Heç olmasa bayaq dediyin kimi, qonşuluq xətrinə. Nə vaxtsa çörək kəsmişik, o çörəyin xətrinə.

Komandir:

- Kəsdiyimiz çörək nə yaxşı yadına düşdü, Lyonik. Bunları bizim evi yandıranda niyə fikirləşmirdin?

Erməni zabiti:

- Komandir, sən uşaq deyilsən. Özün yaxşı bilirsən ki, bu müharibəni hansı qəhbə uşaqları aramıza salıb.

Komandir istehza ilə:

- Lyonik, qəhbə dedin, bacın yadıma düşdü. Özünə ər tapa bildi?

Erməni zabiti özünü onda qoymadı:

- Komandir, indi ər tapılır? Müharibəyə gedən müharibədə öldü, müharibədən qaçan da Rusiyanın bazarlarında çörək pulu qazanır.

Komandir:

- Bəs sən bu dağlarda nə sülənirsən? Niyə gedib çörək pulu qazanmırsan?

Erməni zabiti:

- Komandir, bu sözlər nəyə lazım, gəl əsgər kimi danışaq. Mən də əsgərəm, sən də! Astvaz haqqı, bu müharibə qurtaracaq, siz də qayıdacaqsız Sevana. Yenə xeyirimiz-şərimiz bir olacaq. Burax o yetimi, yazığın atası da Qarabağda ölüb. Burax, qoy o da yaşasın, siz də!

Komandir:

- Onun atası Qarabağda nə - tirtir titrəyən erməniyə baxıb sözünün dalını demədi.

Erməni zabiti:

- Komandir, sənin dədən də yaxşı kişi olub, yüz dəfə qabağına yemək qoymuşam, araq süzmüşəm. Gəl bu daşı ətəyindən tök.

Komandir:

- Sənin də dədən yaxşı kişi idi, mən də onun qabağına çox yemək qoymuşam. Özün oğraş çıxdın. Dedim ki, vermirəm!

Erməni zabiti:

- Son sözündü?

Komandir:

- Son sözümdü!

## (Kinossenari)

Erməni zabiti:

- Heç vermə, donun ölün! Yerevanda erməni tapırmır?! Olmasın biri!

Komandir:

- Lyonik, sən əsgərini çox istəyirsənsə çıxart buşlatını ver ona, qoy donmasın.

Erməni zabiti əynindəki kürkü çıxarıb atır Komandirin önünə:

- Ala.

Komandir kürkü götürüb atır erməni əsgərinin üstə və deyir:

- Odevay, ə! - sonra üzünü tutur erməni zabitinə; - Lyonik, cəhənnəmdə görüşərik.

Erməni zabiti:

- Ay dəli müsəlman, elə cəhənnəmdəyik də!

Komandir:

- Cəhənnəmdəsənsə onda dədənə məndən salam de.

Erməni zabiti:

- Özün deyərsən!

Və Erməni zabiti gedir.

Şair hirsli-hirsli erməniyə bir təpik vurur:

- Komandir, neyniyirsən bu itoğlunu? Acından ölürük, bunu yeyəcəyik?!

Bakılı Balası:

- Bəlkə yandırıb istisinə qızınacağıq?!

Komandir:

- Sizə qurban olum! Səhərəcən dözün! Səhər bizimkilər gələcək. Nə qədər istəsəniz yeyib-içəcəksiz. Bu itoğlun verib əsirlikdəki bir qardaşımızı ala bilərik. İndi bir qarın yemək bir qardaşdan irəli oldu?!

Bu sözdən sonra uşaqlar sakitləşirlər.

***

... Məkan dəyişir. Erməni postu. Zabit gəlir. Əsgərlər:

- Nə oldu, komandir?

- Vermədi itoğlu!

- Bəlkə hücum edək?

Erməni zabiti:

- Boş, boş danışmayın, oranı heç bir batalyon əsgərlə də ala bilmərik. Gözləyək, onsuz da səhərəcən donub öləcəklər, gördüm, sifətlərində qan da qalmayıb. Post bizimdi.

Əsgərlər:

- Bəs Arsen?

Erməni zabiti:

- Canı çıxaydı, yatmayaydı.

***

... Məkan dəyişir. Dağlar, dərələr, çovğun. Mayor qara bata-bata gedir, kürəyində də çanta. Öz-özünə danışır:

- Gəlirəm, uşaqlar! Gəlirəm! Bərk durun!

***

... Məkan dəyişir. Bizim post. Komandirin əl-ayağı hər yerdən üzülüb, amma özünü tox tutmağa çalışır. Bircə gümanı uşaqları yatmağa qoymamaqdı. Bunun üçün yollar axtarır.

Komandir:

- Qurban olum, səhərə qədər dözün! Səhərə nə qalıb ey?! Analarınızın, bacılarınızın xətrinə dözün...

Amma şaxta artıq uşaqların iliyinə işləyir. O şaxtanı uşaqların iliyindən çıxarmaqda Komandir gücsüzdü.

Bakılı Balası:

- Komandir, elə bil ayaqlarım yoxdu...

Komandir onun ayaqqabılarını çıxarır, corablarını soyundurur, flyaqadan əlinə spirt töküb ayaqlarını möhkəm-möhkəm ovur.

Bakılı Balası:

- Komandir, vallah, heç nə hiss eləmirəm. Amma sənə söz vermişəm, dözəcəm. Məni burax, Qara donur.

Komandir Dağlaroğluna:

- Sən bunun ayaqların bir az da ovub geyindir.

Komandir nə fikirləşirsə avtomatların qundaqlarını sökür, desant bıçağı ilə parçalayır.

Şair:

- Neyləyirsən, Komandir?

Komandir:

- Qoymaram donasız!

Qundaqların parçalarını üst-üstə yığır, erməniyə:

- Davay flyaqa.

Erməni flyaqasını verir. Komandir flyaqadakı benzindən tökür qam-qalağın üstə:

- İndi hamınız ayaqlarınızı soyunun.

Uşaqlar təəccüblə bir-birlərinə baxırlar, sonra ayaqlarını birtəhər soyunmağa başlayırlar.

Komandir erməniyə:

- Tı toje.

Erməni də ayaqların soyunur.

Komandir ocağı yandırır:

- İndi ayaqlarınızı tutun oda.

Özü isə Qaranın ayaqlarını ovur.

Şair:

- Komandir, səndən yaxşı masajist çıxar...

Komandir:

- Qələt eləmə. İndi geynin, qədeş, sən Qaraya kömək elə. - sonra ayaqqabların hamısının ipini çıxarır, dillərini kəsir və atır ocağa.

Komandir ciblərini eşələyir, xeyli məktub çıxır, onları da ocağa atır, yandırmağa heç nə qalmayıb, dönüb Bayrağın dirəyinə baxır, sonra fikrindən dönür. Fikirləşir, sonra qəfildən kürkünü çıxarır və onu da parçalayıb atır ocağa.

Dağlaroğlu:

- Neyləyirsən?

Komandir:

- Özüm ölsəm də, qoymaram donasınız!

... Məkan dəyişir. Erməni postu. Ermənilər də kefdə deyil. Amma yerləri istidi, yeməkləri də var.

Əsgərlər öz aralarında pıçıldaşırlar.

Zabit:

- Yenə öz aranızda nə qırıldadırsız?

Əsgərlərdən biri:

- Komandir, axı Arsen də donacaq.

Zabit:

- Deyirsiz indi nə edim?

- Komandir sənsən, bir şey fikirləş də!

Zabit:

- Görmədiz, mən əlimdən gələni elədim. Getdim o itoğlunun ayağına, yalvardım da, vermədi.

Əsgərlərdən biri:

- Bəs deyirdin bir məktəbdə oxumusuz, qardaş olmusuz?!

Zabit:

- Baş-beynimi aparmayın, nə qardaş?! Qardaş qardaşın qanına susuyar?!

Əsgər:

- Onda hücum edək! Beş-altı nəfərdilər də!

Zabit:

- Dedim ki, gücümüz çatmaz. Əvvəllər neçə dəfə hücum eləmişik, bir faydası olmayıb. Hələ gözləyək. Onsuz da donacaqlar. Özü də bir Arsenə görə sizi güllənin qabağına verə bilmərəm.

***

... Məkan dəyişir. Bizim post. Ocaq sönüb. Dağlaroğlu qımıldanmır, donmaqdadı. Komandir onu silkələyir:

- Dağlar, ay Dağlar!..

... Məkan dəyişir.

Dağlaroğlu məktəbin həyətində hay-küylə uşaqlarla futbol oynayır. Necə vurursa top hasarı aşıb qonşu həyətə düşür. Dağlaroğlu çıxır hasara.

Həyətdəki qadın:

- Ay bala, bu evdə nə pəncərə qaldı, nə də bu həyətdə ağac. İndii sizin əlinizdən köçüb gedək?! Bəsdirin də! Vermirəm topu!

- Xala, qələt eləmişik, bir də olmayacaq...

- Yox, bitdi! Doğrayacam bu topu.

Dağlaroğlu:

- Xala, sən Allah doğrama. Bu boyda rayonda futbol topu tapılmır. Yalvarırıq. Axı sən yaxşı xalasan!

Qadın:

- Bir də düşsə, doğrayacam!- deyir və topu yenidən atır məktəbin həyətinə.

Dağlaroğlu topun ardınca qaçır...

***

... Məkan dəyişir. Bizim post. Komandir Dağları buraxır, Şairdən yapışır. Silkələyir, bir az sillələyir, görür bir şey çıxmadı, basır bağrına.

***

... Məkan dəyişir. Kənd həyəti, vurçatlasındı. Qoyun kəsən kim, ocaq qalayan kim. Çay süfrəsi, dostlar süfrənin ətrafında. Hamısı hərbi formadadı.

Şair dostlarını onlara çay süzən anası ilə tanış edir:

- Ana, bu Dağlaroğludu, quşu gözündən vurur. Bu Bakılı Balasıdı, elm dəryasıdı. Bu da bizi ölümdən qurtaran Komandirimizdi, oğlanları da özü kimi əjdahadı. Qara adlı bir qardaşımız da var, indilərdə gələcək.

Ana əlindəki çayniki süfrəyə qoyub Komandiri qucaqlayıb boyun oxşayır:

- Boyuna qurban olum, ay oğul! Uşaq həmin gecə haqqında o qədər danışıb ki! Sən olmasan hamısı donacaqmış, - sonra üzünü tutur Dağlaroğluyla Bakılı Balasına deyir; - Qurban olum boyunuza, xalanız gəlsin toyunuza.

Komandir üzünü tutur Şairə:

- Qardaş, sənin anan şairiymiş ki! Sizin Qazaxda hamı şeir yazır?

- Niyə? Bəs İsmayıl Şıxlı?!

Bir az aralıda ağacdan asılmış qoyun cəmdəyini şaqqalayan Şairin atası da söhbətə qoşulur:

- Ay oğul, qazaxlıların başı şeirə qarışmasaydı, indi dünyanın yiyəsiydilər.

Bakılı Balası:

- Dayı, qoy sənə kömək eləyək.

Şairin atası:

- Yox, ay oğul, sağ olun. Siz çayınızı için. Xoşum gəlir qoyun doğramaqdan. Cavanlıqda uzağı on dəqiqəyə kəsərdim də, doğrayardım da. Hələ sizə bir kabab çəkəcəm ki, barmaqlarınızı yalayacaqsız.

Şair:

- Narahat olmayın, kişi bu işin ustasıdı. Siz durun gedək Kürə, Qara gələnəcən bir az balıq tutaq. Bizimkilər də süfrəni hazırlasınlar. Heç qarmaqla balıq tutmusuz? Balıq ki sudan çıxır ey, əlini atıb çırpınan balıqdan yapışırsan, - çevrilib Komandirə baxır; - elə bil o artist qızın məmələrindən yapışırsan...

Gülüşürlər...

Düşürlər Kürə tərəf. Bir uşaq Komandirin pencəyindən darta-darta yalvarır:

- Əmi, ay əmi, papağını ver də mənə!

Komandir papağını qoyur uşağın başına, uşaq da dərhal ona hərbi salam verir. Komandir də ona hərbi salam verir:

- Ə, kişiqırığı, sən lap generala oxşadın ki!

(ardı qəzetin növbəti sayında)



<u>Rüstəm Hacıyev</u>

## Makron Olimpiadanın açılışını "qey parada" çevirdi

*Paris 2024-cü il Olimpiadasının açılışı, təhqiredici şou, idmançıların soyğunçuluğa məruz qalması və Sena çayının çirkli-üfunətli iyi ilə tarixə düşdü.*

*Açılışdan bir gün əvvəl Fransanın daxili işlər naziri Jerald Darmanen bəyan etmişdi ki, Parisdə keçirilən Olimpia oyunlarının açılış mərasimi, Fransanın "seksual azadlığı, dini azadlığı, gülüş və karikatura azadlığı status-kvosunu saxlıyan ölkə olduğunu dünyaya nümayiş etdirəcəkdir".*

*Parisin meri Ann İdialqo isə bəyan edib ki, açılış mərasimindən aldığı müsbət həyəcandan hələ də "özünə gələ bilmir".*

*Fox News telekanslına müsahibə verən ABŞ prezidentliyinə namizəd Donald Tramp, Parisdə keçirilən Olimpiya oyunlarının açılış mərasimində Leanardo da Vinçinin "Gizli gecələr" rəsm əsərinin parodiya olunmasını biabırçılıq adlandırıb.*

*Ümumiyyətlə 2024-cü Yay Olimpiya oyunlarının açılış mərasimi bütün dünyanın tənqid hədəfinə çevrilib. Xüsusilə xristian dünyası, orada nümayiş etdirilən "Gizli gecələr"ə edilən parodiyanı özləri üçün təhqir saydılar.*

*Rusiya xarici işlər nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova açılış mərasimi zamanı xristianların çox ciddi təhqir olunduğunu bildirərək, mərasimi başdan-ayağa təxribat adlandırıb.*

*Yunanıstanın "pronews.gr" portalı parodiyanı, "Qərbi Avropada sivilizasiyanın və xristian mədəniyyətinin iflası" kimi qiymətləndirib.*

*Fransa yepiskopluğu da, şoudakı gülüş səhnələrdə xristianlığın təhqir olunduğunu, xristianlara lağ edildiyini bəyan edib.*

*Nəhayət İyulun 28- də 2024-cü il Olimpiya oyunları mərasiminin təşkilatçılıq komitəsinin nümayəndəsi Ann Deşam keçirdiyi brifinqdə biabırçı açılışa görə üzr istəyərək bəyan etdi ki, təşkilatçılar "sosial qruplara hörmətsizlik etməyi yox, cəmiyyətin müxtəlifliyini bayram etmək istəyirdilər".*

*Paris Olimpiadasının açılış mərasiminin, xüsusiylə də xristian dünyasında yaratdığı etiraz səsləri, uğursuz və iflasa uğrayan açılış mərasimi ilə bağlı, Beynəlxalq Olimpiya Komitəsi də beynəkxaq ictimayət qatşısında üzr istəmək məcburiyyətində qaldı.*

*Dünya etiraz etdi, yalnız Fransanın lideri, Emanuel Makron 2024 Olimpiya oyunlarının açılış mərasimini "qey parada" çevirən həmcins yoldaşlarının biabırçılığına susmaqla haqq verdi.*

## İlon Mask "Google"ni seçkilərə müdaxilə etməkdə günahlandırır

**Amerikalı milyarder İlon Mask özünün X sosial şəbəkəsində yazıb ki, Google-nin ABŞ-da keçirilən prezident seçkilərinə müdaxilə etməsindən şübhələnir.**

"Google Donald Trampı bloklayıb. "Prezident Donald Tramp"ı sorğu edirsən, "Donald Dak" və "prezident Donald Reyqan" axtatış variantları təqdim olunur"- deyə Maks bildirirb.

Maks, Google-nin seçkilərə müdaxiləsi sübut olunarsa, onun ciddi problemlərlə üzləşəcəyi barədə xəbərdarlıq edib.

İlon Maks daha əvvəl bəyan etmişdi ki, prezident seçkilərində eks-prezident Donald Trampı dəstəkləyəcək...

## ""Vaqner"çiləri azad etmək lazımdır"

**Xəbər verildiyi kimi, iyulun 28-də, Malidə "Vaqner"n kalonuna hücum edilib. Qeyd olunur ki, onlara qarşı pusqu ərəb yaraqlıları tətəfindən qurulub. Bildirilir ki, kalonla hərəkət edən vaqnerçilərin hamısı məhv edilib. Daha sonra verilən məlumatlarda bir neçə vaqnerçinin əsir götürüldüyü bildirilir.**

Millətçi çıxışları ilə seçilən, Dmitri Roqozin Telegram-kanalında, təcili olaraq vaqnerçilərin azad oluması üçün hərəkətə keçməyi tələb edib.

"Bütün mümkün variantlardan istifadə edərək, bizim oğlanları basmaçıların əsirliyindən qurtarmalıyıq. Onları vətənə qaytarmalı və qəhrəmanlar kimi qarşılamalıyıq"- deyə Poqozin qeyd edib. Senator həmçinin qətlə yetirilən vaqnerçilərin cəsədlərinin də qaytarılmasını və hörmətlə dəfn edilməsini tələb edib. Rusiyanın da əcəb xasiyyətləri var. Min kilometrlərlə uzaqda olan Maliyə muzdlu əsgərlər göndərərək aranı qarışdırır, yerli əhaliyə divan tutdurur, onlara qarşı döyüşən yerli hərbiçiləri "basmaçı" adlandırır. On il Əfqanıstana qoşun yeritdi, qanuni hakimiyyəti devirdi, yüz minlərlə insanı qətlə yetirdi, onlara qarşı vuruşan əfqanlara da "duşman" damğası vurdu. "Xüsisi hərbi ıməliyyat" adı altında Ukraynaya hücum edib, ərazilərini işğal edib, on minlərlə dinc sakini qətlə yetirib, hələ onlara qarşı müqavimət göstərən Ukraynanın qanuni silahlı qüvvələrini "nasit" adlandırır(?)...

**Rüstəm Hacıyev**

# Mişel Bakı-İrəvan sülhü üçün səyləri bərpa edir

**Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Ermənistan və Azərbaycan arasında sabit sülhün bərqərar olmasına yönəlmiş səyləri bərpa edir.**

Adalet.az xəbər verir ki, bu barədə "Politico" nəşri məlumat yayıb.

İki yüksək rütbəli diplomat Mişelin bu ayın əvvəlində Böyük Britaniyada keçirilən Avropa Siyasi Birliyinin Sammiti çərçivəsində Ermənistan və Azərbaycan liderləri ilə ikitərəfli görüşlər keçirdiyini təsdiqləyib.

Bu görüşlər barədə əvvəllər məlumat verilməyib və Azərbaycan Ermənistanı sammitin kənarında liderlər səviyyəsində görüşdən imtina etməkdə ittiham edib.



Mişel eyni vaxtda hər iki tərəfə mesaj göndərərək, onları danışıqlar masasına qayıtmağa və bəzi məsələlərdə, xüsusən də sərhədlərin demarkasiyasına dair irəliləyiş əldə etməklə sülh sazişini yekunlaşdırmağa çağırıb.

Lakin aylarla davam edən diplomatiya dalana dirəndikdən sonra, çoxdan gözlənilən razılaşmanın baş tutmamasından sonra Brüsseldə məyusluq artır: "Günün sonunda hər iki tərəf razılığa gəlməlidir, çünki prezident Mişel Ai-nin sülh razılaşmasına nail olmaq üçün əlindən gələni edib".

Böyük Britaniyadakı görüşlər Azərbaycanın Qarabağ bölgəsini geri almaq üçün hərbi əməliyyata başlamasından cəmi 9 ay sonra keçirilib.

Bu, Mişelin rəhbərlik etdiyi aylarla davam edən danışıqlardan sonra və Qərbin yalnız diplomatik həllin regiona sülh gətirə biləcəyi barədə xəbərdarlıqlarına baxmayaraq baş verib.

**Nəşr həmçinin bildirib ki, hazırda gərginlik yenidən artmaqdadır və ötən həftə Azərbaycanın Müdafiə Nazirliyi Ermənistanı iki ölkənin ümumi sərhədi boyunca təxribatlarda ittiham edib.**

## NATO Rusiyanın "damarını" yoxlayır



**ABŞ dövlət katibinin Avropa və Avroasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynen bəyan edib ki, Şimali Atlantika Alyansı tezliklə Rusiyaya qarşı yeni strategiya hazırlamağa başlayacaq.**

"NATO növbəti aylardan Rusiyaya qarşı yeni strategiya hazırlığına başlayacaq. Bu strategiya gələcəkdə bütün tətəfdaşları Rusiyaya qarşı birləşdirəcək"- deyə Birləşmiş Ştatların xarici işlər idarəsinin nümayəndəsi bildirib.

O'Braynen qeyd edib ki, NATO-ya üzv dövlətlətin hamısı Çinin Ukrayna münaqişəsində Rusiysnın yanında olduğunu təsdiq ediblər.

ABŞ dövlət katibinin köməkçisi hər halda Türkiyə və Macarıstan kimi alyansa üzv dövlətlərin Ukrayna-Rusiya münaqişəsində antirusiya sanksiyalarına qoşulmamasından, neytral mövqe tutduqlarından xəbəri olmamış olmaz, yəni bu məsələdə NATO-nun (ABŞ-ın) yanında durmadıqlarından məlumatlıdır. İstər Türkiyənin prezidenti Rəcıb Tayib Ərdoğanın, istərsə də Macarıstanın baş naziri Viktor Orbanın Rusiyanın prezidenti Vladimir Putinlə şəxsi münasibətləri də var. Belə olan halda, onların NATO dövlətləri olaraq Rusiyaya qarşı Vaşinqtonla birgə hərəkət edəcəklərinə kim inanar?

Siyasi ekspertlərin fikirincə, bu tip xəbərlər, əslində Rusiyanın "damarlarını" yoxlamaq məqsədi ilə yaradılır.

**Rüstəm Hacıyev**

## "MEDİA Könüllü"lərinə təşəkkürnamələr təqdim edildi



**İyulun 20-22-də "Yalan Məlumatların İfşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda keçirilən 2-ci Şuşa Qlobal Media Forumunun təşkilində fəal iştirak edən bir qrup "MEDİA Könüllü"sü təşəkkürnaməyə layiq görülüb.**

Bu barədə Adalet.az-a Medianın İnkişafı Agentliyindən (MEDİA) məlumat verilib.

MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov Forumun uğurla keçirilməsində könüllülərin əhəmiyyətli rolu olduğunu deyib. O, Forum müddətində böyük əzm və iradə ilə çalışan könüllülərin işini yüksək qiymətləndirib, onlara peşə və karyera inkişafı ilə bağlı tövsiyələr verib, gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Könüllülər isə Forumla bağlı təəssüratlarını bölüşüb, gördükləri işlər barədə məlumat veriblər.

Sonda "MEDİA Könüllü"lərinə təşəkkürnamələr təqdim edilib.

Qeyd edək ki, 50 ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun iştirak etdiyi 2-ci Şuşa Qlobal Media Forumunda iştirakçılar üçün müxtəlif beynəlxalq layihələrin təqdimatı, sərgilər, mədəni tədbirlər baş tutub, çoxsaylı əməkdaşlıq müqavilələri imzalanıb.

# «ƏDV geri al» adı ilə də dələduzluq edilir

**Azərbaycanda "ƏDV Geri Al" layihəsi adından saxta elektron ünvanlarla dələduzluq həyata keçirilir.**

Adalet.az xəbər verir ki, bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti məlumat yayıb.

Bildirilib ki, son zamanlar Dövlət Vergi Xidmətinin adından yaradılan saxta elektron resurslar vasitəsilə həqiqətəuyğun olmayan məlumatların yayılması və digər sui-istifadə halları artmaqdadır.

Kiberdələduzlar Dövlət Vergi Xidmətinin və quruma aid olan internet səhifələrinin elektron ünvanlarına oxşar saxta saytlar və səhifələr yaradaraq müxtəlif məzmunlu məlumatlar təqdim edir, yaxud saxta keçidə daxil olmaqla, zərərli faylların istifadəçilərin elektron avadanlıqlarına yüklənməsini həyata keçirirlər.

Əhalinin "ƏDV geri al" layihəsi çərçivəsində www.edvgerial.az portalından fəal istifadə etdiyini nəzərə alan dələduzlar ƏDV-nin bir hissəsinin geri qaytarılmasını vəd edən saxta elektron ünvanlar yaradır və internet üzərindən vətəndaşların şəxsi və bank məlumatlarını ələ keçirərək onlara məxsus vəsaitləri mənimsəməyə çalışırlar.



Dövlət Vergi Xidməti ictimaiyyətə müraciət edərək heç bir halda şəxsi və bank məlumatlarını şübhəli portallara daxil etməməyə çağırır. Şəxsi həyatın toxunulmazlığını təmin etmək və maliyyə itkilərinə məruz qalmamaq üçün elektron ünvanların dəqiqliyinin yoxlanılması və yalnız rəsmi elektron mənbələrdən istifadə edilməsi zəruridir.

Xidmətin rəsmi internet resurslarının ünvanlarını bir daha ictimaiyyətin diqqətinə təqdim edilir:

Rəsmi internet saytı - www.taxes.gov.az

İnternet Vergi İdarəsi - www.new.e-taxes.gov.az

"ƏDV geri al" layihəsi çərçivəsində yaradılmış sayt - www.edvgerial.az

Yuxarıda qeyd olunanlarla bağlı hər-hansı şübhəli hallarla qarşılaşdıqda, bu haqda Dövlət Vergi Xidmətinə məlumat verilməsi xahiş edilir.

## HƏMAS lideri İsmayıl Haniyə Tehranda öldürülüb

**HƏMAS lideri İsmayıl Haniyə İranın paytaxtı Tehran şəhərində öldürülüb.**

Adalet.az xəbər verir ki, bu barədə İslam İnqilabı Keşikçiləri Korpusu məlumat yayıb. Belə ki, bu gün səhər saatlarında HƏMAS rəhbərinin Tehrandakı iqamətgahı raket atəşinə tutulub. Qeyd olunub ki, təkcə Haniyə deyil, onun mühafizəçilərindən biri də öldürülüb. Hadisə ilə bağlı araşdırma aparılır. Hadisə ilə bağlı HƏMAS bəyanat yayaraq hərəkatın Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin İsrailin hücumu nəticəsində öldüyünü bildirib.

Xatırladaq ki, 13 iyul 2024-cü ildə İsrailin Baş naziri Benyamin Netanyahu bütün HƏMAS rəhbərliyini hədələmişdi.



*Ceyhun Ağabəyov*
*Prezident təqaüdçüsü.*
*AYB-nin üzvü*

# Qusarda dayanan saatlar işləməyəcək...

***Tələbəlik illərimdə qəzetlərdən birinə yazmışdım "O nədir ki Qusarda havayıdır?" Kim taparsa redaksiya tərəfindən hədiyyə alacaq. Çox cavablar oldu. Amma heç kim tapmadı. Söhbət 1997 ci ildən gedir... Cavab "Ayaqyolu" idi...***

***Sözüm onda yox... Qusarda bir saatsaz vardı. Qol saatımın enerji daşı tükəndiyi üçün saatsazın məkanına getdim. Bir neçə qol saatım var... Çox əzizdilər mənə, varlığımı saniyəbəsaniyə tükəndirdiklərinə rəgmən... Bu dünyada ən çox sevdiyim kimlərdən, nələrdən biriləri də divar və qol saatlarıdır... Zənnimcə hamımız üçün onların məqsəd və məramı bəllidir deyə çox sevilməsidirlər... İşimə başlamazdan öncə saatsazın məkanına üz tutdum. Həm də bu məkana yaxın bir yerdə biznes mentorluq edirəm. Bilmirəm ki, usta rəhmətə gedib. Soruşdum ki, saatsaz hardadır? Dedilər: "Gedib o bir də qayıtmayacaq..."***

***Əqrəbləri dayanmış iki qol saatım kimi dondum yerimdə...***

***İlk sualım:***

***-Başqa yerdə saatsaz varmı?***

***Dedilər ki: Bilmirik...***

***Bir üzünurlu, mehriban, çox diqqətcil adam olmaqla yanaşı, əsl sənətkar idi... Saatsaz vəfat etdi. Amma özündən sonra Qusarda saatsaz olmadı...***

***Qusarda saat təmiri yoxdur...***

***2 ci sual belədir: O nədir ki, bundan sonra Qusarda nələr işləməyəcək?***

# Alimlər: "Gələcəkdə bir sıra ölkələrdə yaşamaq qeyri-mümkün olacaq"



**ABŞ-nin Perdyu Universitetinin alimləri müəyyən ediblər ki, bir neçə ildən sonra Qərbi Afrika, Cənubi Asiya və ABŞ-nin Orta Qərbi iqlim dəyişikliyi səbəbindən insan həyatı üçün təhlükəli vəziyyətə gələcək.**

Adalet.az xəbər verir ki, alimlərdən ibarət tədqiqat qrupu Yerdəki iqlim dəyişikliyi və istilik dalğaları ilə bağlı məlumatlardan istifadə edərək modelləşdirmə həyata keçirib.

Alimlər belə qənaətə gəliblər ki, bəşəriyyət qarşıdakı illərdə havanın soyuyacağını gözləməməlidir. Temperatur tədricən artacaq və bu da artan rütubətlə birləşərək əksər insanlar üçün çətin və təhlükəli yaşayış şəraiti yaradacaq.

"Qərbi Afrika və Cənubi Asiyanın bəzi hissələri ən həssas bölgələr sırasındadır, çünki bu ərazilər sıx əhalisi və məhdud soyutma qabiliyyətinə malik olması ilə fərqlənir. ABŞ-nin bəzi hissələrində, o cümlədən Orta Qərb bölgəsində də yüksək rütubətli istilər yaşanacaq", - tədqiqatçılar qeyd ediblər.

Alimlər əlavə edib ki, texnologiyaya çıxışı olan inkişaf etmiş ölkələrin sakinləri istilərə daha rahat tab gətirəcəklər, lakin bu da uzun sürməyəcək. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, istilər hazırda dünyada 489 illik ölümə səbəb olur. Lakin iqlim və sağlamlığın pisləşməsi arasında həmişə açıq-aşkar əlaqənin olmaması səbəbindən ölənlərin dəqiq sayı daha yüksək ola bilər./report

# Azad edilmiş ərazilərdə indiyədək nə qədər mina təmizlənib?

**Cari ilin iyul ayı ərzində azad edilmiş ərazilərdə Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələrinin fəaliyyəti nəticəsində 1184 hektardan çox ərazi minalardan tam təmizlənib.**

Adalet.az xəbər verir ki, bu barədə Müdafiə Nazirliyindən bildirilib. Məlumata görə, azad edilmiş ərazilərdə bu günə kimi mühəndis-istehkam bölmələri tərəfindən 39721 hektar ərazi mina və partlamamış döyüş sursatlarından təmizlənib. Ümumilikdə 13045 ədəd partlamamış hərbi sursat, 3318 ədəd tank əleyhinə mina və 10463 piyada əleyhinə mina aşkarlanaraq məhv edilib. İşğaldan azad edilmiş tarixi ərazilərimizdə sosial rifahın yenidən bərpa olunması, təhlükəsizliyin təmin edilməsi, o cümlədən, yol və infrastruktur işlərinin təşkilinin sürətləndirilməsinə yönəldilmiş mühəndis təminatı üzrə zəruri tədbirlər plana uyğun olaraq davam etdirilir.

# Afaq Əliyeva: "Hər il vaksinasiya sayəsində 4 milyona yaxın ölümün qarşısı alınır"

**"Peyvəndlər hər gün müxtəlif mikrob və viruslarla təmasda olan uşaqların immun sistemini gücləndirməklə, xüsusən immun sistemi zəif olan körpələri ciddi fəsadlara və ya ölümə səbəb ola biləcək təhlükəli xəstəliklərdən qoruyur".**

Bu fikirləri "Sağlam radio"da yayımlanan "Sağlam həyat" verilişində Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini Afaq Əliyeva bildirib.




Onun sözlərinə görə, dünyada hər il uşaqların vaksinasiyası sayəsində 4 milyona yaxın ölümün qarşısı alınır:

"Profilaktik peyvənd təqviminə uyğun olaraq, uşaqların vaxtında peyvənd olunması vacibdir. Vaksinasiyanın əhatəsi aşağı düşdükdə və ya digər ölkələrdən gətirilmə xəstəlik halları nəticəsində peyvəndlərlə idarə olunan qızılca, difteriya, göyöskürək, poliomielit kimi yüksək yoluxucu və təhlükəli xəstəliklər yenidən baş qaldıra və alovlanmalara səbəb ola bilər. Belə halda peyvənd olunmayan uşaqlar yoluxma riskinə məruz qalırlar. Buna misal olaraq Azərbaycanda son illər qeydə alınan qızılca xəstəliyinin alovlanmasını göstərmək olar. Qeyd etmək lazımdır ki, qızılcaya qarşı aparılan əlavə immunlaşdırma tədbirlərinin qeydə alınması davam edir. Bununla bağlı olaraq qızılcaya qarşı peyvəndlərdən kənarda qalan uşaqların, 11-40 yaşlarda qızılca xəstəliyi keçirməyən və bu infeksiyaya qarşı peyvəndi olmayan şəxslərin peyvəndlənməsi davam etdirilir".

A.Əliyeva qeyd edib ki, hazırda uşaqlar arasında 11 infeksiyaya qarşə peyvənd işləri aparılır:

"2024-cü ilin mart ayından ölkədə 6-komponentli Heksavaksin tətbiq edilir. Bu vaksin uşaqları eyni zamanda 6 infeksiyadan qoruyur (difteriya, göyöskürək, tetanus, b tipli hemofil infeksiya, hepatit B, poliomielit). Heksavaksin uşaqlara 2,3,4 aylığında vurulur, təhlükəsiz və effektiv vaksindir. Aparılan məqsədyönlü immunizasiya tədbirləri nəticəsində Azərbaycanda 1996-cı ildən poliomielit, 2007-ci ildən məxmərək, 2009-cu ildən difteriya xəstəlikləri qeydə alınmır. Digər idarəolunan xəstəliklərdən epidemik parotit, tetanus xəstəlikləri tək-tək hallarda qeydə alınır".

# Azərbaycanda daha bir proses elektronlaşdırılacaq

**"Biznesin yerləşdiyi yer (əmlakın qeydiyyatı və icarəsi)" indikatoruna dair 2024-cü il üzrə Yol Xəritəsinin və "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi üzrə görülmüş işlər barədə təqdimatı keçirməkdə məqsədimiz işçi qrupunun cari ildə həyata keçiriləcəyi tədbirlər, cari ilin birinci yarımilliyi ərzində yerinə yetirilmiş işlərin hesabatıdır.**

Adalet.az xəbər verir ki, bunu İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsin İdarə Heyətinin sədri Nigar Alimova jurnalistlərə açıqlaması zamanı deyib.

Onun sözlərinə görə, ümumilikdə bu yol xəritəsi 26 tədbirin həyata keçirilməsini nəzərdə tutub.

"Bu ilin birinci yarımilliyi ərzində 10 tədbir tamamilə başa çatdırılıb, 13 tədbirin icrası isə ikinci yarımillikdə davam etdirilir. Ən böyük uğur kimi bu indikator üzrə həyata keçirilmiş "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sisteminin yaradılmasını xüsusilə vurğulamaq istərdim. Bu sistemin fəaliyyəti ilə bağlı əsasnamənin və çoxlu sayda normativ hüquqi aktlara dəyişikliklə bağlı layihənin hazırlanması və aidiyyəti dövlət orqanları ilə razılaşması üçün təqdim olunması prioritetlik təşkil edir", - deyə N.Alimova vurğulayıb.

N.Alimova qeyd edib ki, portal ölkədə əmlak hüquqlarının qeydiyyatı mərhələsinə başlamaqla hazır sənədlərin təqdim olunmasını, bütün bu proseslərin tam elektronlaşdırılmasını nəzərdə tutur: "Bu, həmçinin ölkədə elektron inzibatçılığın, elektron idarəetmənin daha da genişləndirilməsidir, nəticədə beynəlxalq reytinqlərdə biznes strukturları üçün əlverişli mühitin yaranmasıdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər ölkə daxilində vətəndaşların, biznes subyektlərin əmlak hüquqlarına qeydiyyat imkanlarının əlçatanlığının artırılması, vətəndaş-məmur ünsiyyətinin azaldılması və yekunda vətəndaş məmnunluğunun artırılmasına xidmət edir. Nəticə etibarilə mənzil əldə etmək istəyən vətəndaşlar seçimi və ödənişi portal vasitəsilə əldə edə bilərlər. Yeniliklərdən biri də ilin əvvəlindən başlayaraq təkcə mülkiyyət hüquqları, eləcə də əmlak hüquqlarına dair çıxarışların deyil, həmçinin onların ayrılmaz tərkib hissəsi olan texniki sənədlərin yeni, torpağa münasibətdə toplanmış sənədlər, tikililərə münasibət də isə texniki pasportlar tam elektronlaşdırılıb. Elektronlaşma tamamilə başa çatdırılıb".

*Rəşad Məcid*

# "Qatardan qalan adam"



***Anarın "Qatardan qalan adam" hekayəsi barədə əvvəlki statusumda yazmışdım: "Hekayə həqiqətən dərin mülahizələrə, müxtəlif versiya və yanaşmalara imkan verən, çoxlu və fərqli nəticələrə gətirib çıxaran dəyərli bədii nəsr nümunəsidir".***

***Düzü, hekayənin bu qədər böyük reaksiya doğuracağını gözləmirdim. Həddindən artıq çoxlu rəylər oldu. Bəzi özünü ciddi ədəbiyyat adamları sayanların Anara qarşı içinin xıltını gizlədə bilmədən primitiv, üzdən tənqidlərini, yaxud hekayəni qaçaraq oxuyub mədhiyyə yazanların təriflərini qoyaq qırağa.***

***Fərqli qənaətlər də rastıma çıxdı. Yazıçı Mehriban Vəzir bir məqamı tutaraq öz mövqeyindən irəli gələn qənaətlər söyləmişdi. Feysbuk bu statusu niyə sildi, bilmədim. Burda bəlkə hansısa siyasi məqamlar, ölkə adları çəkilmişdi ona görə.***

***Amma ədəbiyyatşünas alim Asif Hacılının əsasən elmi yanaşmadan ibarət məqaləsi niyə yox oldu, bilmədim. Yaxşı ki, sayta vermişdik.***

***Sosial media üzrə mütəxəssis Fərid Pərdəşünasdan da səbəblərini öyrənməyə çalışdım. Bəzi incə detalları söylədi və bu iki yazının niyə silinməsinə gümanlarım yarandı.***

***Yazıçı Sərdar Amin də hekayə barədə məqalə yazdı. Sərdarın müşahidə etdiyi bir detalı Mehriban Vəzirin tutduğu nadir fərqli qənaətlər sırasına əlavə etdim: "Qatardan qalan adam"ın bizə yalnız ismi, bəllidir. İshaq! O da "Salmanzadə" soyadını Amerikada yəhudilərin biznesdə uğur qazanması zərurətindən "sünnət" edib "Salman" etmək istəyir. Mətnin ən uğurlu təqdimatı da elə bu istəyin sondakı cəzasıdır; öldüyü qəsəbədə müsəlman qəbiristanlığı olmadığından yəhudi məzarlığına təhvil verilir, yəhudilərə uyğun heç bir sənədi olmadığından yandırılaraq külü göyə sovrulur. Biznesə görə soyundan keçmək istəyən şərqli yandırılmalıdır. Bu, kiçik ideya deyil!***

***Ömrünün bir qərinəsini Yazıçılar Birliyində anarxiyanın qarşısını almaqla məşğul olan Anarın 86 yaşlı qəlbində belə bir iddia varsa, təbii alqışlanmalıdır".***

***Görünən odur ki, hekayə təsadüfən bu qədər reaksiya doğurmayıb. Üzdən oxuyanlar da nəsə qeyri-adi məqamlar olduğunu hiss ediblər.***

# "Cavanşir" körpüsündə təmir işləri nə yerdədir?



**"Cavanşir" yol ötürücüsünün yerləşdiyi ərazidə yeni yol infrastrukturunun yaradılması istiqamətində işlər yekunlaşmaq üzrədir.**

Adalet.az xəbər verir ki, "İnşaat Norma və Qaydaları"na əsasən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən aparılan işlər çərçivəsində ərazidə körpünün sökülməsi, sökülmüş hissələrin ərazidən daşınması işləri görülüb. Daha sonra ərazidə yararsız qrunt qazılaraq çıxarılıb, kommunikasiya xətləri köçürülüb, ardınca əks-dolğu işləri icra olunaraq yeni yol yatağı inşa edilib. Layihəyə uyğun olaraq yol ötürücüsünün yerləşdiyi ərazidə yeni yolun və əsas yola birləşən giriş-çıxış yollarının tikintisi üçün yol əsasının inşası da yekunlaşdırılaraq asfaltlanma işləri yerinə yetirilib. Aparılan işlər həm nəqliyyat vasitələrinin, həm də piyadaların ərazidə rahat və təhlükəsiz hərəkətini təmin edəcək. Belə ki, layihə boyu yeni piyada səkilərinin tikintisi icra olunub. Hazırda piyada səkilərinin və yolun hərəkət hissəsinin kənarlarına yeni səki daşlarının düzülməsi, səkilərin tamet daşlarla örtülməsi işləri də aparılır. Bundan başqa layihəyə uyğun olaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən ayrıcı zolaqlarda və yol kənarlarında əlavə abadlaşdırma işləri görülür, münbit torpaq qatı verilərək yeni yaşıllıq ərazilər salınır.

İşlərinin tərtib olunmuş qrafikə uyğun yaxın günlərdə yerinə yetirilib yekunlaşdırılması üçün əraziyə lazımi sayda canlı qüvvə və texnika cəlb edilib.

**Qeyd edək ki, Bakı şəhəri, Xətai rayonu, Afiyəddin Cəlilov - Üzeyir Hacıbəyli küçələri istiqamətində yerləşən uzunluğu 202 m, eni 17 m, 12 aşırımdan ibarət olan Cavanşir yolötürücüsü dəmiryolu vasitəsi ilə yüklərin qısa zamanda dəniz limanına çatdırılması üçün 1962-ci ildə istismara verilmişdir. Sözügedən ərazidə dəmir yolu şəbəkəsinin ləğv edilməsi ilə körpünün əvvəlki əhəmiyyətini itirməsi, həmçinin yolötürücüsünün yükgötürmə qabiliyyətinin müasir normativ yük təsirinə (A15 və NK 100) cavab verməmdiyi nəzərə alınaraq təhlükəsizlik baxımından bu qurğunun sökülməsi məqsədəuyğun hesab edilmişdir.**



Səxavət Məmməd

# Ermənistan müharibəyə hazırlaşır

## Ukraynadan sonra toqquşma məntəqəsi Cənubi Qafqaz

*Ermənistanla Azərbaycan arasında siyasi gərginliyin olması heç kimə sirr deyil. Tərəflər arasında danışıqlar demək olar ki, dayanıb. Faktiki olaraq, Ermənistan tərəfinin İngiltərədəki görüşdən imtina etməsi və bunu Azərbaycan tərəfinin danışıqlardan qaçmaq kimi qəbul etməsi siyasi gərginlikdən xəbər verir.*

*Siyasi gərginlik bu şəkildə davam edəcəksə, yerini hərbi gərginliyə verə bilər. Artıq bunun işartılarını da görməkdəyik. Bu barədə bir qədər sonra.*

*Ermənistanın Fransadan, Hindistandan, iddiaya görə, İrandan silah alması regionda silahlanma yarışına gətirib çıxarıb.*

*Azərbaycan tərəfi eyni vaxtda həm qarşı tərəfin aldığı silahlara adekvat silahlar almalı, həm Qarabağda quruculuq işləri görməli, həm də əraziləri minalardan təmizləməlidir. Bunlar təbii ki, milyardlara vəsait hesabına başa gəlir. Bunların üzərinə silahlanmaya da vəsait ayrılması Azərbaycanın vəziyyətini bir qədər də qəlizləşdirir. Bütün bunların eyni vaxtda baş verməsinə iqtisadiyyat necə dözəcək, onu iqtisadçılar şərh etsə, daha yaxşı olar.*

*Ermənistan ordusunda faktiki olaraq həm Fransanın, həm ABŞ-nin hərbi nümayəndələri mövcuddur. Bu o deməkdir ki, orduda da xeyli sayda konstrukturları var. Qərb seçim qarşısında qalmışdı. Gürcüstan, yoxsa Ermənistan. Gürcüstan ona görə seçilmədi ki, onun Rusiya ilə birbaşa sərhədi var və Gürcüstan ordusu Rusiyanın qarşısında dözüm gətirə bilməz. Ermənistanın isə Rusiya ilə birbaşa sərhədi yoxdur. Gürcüstanın Rusiyaya müharibə edə bilməz, ancaq Ermənistanın hazır konfliktdə olduğu ölkə var - Azərbaycan. Tərəflər hazırdır. Bir tərəfdə Rusiya və Azərbaycan. Digər tərəfdə isə Ermənistan, ABŞ və Fransa. Ermənistanı siyasi baxımdan Rusiyanın caynağından alan Qərb hazırda iqtisadi və hərbi baxımdan da addımlar atır.*

*Ermənistanda son günlər üçüncü müharibə ən çox müzakirə edilən mövzulardan biridir. Bunun indiki məqamda ortaya atılması təsadüfi sayıla bilməz. Sanki Ermənistan və Azərbaycanı müharibəyə sürükləyən qüvvələr var.*

*Əgər müharibə olacaqsa, Azərbaycan müharibəyə getmir, müharibə Azərbaycana doğru gəlir. Bunu bu cür qiymətləndirmək daha doğru olar. Hesab edirəm ki, tərəfləri müharibəyə sürükləyən qüvvələrin Azərbaycanla bağlı planları da var. Böyük ehtimal sanksiyalar paketini hazırlayıb əllərinin altında hazır saxlayırlar.*

*Tovuz istiqamətində Ermənistan tərəfinin təxribatına Azərbaycan tərəfi sərt bəyanatla cavab verdi. Rəsmi Bakı açıq şəkildə bildirir ki, təxribatlar davam edəcəyi təqdirdə, arsenalında olan bütün vasitələrdən istifadə etməklə özünü müdafiə məqsədilə lazımi cavab tədbirləri görüləcək. Bundan əvvəl də Azərbaycan tərəfi bəyanatlarının birində iki dəfə "müharibə" sözündən istifadə edərək Ermənistana xəbərdarlıq etmişdi.*

*Proseslər o zaman qızışa və hərbi gərginlik arta bilər ki, atəşkəsin pozulması halları zamanı itkilər olsun.*

*Baş verənlər Rusiya Ukrayna müharibəsinin sanki Cənubi Qafqaza transferi kimi də qiymətləndirlə bilər.*

*Ümid edirəm, proseslər daha da irəliyə getməz. Çünki üçüncü müharibə Azərbaycan-Ermənistan müharibəsi olmaqdan çıxacaq (yeri gəlmişkən, bu barədə elə 2020-ci ilin noyabr, dekabr aylarında yazılar yazmışam) və regionu iflic edəcək.*

# Zelenski Ukrayna torpaqlarını Qərbə satıb?

**Ukrayna lideri Voodimir Zelenski ölkəsinin torpaqlarını Qərb korporasiyalarına satıb.**

Adalet.az xəbər verir ki, bu barədə Avropa Parlamentinin İrlandiyadan olan üzvü Mik Uolles "X" da yazıb.

"Siz Ukrayna torpaqlarının Qərb korporasiyalarına satılmasına töhfə vermisiniz", - o, vurğulayıb.

Avropa Parlamentinin deputatı əlavə edib ki, Ukrayna liderinin hərəkətləri Ukraynanı dağıntı və fəlakətə sürükləyib.

Xatırladaq ki, ötən il Amerika kəşfiyyatçısı Skott Ritter Zelenskini ABŞ-ya Ukraynanın mühüm resursunu satmaqda ittiham etmişdi. Ritterin sözlərinə görə, Ukraynanın qara torpağı indi BlackRock-un yurisdiksiyasındadır.

Keçmiş kəşfiyyatçının fikrincə, hər bir ukraynalı "Rusiyanın qələbəsi üçün dua etməlidir", çünki bu, Ukraynanın suveren dövlət kimi həqiqətən sağ qala biləcəyi yeganə yoldur.

# Sərxoş sürücülər azalıb




**Hər bir sürücü birmənalı olaraq yol hərəkəti qaydalarına əməl etməyə borcludur. İndi gələn görək bütün sürücülər bu qaydaqanuna əməl edirmi?! Əlbəttə, yox!**

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin əməkdaşlarının apardığı tədbirlər nəticəsində məlum olur ki, hələ sükan arxasında sərxoş vəziyyətdə avtomobil idarə edən, manevr qaydasını pozan, dayancaqları zəbt edən, dayanma və durma qaydalarına əməl etməyən kifayət qədər sürücülər var. Heç şübhəsiz belə sürücülərə qarşı yol polisi mütəmadi olaraq qabaqlayıcı tədbirlər görür, onlar maarifləndirir, lazım gələndə isə inzibati məsuliyyətə cəlb edir.

Bakı Şəhər Dövlət Yol Polisi Alayının 5- ci tağımında 20 yanvar və " Şamaxinka" istiqamətində hərəkətin təhlükəsizliyini bir qayda olaraq yüksək səviyyədə təmin edir. Belə ki, bu ünvanlarda dayanma, durma qaydalarını pozanlar, avtobus dayanacaqları zəbt edənlər, nəqliyyat vasitələrinin konstruksiyasında dəyişikliyə yol verənlər və digər qayda pozuntusu yaradanlar məsuliyyətdən kənarda qalmır.

5- ci tağımın komandiri Nurlan Əliyev deyir ki, həyata keçirilən tədbirlər nəticəsində son vaxtlar belə qayda pozuntusuna yol verən sürücülərin sayı xeyli azalıb. O cümlədən sərxoş sürücülər də bir o qədər çox deyil. Çünki tağımımızın əməkdaşları bütün qayda pozuntularına qarşı vaxtaşırı mübarizə aparır. Ən çox da kobud qayda pozuntularına yol verənlər diqqətimizdən yayınmır və onlar kimliyindən asılı olaraq məsuliyyətə cəlb olunurlar. Sürücülərə tövsiyəmiz odur ki, avtobus dayanacaqlarını zəbt etməsinlər və dayanma, durma qaydalarını pozmasınlar!!!

# Tikinti materialları da bahalaşıb



**Yanacağın qiymətinin artması ilə əlaqədar olaraq , digər məhsullar kimi mişar daşının, taxtanın, sementin, eləcə də digər materialların qiyməti yüksəlib.**

Təbii ki, bu da ev tikmək istəyənlərin qanını qaraldıb! Əlbəttə, qiymət artımı istər-istəməz insanların ovqatına da mənfi təsir edib. Mişar daşında artım 30 qəpik, taxtada 30-40 manat, kərpicdə 15 qəpik, sementdə 40 qəpik yüksəlmə var! Heç şübhəsiz, qiymətlərin qalxması tikinti sektoruna mənfi təsir göstərib.

Eləcə də bahalığa görə, ev tikənlər xeyli azalıb. Və bundan sonra nələr olacaq dəqiq bir söz demək mümkün deyil! Tikinti ekspertləri isə çox bədbindilər və onlar bildirirlər ki, belə getsə, inşaat materiallarının ucuzlaşmasından söhbət belə gedə bilməz! Əksinə , tikinti materialları bir qədər də bahalaşa bilər!!!

# Qeyri-sabit hava



**Bu il iyul ayı heç də ötən yay kimi, çox isti keçmədi!**

İnsanlar isə ədətən iyul, avqust aylarında məzuniyyətə çıxır, ya sanatoriyaya, ya da istirahət mərkəzlərində dincəlməyə gedirlər! Bu il də bir çox dostlarımız və tanışlarımız " elə iyul ayı isti olacaq"- deyib, respublikamızın müxtəlif guşələrinə istirahətə gediblər! Amma nə fayda! Yağış, dolu, sel onların keyfinə soğan doğrayıb! Belə ki, qeyri- sabit havaya görə, dostlarımızın bir neçəsi istirahətlərini yarımçıq qoyaraq Bakıya qayıdıblar.Onlar deyirlər ki, yağış, dolu, sel yeyib- içdiyimizi burnumuzdan yökdü. Hələ indiyə kimi, belə yay ayı görməmişdik, bunu da gördük!

Dostumuz Emin Eminbəyli İsmayıllı rayonunun Buynuz kəndində yaşayır. Deyir ki, 15 gündür burda gün çıxmır! Hər gün yağış, hər gün dolu, hər gün sel... Nə isə! Görək, avqust ayı necə keçəcək? Əgər o da iyul ayı kimi, olsa, istirahət yerlərinə xərc çəkib, getməyə dəyməz!!!

# Tay indi qarpız yemək olar...



**Onsuz da bizim millət ağına- bozuna baxmadan may ayından qarpız yeyir! Nuş olsu! Öz aramızdır,kimdir, mövsümünü gözləyən.**

Amma daha gözləməyə ehtiyac yoxdur. Bilirsiniz, niyə? Niyəsi odur ki, artıq avqust ayına bir- iki gün qalıb! Qarpızı da el dilində demiş olsaq, avqustda yeyirlər.Özü də bu ayda bostandan dərilən qarpızlar minbir dərdin dərmanıdır!

Bu o deməkdir ki, böyrəklərdə nə daş, qum varsa, qarpızı yeyərkən yuyulub gedəcək! Özü də qarpız alarkən çox irsini yox, 5-6 kiloqram çəkisi olanı alın. Belə ki, iri qarpızda normadan artıq gübrə olduğu deyilir. Bir sözlə, tay indən sonra nə qədər istəsəniz qarpız yeyə bilərsiniz!!!

# İstedadlı gənclər fəxrimizdir



**Qəbul imtahanlarında yüksək bal toplamış gənclərlə hamı fəxr edir.**

Xüsusilə də 690- 700 bal toplayan məzunlar bu Vətənin ən istedadlı övladlarıdır! Onlarla tək doğmaları deyil, bütün Azərbaycan qürur duyur. Belə istedadlı gənclərdən biri də bizim həmyerlimiz - Füzuli rayonunun Böyük Bəhmənli kənd 1 saylı Ehtiram Piriyev adına tam orta məktəbin məzunu Orxan Taleh oğlu Abbasovdur! Bu istedadlı gənc qəbul imtahanında 4-cü qrup üzrə 690 bal toplayıb.

Onun imtahanda belə yüksək nəticə əldə etməsində təhsil aldığı? məktəbin müəllimlərinin zəhməti böyükdür! Eyni zamanda doğmalarının da əziyyəti az olmayıb. Amma ən böyük əziyyəti Orxan özü çəkib, nəticəsini də görüb.İndi onunla bütün Bəhmənli kəndi fəxr edir!

Biz də Orxan Abbasovu qəbul imtanında yüksək bal topladığına görə təbrik edir, onun valideynlərinə göz aydınlığı verir, tələbəlik illərində uğurlar arzulayırıq! Və deyirik: Orxan sükanı bax belə saxla!!!

# 97 bal toplayana iş tapılmır



**Qubada yaşayan Fərqanə Qiyas qızı Əliyeva ibtidai sinif müəllimliyi üzrə keçirilən imtahında respublikada ən yüksək bal - 97 bal toplayıb.**

Amma ona Qubada deyil, Xaçmazda iş verirlər. Niyə, balam? Bu adamın ailəsi və uşaqları var! İndi ailəsini, uşağını qoyub, Xaçmaza getsin?! Belə ədalətsizlik olarmı?! Bəs, Elm və Təhsil Nazirliyi hara baxır? Aşağı bal toplayana Qubada iş tapılır, amma 97 toplayana iş tapılmir! Bax, bunu başa düşmək olmur!!!

**EMİL FAİQOĞLU**



# Xameneyi İsraili vurmağı əmr etdi

**Yaxın Şərqdə irimiqyaslı müharibə başlaya bilər**

The New York Times qəzetinin yazdığına görə, İranın Ali dini rəhbəri Əli Xamenei, HƏMAS-ın siyasi bürosunun lideri İsmayıl Xanıyanın öldürülməsinə cavab olaraq İsraili vurmağı əmr edib.

Qeyd olunur ki, müvafiq qərar İranın Milli təhlükəsizlik üzrə Ali Şurasının təcili keçirilən iclasında qəbul edilib.

Daha əvvəl HƏMAS-ın Livandakı nümayəndəsi Mahmud Tax bəyan etmişdir ki, Xanıyanın qətlə yetirilməsində İsrail və ABŞ məsuliyyət daşıyır və bu əməliyyatın keçirilməsi əvvəlcədən Vaşinqtonla razılaşdırılıb. Mahmud Taxın sözlərinə görə, hərəkatın liderinin öldürülməsi, Yaxın Şərqdə irimiqyaslı müharibəyə gətirib çıxara bilər, ABŞ isə anlamalıdır ki, bu regionda eskalyasiyaya səbəb olmaqda cavabdehlik daşıyır.

**Ağ Evin milli təhlükəsizlik şurasının strateyi kommunikasiyalar üzrə koordinatoru Con Kirbi bəyan edib ki, ABŞ əvvəlcədən HƏMAS-ın siyasi bürosunun liderinin məhv edilməsi ilə bağlı İsrailin planlarından xəbərdar olmayıb.**

Rüstəm Hacıyev

# ABŞ rəsmisi: "Ermənistanın Rusiyadan uzaqlaşması üçün şərait yaradırıq"

**"Rusiya Federasiyası 2020-ci il müharibəsindən əvvəl və sonra uzun illər ərzində Ermənistanın təhlükəsizliyinin təminatçısı olub, lakin bu, uğursuzluğa düçar olub".**

Adalet.az xəbər verir ki, bunu ABŞ dövlət katibinin köməkçisi Ceyms O'Brayen ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin Avropa və Regional Təhlükəsizlik Əməkdaşlığı Alt Komitəsinin



iclasında deyib.

Onun sözlərinə görə, Azərbaycan Qarabağdakı əraziləri geri aldıqdan sonra Ermənistan Rusiyaya arxa çevirib: "Bu, münasibətlərin kəskin şəkildə pozulmasına gətirib çıxardı, Ermənistan əhalisinin əksəriyyəti Rusiyadan daha da uzaqlaşmaq istəyir. Biz isə bunun baş verməsi üçün şərait yaradırıq".

O vurğulayıb ki, ABŞ Ermənistanın baş naziri Nikol Paşinyanın rəhbərlik etdiyi cəsarətli addımlar atmasına şərait yaratmaq istəyir: "Söhbət Rusiya ilə münasibətləri kəsməkdən gedir. Ermənistan ABŞ-nin çox vaxt sərf etdiyi mövzudur. Bir neçə ay əvvəl biz baş nazir Paşinyanla görüşdük və Ermənistanın Rusiyadan asılılığını azaltmaq üçün yeni platformanı təsdiq etdik. Ermənistan demək olar ki, tamamilə iqtisadi və enerji baxımından Rusiyadan asılıdır. Biz bunu diversifikasiya etməliyik"

# Blinkenin köməkçisi: «Azərbaycan və Ermənistan bununla bağlı razılığa gəlib»

**Azərbaycan və Ermənistan sərhədin demarkasiyası prosesi ilə bağlı razılığa gəliblər.**

Adalet.az xəbər verir ki, bu barədə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayen bildirib.

O, Senatın Xarici Əlaqələr Komitəsinin regional əməkdaşlıq və təhlükəsizlik üzrə alt komitəsində "Avropanın gələcəyi" mövzusunda dinləmələr zamanı sualları cavablandırarkən deyib:

"Hər iki tərəf demarkasiya prosesi ilə bağlı razılığa gəlib. Onlar sərhədlərin harada olması barədə razılığa gəliblər. Elə sahələr var ki, hər iki tərəf hələ də onlara nəzarət edir. Amma çox güman ki, razılaşdırılmış sərhədlərə görə geri çəkiləcəklər və yüksək dağlıq bölgələr bu baxımdan xüsusi maraq kəsb edir.

Amma bir daha vurğulayıram ki, bu, hər iki tərəfin üzərində çalışdığı bir prosesdir. Biz çox açıq şəkildə bildirdik ki, əgər sərhəddə dəyişiklik olarsa və hər iki tərəf razılaşmayıbsa, razılaşdırılmış sərhəd tətbiq edilməlidir. Sülh sazişi üzrə danışıqlar aparılır".

# Pezeşkian: "Xarici aktorların regionda sülh prosesinə heç bir aidiyyatı yoxdur"

**Xəbər verdiyimiz kimi, Tehranda İranın yeni seçilmiş prezidentinin andiçmə mərasimi keçirilib.**

Adalet.az İran mətbuatına istinadən bildirir ki, Məsud Pezeşkian çıxışında bütün vəzifələrini yerinə yetirəcəyini, iranlıların hüquqlarını, ölkənin sərhədlərini və siyasi, iqtisadi və mədəni müstəqilliyini qoruyacağına söz verib.

O bəyan edib ki, İran və dünya üçün yeni imkanlar açılıb: "Tehran çətinliklərin öhdəsindən gəlməli və davamlı inkişaf üçün yollar açmalıdır və dünya İranın köməyi ilə regional və qlobal



problemləri həll etmək üçün bu unikal fürsətdən istifadə etməlidir".

İranın yeni seçilmiş prezidenti əlavə edib ki, onun hökumətinin xarici siyasətinin prioriteti qonşu ölkələrlə əlaqələrin yaxşılaşdırılması və möhkəmləndirilməsi olacaq: "Qonşularımız öz dəyərli resurslarını gərginliyə və rəqabətə sərf etməməlidirlər".

O, həmçinin vurğulayıb ki, xarici aktorların regionda nizamlanma və sülh proseslərinə heç bir aidiyyatı yoxdur.

## Kərim Vəliyev HHQ hərbi hissələrini yoxladı



**Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və nazirliyin digər vəzifəli şəxsləri Hərbi Hava Qüvvələrinin (HHQ) hərbi hissələrinin xidməti-döyüş fəaliyyətini yoxlayıb. Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, general-polkovnik K.Vəliyev hərbi aviasiya bazalarından birində uçuş və texniki heyətlə görüşüb, hərbi aviasiyanın uçuş hazırlığının səviyyəsi, aviasiya vasitələrinin manevr imkanları və effektiv döyüş tətbiqi, habelə qalxma-enmə zolaqlarının mövcud vəziyyəti ilə maraqlanıb.

Hərbi Hava Qüvvələrinin Təlim və Tədris Mərkəzində təkmilləşdirmə kursunun kursantları ilə görüşən general-polkovnik K.Vəliyev tədris müddətində onların döyüş hazırlığı və peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi, sərəncamda olan müasir silah və texnikanın praktiki mənimsənilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

## Minimum əməkhaqqı bu qədər arta bilər



**"Minimum əməkhaqqının artırılmasına dair qarşıdakı aylarda qərarın veriləcəyini gözləmək olar. Bununla bağlı təkliflər noyabrın 1-ə qədər təqdim olunmalıdır".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Elдəniz Əmirov deyib. O bildirib ki, ötən illərin artım dinamikasını təhlil etsək, təxminən 16% ətrafında artım daha realdır.

"Belə ki, 2022-ci ilin 1 yanvarında minimum əmək haqqı 20% artırılaraq 250 manatdan 300 manata çatdırılıb. 2023-cü ilin 1 yanvarından isə 15% artımla 345 manata çatıb. 2024-cü ildə artım olmadığı üçün 2025-ci ilin 1 yanvarından minimum əməkhaqqının 400 manata çatdırılmasını gözləmək olar. Bu isə 16%-li artım deməkdir. Minimum əməkhaqqı artırılan zaman əməkhaqları Vahid Tarif Cədvəli əsasında tənzimlənən işçilərin maaşları da buna uyğun artırılır. Deməli, minimum əməkhaqqı artırılarsa, qeyd etdiyim cədvələ uyğun digər artımları da gözləmək olar".

## Seçicilərin nəzərinə: "Asan xidmət"də...

**Seçicilər Milli Məclisə növbədənkənar seçkilərlə bağlı "ASAN xidmət" mərkəzlərindəki "ASAN növbə" terminallarında səs verəcəkləri məntəqələri öyrənə bilərlər.**

Adalet.az xəbər verir ki, terminallardakı "Seçici statusunu yoxla" adlı funksional bölmədə vətəndaşlar şəxsiyyət vəsiqələrini oxudaraq öz adlarını seçici siyahılarında yoxlaya, habelə aid olduqları seçki dairəsi və məntəqəsini müəyyənləşdirə bilərlər.

Məlumatlar sistemdə əks olunmadığı təqdirdə, açılan yeni ekranda əlaqə məlumatları daxil edilməklə yerindəcə Mərkəzi Seçki Komissiyasına müraciət etmək imkanı da təmin olunur.

Qeyd edək ki, 2024-cü il sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkilərlə bağlı tətbiq edilən innovativ layihə Mərkəzi Seçki Komissiyası və "ASAN xidmət"in birgə fəaliyyətinin nəticəsidir.

## COP29-a görə bəzi şadlıq saraylarında toy keçirilməyəcək

**Noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar paytaxtdakı bəzi şadlıq saraylarında toyların keçirilməsi təxirə salınıb.**

Adalet.az Report-a istinadən xəbər verir ki, artıq tədbirin baş tutacağı Bakı Olimpiya Stadionu ətrafındakı bəzi şadlıq sarayları noyabr ayı üçün sifarişləri qəbul etmir.

Onlar bunu COP29-la əlaqədar ölkəyə gələcək xarici vətəndaşların çoxluğu və bu mühüm tədbirin uğurlu keçirilməsi ilə bağlı paytaxtda yarana biləcək sıxlığın aradan qaldırılmasına dəstək göstərməkləri ilə əlaqələndirirlər.

Bakıdakı bir sıra restoranlardan bildiriblər ki, noyabrın 8-dən 22-nə qədər toyların sifarişini qəbul etmirlər və əvvəlcədən həmin ay üçün qəbul olunan toy sifarişlərinin vaxtı dəyişdirilib.

## Türkiyə aviaşirkəti Beyruta uçuşları dayandırdı

**"Turkish Airlines" aviaşirkəti Livanın paytaxtı Beyruta bütün uçuşları dayandırıb.**

Bu barədə "Airlinehaber" portalı məlumat yayıb.

Nəşr qeyd edib ki, qərar bölgədə gərginliyin artması fonunda təhlükəsizliyin təmin edilməsi məqsədilə qəbul edilib. Aviaşirkət hələlik bununla bağlı rəsmi açıqlama verməyib.

## "Ermənistan Azərbaycanla münaqişə səhifəsini bağlamaq istəyir"

**Ermənistan Azərbaycanla münaqişə səhifəsini bağlamaq istəyir.**

Adalet.az bildirir ki, "Sputnik-Armenia"nın xəbərinə görə, bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Cənubi Kiprdən olan həmkarı ilə birgə mətbuat konfransında bildirib.

O deyib ki, ölkəsinin daha əvvəl Azərbaycana sərhədboyu insidentlərin araşdırılması və silahlanmaya birgə nəzarətlə bağlı göndərdiyi təkliflər qüvvəsində qalır.

## Kim Çen I hakimiyyəti qızına vermək istəyir

**Cənubi Koreyanın kəşfiyyat xidməti bəyan edib ki, KXDR-nın lideri Kim Çen I, aktiv şəkildə qızını gələcəkdə ölkəni idarə etmək üçün hazırlayır. Bu barədə Cənubi Koreyanın Yonhap agentliyi parlamentdəki mənbələrinə əsasən məlumat yayıb.**

Mənbənin sözlərinə görə, Cənubi Koreyanın milli kəşfiyyat xidməti, parlamentin deputatları ilə görüşüb və əldə etdikləri məlumatları onlarla bölüşüb.

Agentlik, eyni zamanda qeyd edir ki, bu hələ Kim Çen I-nın son seçimi olmaya da bilər. Çünki, ilk dəfə deyil ki, qızının Kim Çen I-nın varisi olması barədə xəbərlər yayılır.

**Rüstəm Hacıyev**

## İşçilərin əmək hüquqlarını pozan hüquqi şəxs məsuliyyətə cəlb edildi

**Vətəndaşların əmək hüquqlarını pozan daha bir hüquqi şəxs məsuliyyətə cəlb edilib.**

Astara rayon prokurorluğundan Adalet.az-a verilən xəbərə görə, "Maricel" restoranı adı ilə fəaliyyət göstərən "Okhatan" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən işçilərin əmək hüquqlarının pozulması barədə daxil olmuş məlumat əsasında Astara rayon prokurorluğunda araşdırma aparılıb:

"Araşdırma zamanı qeyd olunan hüquqi şəxs tərəfindən əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən (bağlanmadan) 4 şəxsin işlərin yerinə yetirilməsinə cəlb edilməsi müəyyən edilib.




Faktla bağlı Astara rayon prokurorluğunda MMC barəsində İnzibati Xətalar Məcəlləsinin 192.1-ci (əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraat başlanaraq baxılması üçün aidiyyəti üzrə məhkəməyə göndərilib, məhkəmənin qərarı ilə hüquqi şəxs 20 min manat məbləğində inzibati cərimə edilib"- deyə məlumatda qeyd edilib.

**Bildirilib ki, eyni zamanda Cəmiyyətin direktoru Samir Əlizadə barəsində həmin Məcəllənin eyni maddəsilə inzibati xəta haqqında iş üzrə icraat başlanaraq baxılması üçün aidiyyəti üzrə Əmək Əhalinin Sosial müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin Lənkəran-Astara Regional Şöbəsinə göndərilib və vəzifəli şəxs müvafiq qərarla 4 min manat məbləğində inzibati cərimə edilib.**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Yaşadıqlarımın yuxulu mənzərəsi

## Onu Allah, Sən və Mən görürük

Elə bil dünən idi... Elə bil heç nə baş verməmişdi... Elə bil nə o var idi, nə də mən... Elə bil ki, o da, mən də eyni anda, eyni məkanda dünyaya gəldik... Gəldik ki, bir-birimizi görək, tanıyaq, bir-birimizə güvənək və... Birimiz o birimizi sevək!..

Bütün bunlar mənim təxminim idi, mənim düşüncəm idi. Mənim içimdən gəlib keçənlər və mənim yaşadıqlarım idi... Yəni ikimizdən biri olan mən bu cür düşünmüşəm, bu cür qəbul etmişəm, bu cür də düşünürəm və bu cür də düşüncələrim içərisində qəbul etdiyimlə yol gedirəm. Bu yolun adını kimsə bilmir... Allahdan və səndən başqa! Allah da, sən də bu adı kimsəyə deməyəcəksiz. Çünki onu deməyin də, bəyan etməyin də heç bir önəmi yoxdur. Ən azından ona görə ki, bu yolu mən gedirəm, səninlə birgə. Deməli, onun adı da sənə və mənə məlumdur. Başqa kimsə üçün bunun nə mənası var, nə də önəmi. Baxmayaraq ki, biz də bu adamların içərisində, bu yerin üstündə, bu göyün altındayıq. Deyəsən bir az təmtəraqlı çıxdı. Bədii bir səhnəyə bənzədi. Amma yox, gerçəklik onsuz da özü-özlüyündə oynanılan tamaşadı. Senarisini Allah yazır, rolları bəndə ifa edir. Bax, elə yazının ilk cümləsində dediyim həmin o andan yazını indi diktə etdiyim ana qədər biz Allahın iradəsini, yəni senarisini gerçəkləşdiririk. Baxmayaraq ki, inancımız da, inamımız da, bəzən bir-biri ilə baş-başa gəlir, toqquşur. Amma bütün hallarda şəxsən mənim içimdən gəlib keçən səs bunu deyir. Yəni söyləyir ki, sevmək üçün yaşamaq lazımdır. Yaşamaq üçün sevmək yox. Doğrudur, bunu başqa bir formada aqillər deyib. Onlar söyləyiblər ki, "yemək üçün yaşamaq yox, yaşamaq üçün yemək" lazımdır. Deməli, mənim inancım da budur ki, mütləq mənada sevmək üçün yaşamalıyam. Bu sevginin çalarlarını, naxışlarını, hətta saç düzümündən tutmuş aldığı nəfəsə qədər hər bir halını ifadə etmək, özününküləşdirmək üçün yaşamalıyam. Bax, onda Məcnun mənim qarşıma çıxa bilməyəcək, Leyli də sənin. Çünki Şeyx Füzuli demişkən "Məcnunun yalnız adı" olacaq.

Hər bir addım, hər bir qərar başlanğıca söykənir. Bu mənada mən sevginin hardan, nədən başlandığını, nəyin üzərində pərvəriş tapdığını öyrənmək, onun bütün varlığına nəzər salmaq üçün demək olar ki, hər gün, hər an baş sındırıram. Amma öyrəndiklərim, hətta varlığıma hopanlar belə məni qane etmir. Görürəm ki, aclıq çəkirəm. Daha çox ehtiyac duyuram o sevginin çalarlarına... mahiyyətinə... mənasına... və hətta mənə verdiklərinə, bağışladıqlarına...

Bax, beləcə sevgidən doymadıqca daha çox sevmək, daha çox bu yolda hər zərbəyə, hər sərtliyə, hər laqeydliyə, hər təpkiyə dözmək haqqının ətəyindən, əlindən bərkbərk tuturam...

Sizə bəlkə də qəribə gələcək... Bəlkə də kimsə dodaq büzəcək... Bəlkə də kimsə başını bulayıb "boş şeydir, şairlik eləyir!" deyəcək. Olsun, hər kəs öz məntiqində, öz baxışında haqlıdır. Mən kimisə mənim kimi düşünməyə, mənim kimi sevməyə məcbur edə bilmərəm. Ona görə ki, Allah o haqqı mənə verməyib. İkincisi, mənə o güc də bağışlanılmayıb. Deməli, qərar verən də, onu icra edən də özüməm. Elə demək istədiyim də budur. Qoy, heç kim məndən inciməsin. Mən öz yolumun yolçusu, öz sevgimin fədaisi və nəhayət öz duyğularımın şairiyəm. Və...

Ona görə də sığındığım küncdə dayanıb öz-özümə pıçıldayıram:

*Dilimi sıxıb tuturam,*
*Sözü - demədən uduram...*
*Mən, hamını unuduram -*
*Allahdan və səndən başqa!..*

*Gözümü yola sancıram,*
*Dərd tapdağında qançıram.*
*Səssiz - hamıdan qaçıram -*
*Allahdan və səndən başqa!..*

*Sinəmi yara edirəm*
*Günümü qara edirəm...*
*Bilən yox, hara gedirəm? -*
*Allahdan və səndən başqa!...*

*Qəlbimdə çıraq - şam - adın*
*Başına dönən şamandım...*
*Heç kim üçün yaşamadım -*
*Allahdan və səndən başqa!...*

***

Bəli, bəzən insan təklənmək, hamıdan qaçmaq, hətta heç nəyi düşünməmək istəyində bulunur və belə anda ən xoş söz də, ən şad xəbər də adamın tükünü tərpətmir. Çünki təklənmək istəyin çəkilib uzaq bir nöqtədə, bir qaya dibində, bir kahada, bir ormanda, bir çay qırağında, lap elə bir ağac dibində oturmaq, susmaq, gözünü yumub içindəki dünyaya baxmaq, o dünyanı yenidən gəzmək mənə görə ən ali hissdi, ən gözəl duyğudu, ən xoş istirahətdi. Ona görəki, həmin o dediyim ovqatın içərisində adam özü və bir də özünün yarısı ilə üzüzə dayanır. Səni bircə Allah görür, Allah dinləyir və sən də yalnız onu görüb, onunla danışırsan. İndi özün təsəvvür et. Bir ağac dibində Sən və O. Artıq kimsə yox, hətta ağacın budağına sərçə də qonmayıb. Çevrəndə kəpənək də uçmur. Olsa-olsa hərdən yarpaq xışıldayır. O da sənin pıçıltılarına nəqarət olur... Bu mənzərə ən kübar məclislərdən, ən zəngin mənzillərdən, imarətlərdən, ən gur insan çevrəsindən gözəl deyilmi? Yəni mənim xəyal etdyim də sonra söylədiklərimin arasındakı özəlliyi görə bildinizmi? Əgər görmədinizsə, incimirəm sizdən. Əvvəldə də demişəm və zaman-zaman vurğulamışam ki, mən öz baxış bucağım altındayam. Bu bucağın altında mənim və onun, bir də Allahın iradəsi hakimdi!..

Ömürdən ötüb gedən hər bir an özü ilə çox şeylər alıb aparır. Biz onu həmin an, həmin gün hiss etmirik və hətta bizə elə gəlir ki, heç nə baş vermir. Lakin dərindən düşünəndə ötən anın ömrünə ömür yüklədiyini və yaxud da ömründən ömür kəsdiyni fəhm edəndə onda... susursan. Susmaya da bilməzsən, çünki artıq o hökm icra olunur. Və sən onu geri oxutmaq gücündə deyilsən. Deməli, bu nöqtədə güc yalnız sumağa, bir də kipriklərini suvarmağa çatır... Nəysə...

Bir az pafoslu səslənsə də, mən daha çox duyğulara, hislərə üstünlük verdiyimdən, özüm də fərqinə varmadan həyatdan nəm çəkirəm. Su çəkən kağız kimiyəm, pambıq kimiyəm... Lap elə suyu daha tez özünə çəkən torpaq kimiyəm. Bu bir qaydadır. Nəm çəkənin bir üzü də qəm çəkir. Ona görə də yazılarımın damarındakı qəm nəmdən qaynaqlanır. Axı dünyanın harasına getsəm, hansı səmtinə üz tutsam orada qəmin də, nəmin də qonşu olduğunu bəzən isə lap göz-gözə dayandığını dəqiq bilirəm. Bu dəqiqliyi yaşamışam da, yaşayıram da. Ona görə yazmışam ki:

*Yaşayıram, yaşamaqsa əgər bu*
*Mən anlara bölə-bölə ömrümü...*
*Həsrətinlə savaşdayam, günlərə -*
*Paylayıram, ölə-ölə ömrümü...*

*Bilirəm ki, çox batmışam günaha,*
*Bürünübdü talehimdə gün aha!..*
*Sənin üçün, əl açaraq Allaha -*
*Nəzir dedim, gülə-gülə ömrümü!..*

*Bəlli anda, sən ən böyük sirrimsən,*
*Qibləgahım, güvənc yerim, pirimsən!*
*O da birdi, sən də mənim Birimsən -*
*Qurban etdim, bilə-bilə ömrümü.*

*Zaman atı yük götürmür tərkinə*
*Çəkilsəm də sınaqların bərkinə!*
*Sərf etmədim, bu dünyanın dərkinə -*
*Bir Qadına - verdim gülə, ömrümü.*

***

Heç kimə sirr deyil ki, bütün yaşananlar bu və ya başqa bir formada insan həyatında iz buraxır. İllər ötüb keçir, həmin o iz isə yaddaşda da qalır, həyatın bəlli səhifəsində də, hələ üstəlik, bəzən dilə düşüb nağıla, dastana, şeirə, nəğməyə, bayatıya, ya da lətifəyə çevrilir. Ən arzuolunmazı təbii ki, lətifəyə çevrilməkdir.

Çünki gülünc yeri olmaq, kimsəyə xoş təsir bağışlamır. Doğrudur, deyib-gülmək, zarafat, bu, həyatın elementlərindən biridir. Amma gülünc olmaq, gülüş hədəfinə çevrilmək, bu hər kəsin öz addımının, öz əməlinin bəhrəsidir. Mən yol verdiyim yalnışlıqla və yaxud da düşünülməmiş hərəkətimlə başqasında gülüş doğururamsa, mənə gülənin nə günahı var. Zənnimcə, bu məntiqim qəbul olunandır. Axı, insanı digər canlılardan fərqləndirən düşünmək, ağıllı, dərrakəli olmaq qabiliyyətidir. Bu fərq həm də o deməkdir ki, insan övladı özünü güzgüdə görməlidir, özü-özünə baxıb qiymət verməlidir. Çox təəssüf ki, çox vaxt biz bunun fərqinə varmırıq. Nəticədə də ya gülünc oluruq, ya da uğursuz...

İndi həmin o başlanğıc anı elə bil ki, dünən idi. Fikrimi yenidən həmsöhbətimə çevirirəm. Başlayıram dərdləşməyə. Bəzən deyirdər ki, adam dərdini danışanda yüngülləşir, guya dərdi bölüşəndə dərd kiçilir. Mənə görə bu içdən gələn bir təsəlli ucudur. Adamlar bir-birini ovutmaq, bir-birinə dayaq durmaq xatirinə bu fikri özlərindən uydurublar. Əgər danışmaqla, bölüşməklə dərd kiçilsəydi, onda adamlar bütün günü bir-birinə dərdini danışardı, başqa işlərini unudub dərd bölüşməklə məşğul olardılar. Lap elə mənim özüm... Dörd divarla, özümlə, sənlə, Allahımla etdiyim söhbətlər qalaq-qalaq kitabların mövzusudur. Sən də dinləyirsən, Allahım da dinləyir, bəzən dostlar, doğmalar da... Amma... Azalmaqdan daha çox boy artımı durur gözümün önündə. Görürəm, baxıram, sığallayıram dərdimin saçlarını, oxşayıram onu, əzizləyirəm. Hətta pıçıldayıram ki, "Dərdi dərd çəkənə verir Allah". Sonra da qəribə də olsa ağlıma şeir gəlir. Hansı ki, indiki anda onun yükü təkcə çiyinlərimdən deyil, həm də ömrümdən bir ağırlıq kimi gəlib keçir. Çünki o şeirdə mən səninlə bölüşmüşəm, həyatımı da, dərdimi də:

*Susuram ölü dəniz tək,*
*Solub, ağarmış bəniz tək...*
*Sağ əlini üzünə çək -*
*Bəlkə, duandan oyanım...*

*Bu sükut gözəl, həm də tər,*
*Xatirələr səpilmiş zər...*
*Saçlarını üstümə sər -*
*Sən sübh duranda, oyanım...*

*Qoyma məni qəm təkləsin,*
*Demiyə şum tək ləkləsin...*
*Seçib ruhumun nəğməsin -*
*Oxu, Quranda oyanım.*

*Sözə söykəkdi qələm də,*
*Xoşdu yazdığım ələm də...*
*Adım dilinə gələndə -*
*Qəlbin, vuranda oyanım.*

***

Bütün yazı boyu duyğuları çözməyə, daha doğrusu, duyğularımı sapa düzməyə çalışdım. Özü də məqsədli şəkildə. Çünki yaşadıqlarım, daha doğrusu, Allahın və sənin mənə yaşatdığını onsuz da özünüz bilirsiniz və mən də qəsdən sizin bildiyinizi yaddaşınıza mesaj kimi təkrar etdim. İstədim ki, bu yaşamı birlikdə təkrar edək. Və həmin təkrar da bizə məhz həmin günü yeni həyat səhifəsi kimi başlamaq gücü versin. Bilmirəm, bu istəyimi ifadə edə bilmişəm, ya yox. Amma bütün hallarda dilək diləmək hər kəsin haqqıdır. Və deməli mənim də içimdən gələn bu dilək heç vaxt yaddaşımdan, həyatımdan, taleyimdən silinməyəcək, həmin o günün yenidən başlanması olacaqdır. Axı, mən ancaq O! - deyərək əlimi açıram göy üzünə. Ardınca da pıçıldayıram. Bax, bu yazdığım misraları:

*Hər gün dizi üstə dua edəcəm,*
*Hər gün, əl açacam onun önündə...*
*Onun dərgahına qalxıb yetəcəm,*
*Axır ki, ömrümün bəlli günündə!*

*Ovcumda gizlədib gözümün yaşın,*
*Səbəbin soracam çək! - dediyinin*
*Qaldıra bilmirəm ta yerdən daşın -*
*Mənə Allahımın tək, dediyinin...*

*Sərəcəm ortaya qabar ürəyi,*
*Ad bitən dilimə bax, söyləyəcəm...*
*Sən etdin sevgini ruhun çörəyi -*
*Bax, indi gör sənə, mən neyləyəcəm!..*

Bütün duyğular bir not üstündədi, bütün simlər eyni havaya köklənib. Deməli, bütün yazı boyu yaşadığım an Allaha və sənə aiddi. Və mən də Allaha və sənə aid olanın qarşısında ümidlə dayanıb gözləyirəm. Bu da mənim haqqımdı...

### Rəqəmsal valyuta buraxmaq planımız yoxdur

**Hazırda Azərbaycan Mərkəzi Bankının (AMB) rəqəmsal valyuta buraxmaq planı yoxdur.**

Bunu AMB-də keçirilən mətbuat konfransında qurumun sədri Taleh Kazımov bildirib.

"Rəqəmsal valyuta üçün istifadə olunan texnologiya çox vacibdir. Bu səbəbdən bu sahəni mütəmadi izləyirik.

AMB digər ölkələrin mərkəzi banklarının bu sahədə nələr etdiyini, nələrə nail olduğunu araşdırır. Rəqəmsal valyuta həm əməliyyatlar, həm də maliyyə sektorunun sabitliyi nöqteyi nəzərindən suallar yaradır.

Hazırda bu sahədə hansısa mərkəzi bankın uğurlu məhsulu yoxdur", - deyə o qeyd edib.

### Bu qidalar baş və boyun xərçənginə səbəb ola bilər

**Cənubi Kaliforniya Universitetinin alimləri müəyyən ediblər ki, çox miqdarda metionin amin turşusu olan qidalar yemək baş və boyun nahiyəsində bədxassəli şişlərə səbəb ola bilər.**

Adalet.az xəbər verir ki, tədqiqatın nəticələri "Proceedings of the National Academy of Sciences" (PNAS) jurnalında dərc olunub.

Alimlərin diqqəti hər il dünyada yarım milyondan çox insana təsir edən tənəffüs yollarının, baş və boyun nahiyəsinin bədxassəli şişinin aqressiv növü olan yuxarı aerodigestiv skuamöz hüceyrəli karsinomaya səbəb olan amillərin müəyyən edilməsinə yönəlib.

Onlar aşkar ediblər ki, digər şiş növləri ilə müqayisədə ağız xərçəngi daha çox metionin ehtiva edir. Metionin insanların dəniz məhsulları, yumurta və mal əti kimi qidalardan aldığı bir amin turşusudur.

Sonrakı tədqiqatlar göstərir ki, metioninin hüceyrələrə daxil olmasından məsul olan membran zülalı olan LAT1 daşıyıcısının bloklanması şiş böyüməsini yavaşlatır.

Bundan əlavə, heyvanlar və orqan və toxumaların laboratoriya modelləri üzərində aparılan təcrübələr göstərir ki, metionində aşağı olan pəhriz xərçəng şişlərinin böyümə sürətini yarıya qədər azaltmağa kömək edir.

Alimlərin sözlərinə görə, bədxassəli hüceyrələr normal hüceyrələrdən daha çox metionine ehtiyac duyurlar - onların həyatını davam etdirmək üçün buna ehtiyacı var. Eyni zamanda, normal hüceyrələr bu amin turşusunun çatışmazlığına daha az həssasdırlar.



*Həsən Sadıqov,*
*Tarix elmləri doktoru*

# TƏLƏBƏLİKDƏN ZİRVƏYƏ YOLDA

Bu sizin öz tərcümeyi-halınızdan, xatirənizin bir parçasının məqaləşməsidir. Hər birimiz unutmayaq ki, ölkənin yaşayış tarixində ən böyük uğurlardan biri, insan ömrünün əvəzedilməz, yaddaşlardan silinməz ən mühüm dövrü tələbəlikdir. Təhsil aldığımız dövrün ömür pilləsində məqsədini, məramını, qətiyyətini bərqərar edən tələbəlik illərimizi hər birimiz xatırlayırıq. Qismətimizə insan ömrünün tufanlı illərində həyatın növbəti pilləsində addımlamaq düşüb.

Onlar ölkənin böyük kadr sərvətinin qızıl səhifəsidir. Digər tərəfdən də tələbəlik illəri tərcümeyi-halımızın qızıl geriyə yol olmayan zirvəyə yoldur. Zirvəyə gedən yolda qazanılan uğura görə tələbəlik illərinə borcluyuq.

"Gəncənin səsi" qəzetinin baş redaktoru, "Tərəqqi" medallı" "Qızıl qələm" medallı jurnalist Rəfiqə Sadıqovanın hər kəsi səfərbər edəcək fikri çox maraqlıdır. "Həqiqi jurnalisti axan çaya bənzədirəm. Əgər o, dənizə qovuşmursa, demək qəlbən jurnalist deyil. Mən həmişə jurnalist adı ilə öyünmüşəm".

Jurnalist fəaliyyətinin bütün dövründə böyük imtahanlardan çıxan, adını tarixin şərəf kitabına yazdıra bilən şəxs olmalıdır.

Çoxları avropalaşıb xatirə və memuar söyləyirlər.

Əslində sən ədəbiyyatşünaslıqdan bilirsən ki, xatirə həcmcə oçerkdən böyük ola bilər. Siz yazsanız da xatirə ədəbiyyatdır.

Sən qeyd etməsən də bu bir xatirə ədəbiyyatı, nüsxəsidir. Belə bir deyim var ki, xatirələr fantastik şəxsiyyətlər haqqında yazılmalıdır. Ruhunu əbədi fəth edən faktiki həyat materialından çox mənalı memuar ədəbiyyatı yaratmısınız.O günlərə çox mənalı qibtə ediləcək şəkildə "səyahət" edirsən. Yaşadığınız günləri bütün zamanlarda, bu gün də unutmadığınız bəllidir.

Yaddaş sənədi əsasına söykənənləri xatirə faktları əsasında yazmısan. Amma oçerkdən fərqli olaraq, xatirədə konkret bir şəxsdən bəhs etmək məhdudiyyəti də yoxdur.

Xatirədə əsas şərt müəllifin iştirak etdiyi, şahidi olduğu hadisələri düzgün təsvir etməkdir. Bundan başqa, tələbə yoldaşlara qərəzli yanaşmaq olmaz. Dəqiqlik, tarixi həqiqətin gözlənilməsi xatirə, ağa qara deməmək memuar janrının mühüm xüsusiyyətlərindəndir. Siz bu qanuna çox yaxşı yanaşmısınız. Düzü düz, əyrini əyri yazmısınız. Sən tərəzisi düz çəkənlərdənsən. "Bu dünyanın tərəzisi səhv çəkir. Səhv çəkənlər düz çəkənə dərs keçir" deyimini unutmamısınız. Memuar ədəbiyyatında xəyali adlar deyil, uzun İllərdən sonra mühafizə olunan adlardır, tələbəlik illərinin səhifələridir. Gör neçə evlərdə xatirələr oxundu, əksəriyyəti sevinir. Yazıdan sonra əzizlərini itirən insanlar şübhəsiz ağladılar.



Axı, səndə bir tarixi hakim - real hadisələrə əsaslanma məcburiyyəti də var.

Başqa cür yanaşmaq olmaz. Sən neçə il geriyə qayıdırsan. İnşallah yaddaşın sənə xəyanət etməz.

Axı, bu həqiqətdir ki, yaddaş sahibinə xəyanət etmir. Yaddaş adı ilə yalanları onun adında oxuculara sırıyırlar. Buna görə də xatirə ədəbiyyatına mütəxəssislər "toxunulmaz" sahə deyirlər.

Axı sən kateqoriya ağacı deyilən bir məkandasan. Tökülmüş budaqlardan real budaqlar kimi istifadə etmək olmaz. Ona görə ki, yaratdığın xatirə ədəbiyyatı müəllif kimi müdrikləşmiş məzmundadır. Sən gələcəkdə xatirə ədəbiyyatı müsabiqəsində də iştirak edə bilərsən.Düz yazırsan. Səndə də yalnız həqiqətlər danışır. Məqaləyə kobud, nəzarətsiz və hər hansı bir kohnə konvensiya yaddır. Məni, inanıram başqalarını da yazıya cəlb edən onun təbiiliyi və tələbə həyatı keçirmiş şəxslərə yaxınlığı, nümunə olmasıdır. Əlbəttə, yolları uzun illərdən sonra, qoca vaxtında görüşə dəvət etməsindədir. Tələbəlik və 50 ildən sonra görüş simaya ziddir. Bu görüşlər sevinc və kədərlə yüklənmişdir.

Axı, biz onlarla cavan oğlan və qız olaraq ayrılmışdıq. İndi isə 70 yaşından artıq "Dədə Qorqudla" görüşürük.Onlar bu vaxta qədər daxili tənhalıqdan əziyyət çəkirdilər. Bəlkə də heç yadlarına düşmürdü ki , onu daima sevənlər Azərbaycanın hər yerinə səpələnmişlər. Bir papağa bənddirlər. Dostlar bir araya gəldikdə macəra ruhuna, kortəbiiliyə, yalnızlığa istənilən problemə münasibətdə asanlıq ruhu gətirir. Tək tələbə dostlar tək qaldığı dünya okeanından sahilə çıxıb deyir "artıq mən tək deyiləm, Vaqif bəy və başqa dostlar, arxalanmalı olan dostlar var. Brutlardan (Sezarın varisi, qılıncı Sezarın ürəyinə saplayan. "Brut sən də" ifadəsi belə yaranmışdır Sonra Sezarın vəsiyyətnaməsi açılanda hər şeyi Bruta vəsiyyət etdiyi məlum olur).

Sağ olsun yaxşı insanlar. Artıq 50 il bundan əvvəlki tələbələr tərəddüd etmədən dostluq edəcək insanlardır. Təzə dostlar yazını oxuduqda açıq olmasa da Vaqif bəy" Yaxşı insanlıqdan başqa yaxşı da jurnalist imiş" deyəcəklər. Görüşdə olmayanlar, rəhmətə gedənlər də yad edilmiş, onlardan qalan xatirələri paylaşılmışdır. Yalqızlıqdan həyatı boş görünən tələbə dostlar söykənmə yə "divar" tapırlar. Həyat sevinci tələbə dostlara qayıtdı.

Görüşün baş qəhrəmanları, inanmaq olar ki, dostların görüşdən sonrakı həyatında bir-birinin taleyi ilə əlaqədar məlumat toplayacaq. Kimsə bir tük yandırması ilə köməyə yetəcəklər. Ömrün sonuna qədər qocaman tələbələr yaxın dost olaraq qalacaqlar. Bu görüş dostların hər cür təltiflərindən yüksək və qiymətli idi. Onlar bilmirdilər ki, bir vaxtların tələbəsi Vaqif ixtisas və əmək fəaliyyəti ilə çoxlarının həsrət olduğu təltiflərə sahibdir. Vaqif onları reklam edən deyildir. Mən inanmaq istərdim tələbəlik nominasiyası üzrə müsabiqə keçirilsə, Vaqif bəyin xatirə haqqında yazısını "tələbəlik illəri haqqında ən yaxşı yazı" nümunəsi hesab etmək olar. Tələbəlik illəri haqqında 3 xatirəni qeyd etsələr, Vaqif bəyin yazısı birinci yeri tuta bilərdi.

Tələbə dostlar tək qaldıqları həyat okeanında istiqaməti müəyyən edirlər.

Vaqif həmişə tələbə yoldaşlarından sitat gətirir. O zaman ürəkdən sevinir. Onun ədəb-ərkanlı, qüsursuz tövsiyələri olan tələbə dostları var.

Qeyd etməliyəm ki, xatirədə həcm məhdudiyyəti də yoxdur. Ona görə də təkrar nəşrdə səhifə sayını artırmağa imkanın var.

Məqalənin bəyənilməsi, bir sözlə, oxunma və bəyənmə indeksi də çox yüksəkdir.

Bu, hamıya, o cümlədən mənim də yadima tələbəlik illəri haqqında xatirə yazmağın mümkünlüyü nümunəsini verdi.

Xatirələr dünyasında Uğurlar Vaqif bəy!

# ABŞ, Britaniya və Fransa Rusiyanın təqdim etdiyi layihəni blokladı

**ABŞ, Böyük Britaniya və Fransa Rusiyanın Fələsinin HƏMAS təşkilatının siyasi bürosunun lideri İsmayıl Xaniyanın qətlə yetirilməsi ilə bağlı BMT TŞ-na təqdim etdiyi bəyənat layihəsini bloklayıb.**




"Rusiyanın Mətbuat üçün təqdim edilən, İsrailin həyata keçirdiyi vəhşi aktla ilə bağlı layihə, ABŞ, Böyük Britaniya və Fransa tərəfindən bloklandı"- deyə İranın BMT-dəki daimi nümayəndəsi Əmir Səid İravani bildirib.

İranlı diplomat eyni zamanda qeyd edib ki, Fələstin hırəkatının lideri İsmayıl Xaniyə qarşı törədilən suiqəsdə görə, İsrail məsuliyyətə cəlb edilməlidir. İravaninin sözlərinə görə, Tehran müdafiə məqsədiylə İsrailim Müdafiə ordusuna zərbə endirmək hüququna malikdir.

Xatırladıriq ki, İranın Ali dini rıhbəri Əli Xamenei, İsrailə cavab zərbəsi endirilməsini əmr edib.

**Rüstəm Hacıyev**

*Arif Ərşadoğlu,*
*yazıçı-jurnalist,*
*"Akademik Yusif Məmmədəliyev adına mükafat"ın laureatı*



# DÜZ XƏTLİ ƏLIFBA

İlk əlifbanın yarandığı vaxtdan uzun illər ötüb. O vaxtdan bəri əlifbalar çox dəyişib, təkmilləşib, dövrün tələbinə uyğun olaraq yeni şəkil alıblar.

Bir müddət əvvəl Azərbaycan dilinin yazı qaydaları, normaları da dəyişdirildi. Bəzi hərflərin modifikasiyaları nisbətən sadələşdirildi. Bu, cəsarətli və gərəkli bir addım idi. Eyni zamanda bir daha onu göstərdi ki, hüsnxət qaydaları və normaları mükəmməl deyil, onun yenilənməsinə ehtiyac vardır. Özü də təkcə hüsnxət qaydalarının deyil, bütövlükdə əlifbamızın da universal, daha işlək hala gətirilməsi zəruridir.

Əlifbamızın hansı prinsiplə sıralandığını soruşanda mütəxəssislər fərqli və qəribə cavablar verirlər. Təcrübəli pedaqoqlar əlifbanı öyrədərkən oradakı ardıcıllığı deyil, hərflərin işlənmə tezliyini əsas götürürlər.

Əlifbanı əzbərləyərkən bir çox şagirdlər "er"-ə "r", "em"-ə "m" deyirlər. Əlifbanı yadda saxlamaq üçün daha qüsursuz üsullara ehtiyac vardır.

Türkiyədə "l"-in le, bizdə el, "n"-in ne, bizdə en, "m"-in me bizdə em, "r"-in re, bizdə er oxunması da başa düşülmür.

Əlifbamızda böyük hərflərin əksəriyyəti kiçik hərflərdən, çap yazısı əl yazısından çox fərqlənir. Bu, bir sıra texniki çətinliklər yaradır. Məsələn, böyük və kiçik hərflərin fərqli olması ikili say sistemində hərflər kodlaşdırılarkən izafi zəhmət tələb edir.

Yaponlar yeri gələndə 4 əlifbadan istifadə edirlər. Qarşıda dayanan bütün tələblərə cavab vermək üçün ya gərək yaponlar kimi 4 əlifba işlədək, ya da elə əlifba yaradaq ki, bütün tələblərə cavab versin.

Müasir tələblərə cavab verən əlifba və əl yazısında hərflərin ilk növbədə konfiqurasiyası çox sadə və aydın yazılmalıdır. Bunun üçün isə ən optimal variant hərflərin yalnız bir ünsürdən - düz xətlərdən ibarət olmasıdır. Belə hərflər EHM- lərdə asanlıqla qəbul olunar və işlənə bilər. Poçt-rabitə sistemində olduğu kimi. Zərfin üstündə indeksin (rəqəmlərin) düz xətlərlə yazılması onların avtomatik çeşidlənməsinə imkan verir.

Alqoritmdə ədədlərin yazıla bildiyi hər yerdə istənilən cəbri ifadə kimi hərflərin perimetrləri də yazıla bilər. Bu səbəbdən hərflərin konfiqurasiyası elə olmalıdır ki, onların perimetrləri asanlıqla hesablana bilsin. Düz xətlərlə yazılan hərflər bu tələbləri ödəyir.

Bu şəkildə yazılan hərflər hadisə və predmetlərin modelini qurmağa, şəbəkə yaratmağa, yüksək səviyyəli proqramlaşdırma dillərinin yaradılmasına və sadələşdirilməsinə yardımçı ola bilər.

Əlifbanın təklif etdiyim yeni yazılış formasında mövcud əlifbanın içərisindən daha asan yazılan otuz böyük və iki kiçik hərf götürülmüşdür. Burada böyük hərflərlə kiçik hərflərin və çap yazısı ilə əl yazısının arasındakı fərq aradan qaldırılmışdır. Yeri gələndə böyük hərflər nisbətən böyük, kiçik hərflər isə daha kiçik yazıla bilər. Hərflərin maili yazılmasına isə ehtiyac yoxdur. Belə təcrübə inkişaf etmiş xarici ölkələrdə də vardır. Müəllimlər birincilərə əlifbanı öyrətmək üçün 4-5 ay vaxt sərf edirlər. Düz xətlərlə yazılmış əlifbanı uşaqlara daha asan, daha sürətlə öyrətmək olar. Mövcud əlifbadakı diakritik işarələri, üfiqi qoşa xətləri də heç bir problem yaratmadan xırda, defisə bənzər düz xətlə əvəz etmək mümkündür. Şagirdlərə mövcud əlifba və əl yazısı - hüsnüxət qaydaları öyrədilərkən müəllimlər onların aydın, səliqəli və sürətlə yazmasına diqqət yetirirlər. Zaman keçdikcə hər kəsin xətti dəyişir. Bəzən nəinki başqalarının, hətta öz yazdıqlarımızı belə oxumağa çətinlik çəkirik. Əl yazısında hərflərin yeni görünüşü bu problemin də qarşısını ala bilər. Çünki riyaziyyat dəftərində yazılması nəzərdə tutulan bu cür hərflərin damalar içərisində yazılması onların istər- istəməz çərçivədən çıxmasının qarşısını alır.

Zaman keçdikcə kompyuter əl yazısını sıradan çıxarır. Hazırda insanlar ərizəni belə kompyuterdə yazır ya da başqalarına yazdırırlar. Hərflərin elektron- kompyuter texnologiyasına uyğunlaşdırılması, onlarla üzvü şəkildə qovuşması bu prosesin qarşısını ala bilər

Əmin deyiləm ki, təklifim tezliklə geniş miqyasda tətbiq olunacaq. Amma əminliklə deyə bilərəm ki, ən azından valideynlər evdə uşaqlarının sürətlə yazıb oxumaları üçün mənim bu tövsiyələrimdən bəhrələnəcəklər...

# Əlövsət Bəşirli – 85



**Hörmətli Əlövsət müəllim!**

**Sizi anadan olmanızın 85 illiyi münasibətilə təbrik edirik.**

**Siz həyatınızın yarım əsrini mətbuata həsr etmisiniz. Orta məktəbi qızıl medalla bitirib Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olmuş, təhsilinizi fərqlənmə diplomu ilə başa vurub uzun illər bölgə mətbuatında işləmisiniz. Bölgələrarası qəzetin xüsusi müxbiri, redaktor müavini, redaktoru olmusunuz. Bakıya köçdükdən sonra Azərbaycan radiosu təbliğat redaksiyasının redaktoru, respublika televiziyası gənclər redaksiyasının böyük redaktoru, şöbə müdiri, Jurnalistlər İttifaqının "Açıq söz" qəzetinin redaktor müavini, Mədəniyyət Nazirliyinin "Mədəni-maarif" jurnalının baş redaktoru, Heydər Əliyev adına Hərbi Akademiyada Redaksiya-nəşriyyat şöbəsinin rəisi - baş redaktoru (2001-2010) vəzifələrində çalışmısınız.**

**Dövri mətbuatda fəaliyyətiniz zamanı mükafatlara, təltiflərə layiq görülmüş, SSRİ Jurnalistlər İttifaqı mükafatının laureatı olmuş, Respublika Ali Sovetinin Fəxri Fərmanını, Ümumittifaq sərgisinin gümüş medalını almısınız.**

**Siz bədii yaradıcılığa ötən əsrin 70-ci illərində başlamısınız. Bir müddət kiçik həcmli satirik hekayələrinizi, həmçinin oçerklərinizi qəzet və jurnallarda dərc etdirdikdən sonra şahidi olduğunuz real həyat hadisələrini bədii təfəkkür süzgəcindən keçirib ədəbiyyata gətirərək "Səssiz cinayət" povestini oxucuların mühakiməsinə vermisiniz. 1989-cu ildə "Karvan" jurnalında çap olunan povestin taleyi uğurlu olub. Onun ardınca "Qanla suvarılan ağac", "Zirvədən zülmətə", "Ömür keçdi" povestləri və "Qəsd" romanı nəşr edilib.**

**"Qəsd"in maraqlı, oxunaqlı bir əsər olduğunu, romanda sərt, amansız həyat gerçəkliyinin müxtəlif insan talelərilə qovuşduğunu ədəbi-tənqid xüsusilə qeyd etmişdir.**

**Sizin son illər "Azərbaycan", "Ulduz" jurnallarında, "525-ci qəzet"də və "Ədalət" qəzetində dərc olunan povest, hekayə, publisistik məqalə və xatirələriniz ("Adamsız adam", "Gecə yarısı döyülən qapılar", "İblis xisləti", "Günah", "İnsan kimi", "Qürub çağı", "Üfüqə qaralan dağlar", "Kürün sahilləri, ömrün dolayları" və s.) oxucular tərəfindən maraqla qarşılanıb.**

**Hörmətli Əlövsət müəllim!**

**Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, can sağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.**

**Azərbaycan Yazıçılar Birliyi**

## *Aksiz markasız 700 minə yaxın siqaret məhv edildi*

**Gömrük qanunvericiliyinin tələblərinin pozulması ilə ölkə ərazisinə gətirilən və üzərində Azərbaycanın aksiz markası olmayan yararsız siqaretlər məhv edilib.**

Adalet.az bu barədə Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir.

Məlumata görə, gömrük orqanlarının saxladığı, aksiz markasız 34 554 qutu (691 080 ədəd) xarici markalı siqaret istifadəyə yararsız olduğu üçün Naxçıvan Baş Gömrük İdarəsinin əməkdaşlarından ibarət komissiyanın iştirakı ilə yandırılaraq məhv edilib.

# SAĞ OLUN MEHRİBAN MÜƏLLİMƏ...

## Avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür

Qəribə deyimdi, yəqin siz də eşidibsiniz; Övlad da nəvə, dövlət də dəvə... Mən bu gün ta qədimdən övlad da nəvə kimi dəyərləndirlənlərin şənliyinə qoşuldum. Bu da təsadüfi olmadı, nəvələrim Vaqif və Afət hər ikisi zəng etdilər, bu zənglər, az fasilələrlə oldu. Amma mənim üçün maraqlı olan o idi ki, Vaqif də, Afət də bir sinifdə oxuyurlar və məni ibtidai sinfi bitirmələri münasibətilə təşkil olunan şənliyə dəvət edirdilər. Qəribəsi həm də onda idi ki, hər ikisi arzulayırdı ki, bu təntənədə mən onu təmsil edim. Mənim üçünsə fərqləndirməyə dəyərdimi, hər ikisinə söz verdim və iştirak etdim.

Gəncədə 4 nömrəli məktəb öz şanlı tarixi ənənələri, bu günkü uğurları ilə fərqlənir. Bu gün də estafet uğurlu əllərdədir, məktəbə öz işini gözəl bilən, vaxtilə şəhərin ən mötəbər vəzifələrində çalışan Əliağa müəllim rəhbərlik edir.

Mənim dəvət olunduğum (dəvət sahibi nəvələrim idi) tədbir Mehriban müəllimənin dörd illik zəhmətindən sonra (əzab-əziyyət də demək olar) öyrəncilər ilə keçirilən vida mərasimi idi.(Bilmirəm belə demək mümkündürmü) Mehriban müəllimə dedi ki, biz ayrılsaq da gözüm həmişə üstünüzdə olacaq. Əslində bu bir tapşırıq idi, adətən analar öz övladlarına belə ərkiyana tapşırıq verirlər.

Mən çox tədbirlərdə iştirak etmişəm, sənətimin tələbinə uyğun olaraq fikirlər bildirmiş, yaxşılıqları təbliğ etmişəm. Nə gizlədim baba kimi dəvət edildiyim bu tədbir, onun qeyri-adi səviyyəsi, ibtidai sinif müəlliminin uğurları məni çox sevindirdi, təəccübləndirdi də deyə bilərəm. İbtidai sinfi, Əlifbanı başa vuran uşaqların çoxşaxəli qabiliyyəti məni heyran elədi. Fikri qəsdən belə işlətdim. O uşaqların etdiyi rəqslər, oxuduğu nəğ-



mələr qeyri-adi idi. İbtidai sinfi başa vuran uşaqların söylədiyi şerlər, oxuduqları nəğmələr, qəribə bir "ustalıqla" ifa etdikləri rəqsləri gərək öz gözlərinizlə görəydiniz, onda inandırmaq, qiymət vermək daha asan olardı.

Mən çox böyük, şəhər, hətta respublika miqyaslı çox tədbirlər görmüşəm. Amma bunlar ifadə olunmaz idilər. Bu balaca uşaqların qabiliyyəti məni sevindirdi. Fikirləşdim ki, bu uğurun mayasında nə dayanır.

... Nəzərlərim əlində mikrofon tədbirə istiqamət verən, onu idarə edən Mehriban müəlliməyə dikləndi. Bir ibtitai sinif müəlliməsinin çoxşaxəli qabiliyyəti, hər şagirdini sevərək və qabiliyyətinə bələdliklə verdiyi tapşırıqlar çox möhtəşəm idi. Müəllimənin əlləri dirijor çubuğu kimi ümumi ahəngi ustalıqla idarə edirdi. İnsan öz işini biləndə, ona qəlbən bağlı olanda belə güclü olur, yəni biz yerimizdə olanda belə güclü oluruq. Şair Qabil necə deyir:

Müsibət oluruq biz səhv düşəndə yerimiz.

Bu tədbir, Mehriban müəllimənin uğuru məndə belə bir qənaət yaratdı ki, insan öz yerində olanda, öz işindən ləzzət alanda belə güclü olur. Sonra dördüncülər estafeti Mehriban müəllimənin gələcək öyrəncilərinə verdilər. Nə xoş təsadüfdür, nəvələrimiz Vaqif və Afətdən sonra Aylinimiz Mehriban müəllimənin sinfində təhsilini davam etdirəcək...

Bu bir həqiqətdir ki, bizim gələcək uğurlarımızın mayasında Mehriban müəllimə kimi insanların öz sənətinə sədaqətindən alınacaq dərs, sözün böyük mənasında vətənpərvərlik naminə edə biləcəyimiz cəfakeşliklər dayanır...

**Azərbaycan Əlifbası və Azərbaycan Dili günü münasibətilə valideynlər adından əlifbamızı və dilimizi balalarımıza sonsuz sevinc və məhəbbət eşqi ilə aşılayan Mehriban müəlliməni təbrik edirəm. Balalarımızın işıqlı sabahı naminə sərf etdiyi nəcib və müqəddəs işində daha böyük uğurlar arzulayıram...**

**Vaqif TANRIVERDİYEV**
Gəncə

# Füzuliyə yeni köçən sakinlərə mina təhlükəsi ilə bağlı təlim keçirilib

**Füzuliyə yenicə köç edən sakinlərə ilk dəfə mina təhlükəsi ilə bağlı təlim keçirilib.**

Adalet.az xəbər verir ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyi və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) birgə əməkdaşlığı ilə təşkil edilən təlim "Risklər barədə maarifləndirmə və təhlükəsiz davranış" mövzusunu əhatə edib. İyul ayında növbəti dəfə təşkil edilən təlim Füzuli rayonuna köçürülmüş və dayanıqlı məskunlaşması təmin edilən sakinlər arasında olub. Maarifləndirici təlimlərin keçirilməsində əsas məqsəd İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası çərçivəsində keçmiş məcburi köçkünlərin mina və partlamamış hərbi sursatlarla (PSD) bağlı məlumatlılığının artırılması, mümkün risk faktorunun minimuma endirilməsidir. AzQAC-ın mütəxəs-




sis və könüllülərindən ibarət heyət bu dəfə Füzuli şəhərinə səfər edib. Təlimçilər "Qapı-qapı" sessiyası çərçivəsində mənzillərə gedərək hər bir ailəyə zəruri məlumatlar verib, onların suallarını cavablandırıblar. Təlimlərin zamanı qadağanedici, xəbərdaredici və məlumatlandırıcı nişanlar barədə ətraflı məlumatlar verilib, maarifləndirici broşürlər paylanılıb, təhlükə zamanı müraciət edilə biləcək dövlət qurumları və əlaqə vasitələri xatırladılıb.

Xatırladaq ki, ilk mərhələdə təlimlər Bakı şəhərində keçmiş məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları Qaradağ rayonudakı "Qobu Park" yaşayış kompleksində ayrı-ayrılıqda vətəndaşlar və məktəb yaşlı şəxslər üçün təşkil olunub.

Daha sonra bu proses yataqxana, inzibati bina və yarımtikililərdə müvəqqəti məskunlaşmış məcburi köçkünlər üçün davam etdirilib. Füzuli şəhərində iyul ayı ərzində mina təhlükəsi ilə bağlı maarifləndirmə həftəsində ümumilikdə 500-dən çox şəxs məlumatlandırılıb.

**Ümumilikdə, mina və PSD təhlükəsi ilə bağlı maarifləndirici təlimlərə indiyədək 20 000-dən çox şəxs cəlb edilib. Təlimlərin keçmiş məcburi köçkünlərin sıx məskunlaşdıqları digər ərazilərdə silsilə şəklində davam etdirilməsi nəzərdə tutulur.**

# Uçot dərəcəsinin endirilməsi kredit faizlərini də azaldacaqmı?

**Mərkəzi Bankın qərarı ilə uçot dərəcəsi 7.25%, faiz dəhlizinin aşağı həddi 6.25%, faiz dəhlizinin yuxarı həddi isə 8.25% səviyyəsində dəyişməz saxlanılıb. Qərar bu gündən qüvvəyə minib.**

Adalet.az-ın məlumatına görə, VI çağırış Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, uçot dərəcəsinin stabil saxlanılması inflyasiya meyillərinin hədəf diapazonu daxilində formalaşması və təbii ki, makro-iqtisadi stabilliyin qorunması ilə bağlıdır. 2023-cü ilin noyabr ayından başlayaraq Mərkəzi Bank uçot faiz dərəcəsini azaldılması ilə bağlı qərarlar qəbul edib:

"Noyabrın 2-də faiz dərəcəsini 9-dən 8.5 faizə endirən Mərkəz Bank ötən ilin son ayında da əlavə 0.5 faizlik azalmaya getmişdi. 2024-cü ilin əvvəlində eyni yanaşma davam etdirilsə də porses artıq stabilləşmə fazasına daxil olub".

Onun sözlərinə görə, makro-iqtisadi stabillik və istehlak bazarındakı mövcud qiymət səviyyəsi bu qərara zəmin yaratsa da inflyasiya proqnozunun hədəf diapazonu daxilində yenilənməsi manatın nominal effektiv məzənnəsinin tempi və tənzimlənən qiymətlərdə dəyişikliklər ilə bağlıdır.

"Bu isə, illik inflyasiya dərəcəsinin hədəf diapazonu daxilində olmasına imkan yaratsa da belə göstəricidə dəyişikliklərə səbəb ola bilər".



V.Bayramov qeyd edib ki, Mərkəzi Bank uçot dərəcəsini dəyişdirən zaman ən çox verilən sual bu qərarın kredit faizlərinə necə təsir etməsi ilə bağlıdır. "Kreditlərin ucuzlaşa bilməsi mümkünlüyünə gəldikdə isə, hələlik uçot dərəcəsinin bu faizlərə ciddi təsiri yoxdur. Əvvəlki açıqlamamızda qeyd etdiyimiz kimi, bu təsirlərin müşahidə olunması üçün hələ bir müddət lazımdır. Bu heç də Mərkəzi Bankın mövcud fəaliyyəti ilə bağlı deyil. Bununla yanaşı, Mərkəzi Bankın belə qərarlarını gəlirlik əyirisi ilə yanaşı kredit və depozit bazarına da təsir göstərməsi olduqca vacibdir".

Deputat son aylar depozit faizlərində də artımların davam etdiyini vurğulayıb və nəzərə çatdırıb ki, artıq sistem əhəmiyyətli banklar illik manat depozitlərini 10.0 faizlə qəbul edilər.

**"Bir müddət öncə orta hesabla 6.0 faiz təklif olunurdu. Kredit faizlərində artımların olmaması üçün uçot dərəcəsi daxil olmaqla digər alətlər vasitəsi ilə kredit faizlərində optimallığın qorunması çox vacibdir".**

# Kəlbəcər rayonuna ilk dəfə infotur təşkil edilib

**Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin birgə təşkilatçılığı ilə heykəltaraş və rəssamlardan ibarət yaradıcı qrup üçün Kəlbəcər rayonu ərazisinə ilk dəfə infotur təşkil edilib.**

Dövlət Komitəsinin mətbuat xidmətindən Adalet.az-a bildirilib ki, infotur iştirakçılarına Prezident İlham Əliyevin rəhbərliyi ilə rayonda aparılan bərpa-quruculuq işləri, yerli əhalinin doğma yurda geri qayıdışa hazırlanması ilə bağlı həyata keçirilən tədbirlər haqqında ətraflı məlumat verilib. İncəsənət ustalarına Kəlbəcərin füsunkar təbiəti ilə yerində tanış olmaq, buradakı əsrarəngiz mənzərələri əyani şəkildə görmək imkanı yaradılıb. Onlar, həmçinin bu ərazilərdə ermənilərin törətdikləri vəhşiliklərin izlərini, dağıdılıb talan edilmiş yurd yerlərimizi müşahidə edib, hazırda təsərrüfat məqsədi üçün rayon ərazisinə gəlmiş yerli sakinlərlə həmsöhbət olublar. Fırça və tişə ustaları təbiət mənzərələrini birbaşa naturadan çəkmək fürsətindən də yararlanıb, kağız və kətan üzərində cizgilər işləyib, foto və videoçəkilişlər aparıblar.

Yaradıcı qrupun üzvləri səfər çərçivəsində Kəlbəcər şəhərini, qədim alban məbədi Xudavəng monastırını ziyarət edib, Sərsəng su anbarının yerləşdiyi ərazidə olublar. Onlar səfərin məhsuldar və faydalı olduğunu qeyd ediblər.

Xatırladaq ki, Böyük Qayıdışa dair I Dövlət Proqramının Tədbirlər Planının 3.1.2-ci bəndinin icrası çərçivəsində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi müxtəlif yaradıcı peşə sahiblərindən ibarət qrupların iştirakı ilə Qarabağa və Şərqi Zəngəzura infoturlar təşkil edir.

---

# Türkiyənin ən gözəl şəhərlərində xaotik həyatdan uzaqlaşıb tətilinizin həzzini yaşayın

**Hər il milyonlarla ziyarətçinin axın etdiyi Türkiyənin gözəl sahil əyalətləri daha yavaş, daha sakit və daha rahat bir tətil üçün marşrutlar təklif edir. Türkiyənin Sakit Şəhərlərində (Cittaslow) vaxt uzanır, adət-ənənələr yaşanır və mənzərələr valehedicidir. Səhər ecazkar zəngin türk səhər yeməyi verilir; Axşamlar təzə Ege dəniz məhsulları, yerli zeytun yağlı yeməklər və dadlı türk şərabları ilə başlayır. Qayıq səfərləri, sörfinq, qədim yerləri araşdırmaq hər şey və daha çoxu sizi gözləyir!**

### *İzmir Vilayətində Hüzurlu Tətil: Seferihisar və Foça*

Ege dənizi sahilində yerləşən İzmir vilayətinə təkcə canlı İzmir şəhəri deyil, həm də Çeşme, Alaçatı, Urla və Kuşadası kimi bir çox gözəl istirahət yerləri daxildir. Türkiyənin ilk Yavaş Şəhəri və 2009-cu ildən bəri Cittaslow şəbəkəsinin üzvü olan Seferihisar İzmirdən avtomobillə bir saatdan az, ən yaxın çimərlikdən isə təxminən 20 dəqiqəlik məsafədədir. Seferihisar yerli dəyərlərini və ənənəvi sahil qəsəbəsi özünəməxusluğunuqoruyub saxlamaqla yanaşı, günəş enerjisi ilə işləyən küçə lampaları və plastik yerinə hörgülü torbalar kimi davamlılıq təşəbbüslərini də həyata keçirmişdir. Sakinlər yerli toxumlardan bitki yetişdirir və mağazalarda rayondan gələn məhsullar satılır.Dənizkənarı Sığacık məhəlləsi, Seferihisar rayon mərkəzindən bir neçə kilometr aralıda, bazar günü fəaliyyət göstərən bazarı ilə məşhurdur; Sığacık qalasında qurulan bazar yerli məhsulların geniş çeşidini təklif edir. Naringi paytaxtı olaraq da bilinən Seferihisar mahalı hər noyabrda naringi mövsümünü Naringi festivalı ilə açır. Təbii ki, bölgədə qədim tarixi yerlər, o cümlədən İon İttifaqının ən mühüm yaşayış məntəqələrindən biri olan Teos Qədim Şəhəri var.



Sahildə yaşayan suitilərin adını daşıyan Foça, tarix, təbiət və dənizin unikal birləşimini təqdim edən sakit bir qəsəbədir. Bölgə təbiət baxımından nəsli kəsilməkdə olan Aralıq dənizi suitisinin yaşayış yeri olmağa davam edərkən, Eski Foça, Yeni Foça, Bağarası və İlıpınar kimi Mavi Bayraqlı çimərliklərdə də kanoe, yelkən və üzgüçülük kimi fəaliyyətlər həyata keçirilir. Foçanın köhnə şəhəri olan Eski Foça dənizkənarı meyxanaları, şirniyyat evləri və dostcanlı pişikləri olan mənzərəli bir məhəllədir. Bu dinc balıqçı kəndi həm də qara Foça Karası üzümləri ilə dolu zeytun bağları və üzüm bağları ilə məşhurdur. Foçada günə başlamağın əla yolu xırtıldayan simit və ya isti çörəkdir; Axşamlar bol limonlu ləzzətli midye dolması yeyə və Foça üzümündən hazırlanmış yerli şərabların dadına baxa bilərsiniz.

### *Muğlada Təbiətin Qəlbində: Akyaka*

Aralıq dənizi ilə Egey dənizinin kəsişməsində yerləşən Muğla vilayəti, Bodrum, Fethiye, Marmaris, Datça və Akyaka kimi məşhur tətil yerlərinə ev sahibliyi edir. Şam meşələri ilə əhatə olunmuş və Gökova körfəzinə baxan Akyaka, İdyma adlı qədim Karya yaşayış məntəqəsinin yerində salınmışdır; o dövrə aid daş qəbirlər hələ də şəhərə gedən yolda görünür. Oyma taxta evləri ilə də tanınan Akyaka kiçik balıqçı kəndi günəş, qum və dənizlə tamamlanan yavaş, dinc bir atmosferə malikdir. Külək sörfü, uçurtma sörfinqi və dəniz kayağı bölgədəki fəaliyyətlərdən yalnız bir neçəsidir və körfəzdən əlavə Azmak çayı da mövcuddur. Əhəmiyyətli yeraltı çay olan Azmak, səthə çıxan kimi dəniz suyu ilə qarışaraq üzgüçülərə isti və soyuq suyun heyrətamiz birləşməsini təklif edir.

### *Türk Rivierasının Dinc Paytaxtı: Finike*

Mavi Bayraqlı çimərlikləri, dalğıc yerləri və dəbdəbəli kurortları ilə seçilən Antalya əyaləti Finike Yavaş Şəhəri kimi füsunkar şəhərlərə də ev sahibliyi edir. Ərazinin Finikiyalılar tərəfindən eramızdan əvvəl V əsrdə Phoinikos adı ilə qurulduğuna inanılır və sonradan tarix boyu bir çox başqa sivilizasiyalara ev sahibliyi etmişdir. Bölgənin ən görkəmli qədim şəhərləri Limyra və Arykanda ziyarətçilər üçün açıqdır. Finikenin gözəl təbii şəraiti - portağal bağları, təmiz çimərliklər və sakit firuzəyi körfəzlər - ərazinin digər təbiət möcüzələri kimi ziyarətçiləri cəlb edir.

Məsələn, Andrea Doria körfəzi təmiz dənizi, yaşıl ağaclarla örtülmüş çimərliyi və arasıra Aralıq dənizi suitiləri və Caretta dəniz tısbağaları ilə Antalya vilayətinin ən gözəl körfəzlərindən biridir. Ziyarətçilər həmçinin Gökbük Kanyonunda gəzintiyə çıxa və təsirli stalaktit, stalagmit və travertin hovuzları olan Suluin Mağarası ilə tanış ola bilərlər. Coğrafi olaraq göstərilən Finike portağalları xüsusilə meyvə şirəsi, mürəbbə və marmelad kimi məhsullar baxımından məşhurdur və rayonu bir qastronomiya məkanına çevirir.

---

Şahnaz Şahin



# Beş yüz iyirmi beş dəfə beş

**Adlar da libas kimidir, ölçü-biçisi, enerji və koloritiylə insana yaraşa da bilər, uyğun gəlməyə də. Adların tək insan taleyinə deyil, bütün yaradılışa, o cümlədən bədii əsərlərin də taleyinə təsiri vardır. Bir də görürsən bəstəkarın, şairin onlarla əsərlərindən hansısa biri, ya bir neçəsi başqa, fərqli tale yaşayır, dilə, ağıza düşür, tanınır, sevilir.**

Adların tərkibində olan hərflər özü də ayrı-ayrılıqda enerji daşıyıcısıdır və onun bütün varlıqlara təsirini "hüruf" adlı elm öyrənir. Müxtəlif dövrlərdə müxtəlif millətlər də bu inancı qəbul edərək faydalanmağa çalışıblar. Məsələn romalılar "nomen est omen", "yəni adımız taleyimizdir" deməklə bu sahədə böyük inanc sahibi olduqlarını təsdiq ediblər. Vaxtilə ərəblər də eyni yanaşma sərgiləməklə bu inancı qəbul etmişlər. Qədim türk xalqlarının dastan və rəvayətlərindən də məlum olur ki, ad seçimi məsuliyyətli məsələ hesab edilib. "Dədə Qorqud" dastanından da adların Dədə Qorqud tərəfindən verilməsi bu işin ciddiliyini və əhəmiyyətli olduğunu göstərir. Elə axır zaman peyğəmbərimiz də" övladlarınızı gözəl adlarla adlandırın ki, onlar gözəl insan olaraq xatırlansınlar" söyləyirdi...

Su kristalları üzərində yapon alimi Masaru Emotonun apardığı araşdrma və tədqiqat işlərinin nəticələri də adların taleyə təsirini bir növ təsdiq edir. Alim "Suyun gizli mesajları" kitabında yazır ki, sözlərin yazılı və şifahi ifadəsindən su molekulları uyğun olaraq gözəl ya da xoşagəlməz şəklə düşür. Nəzərə alsaq ki, insan bədəninin üçdən ikisi sudur, o zaman qaranlıqlar bir az da aydınlaşır...

Valideynlər övladlarına ad qoyduğu kimi, yaradıcı insanlar da yaratdıqları əsərləri uyğun isimlərlə adlandırır. Bəzən bu adlar elə əsərin içindən doğur, bəzən də sanki "qeybdən düşür". Amma bütün hallarda adların o əsərlərin də taleyində danılmaz payı olur.

Mən yazı prosesində bir çox sirlərin şahidi oluram, bir də görürsən yazıdan qabaq ad özünü "yetirdi" ya da əksinə, yazı hazır olub, amma ad tapa bilmirəm. Elə xeyli müddətdir yazılacağı vaxtı gözləyən "Beş yüz iyirmi beş dəfə beş" kimi...

1997-ci il idi, yerli mətbuatdan ictimaiyyətə tanış olan imzamı daha geniş oxucu kütləsinə təqdim etməyi düşünürdüm. Daimi oxucusu olduğum "525-ci qəzet" məni maqnit kimi özünə çəkirdi, elə bu istəklə də şəhərə gələndə qəzetin nəşr edildiyi ünvana getdim. Yay vaxtı idi, ilk dəfə dəhlizə daxil olanda özümü çoxdan tanıdığım doğma və əziz bir məkanda hiss etdim. Sağ və sol tərəflərdə yarıaçıq qapılar arxasında hər kəs öz işi ilə məşğul idi. Mən hələ ki, müşahidə edir, heç kimi tanımadığımdan kimə və necə yanaşacağımı bilmirdim. Sanki əməkdaşlardan biri ürəyimdən keçənləri hiss edibmiş kimi qapıya yaxınlaşdı, məni içəri dəvət etdi və gəlişimin səbəbi ilə maraqlandı. Mən qəzetin Baş redaktoru ilə görüşmək istədiyimi bildirəndə tərəddüd etmədən Rəşad müəllimin otağını nişan verdi...

Elə o gündən başlayan yaradıcı əlaqəmiz ta bü gün də davam edir. O vaxtdan çox şeylər dəyişib, amma sevilən qəzetin əqidəsi, məqsədi, məsləki və məramı olduğu kimi qalır. Qəzet çətin bir dövrdə nəşrə başlamışdı, o zaman torpaqlarımızın böyük bir hissəsi erməni işğalı altında idi, həm hakimiyyətdə, həm də cəmiyyətdə bir xaos vardı. Bu gün isə Azərbaycan öz sərhədlərini tam bərpa etmiş müstəqil və qalib bir ölkədir. Aradan keçən otuz llədək müddətdə Qarabağın qara günlərindən, ağrı-acılarından, qaçqın və köçkünlərin problemləri, qəsb olunmuş torpaqların ağır taleyi ilə bağlı yazan qəzet artıq dörd ildir onun rufahından, xoş günlərindən söz açır. Müzəffər ordumuzun əldə etdiyi zəfərdən, o torpaqların bu günkü vəziyyətindən yazır, sürətlə aparılan tikinti-quruculuq işlərini geniş oxucu kütləsinə təqdim edir. Regionda söz sahibliyi qazanan Azərbaycan, onun qalib Prezidentinin apardığı uğurlu siyasəti işıqlandırır.

Qəzetin adı ilə bağlı düşüncələrim də uzun illərdi ki, zehnimi məşğul edirdi. Niyə məhz "525-ci qəzet"?.. Hər dəfə də qoşa beş mənim əhvalımı yüksəldir, fikrimdə müxtəlif riyazi əməliyyatlar aparır və fərqli nəticələr əldə edirdim. Aldığım rəqəmin ən çox xoşuma gələni beş yüz iyirmi beş dəfə beş idi. Bilirsiniz də, kimisə, nəyisə başqalarından fərqləndirmək lazım gələndə çox zaman onun üstünlükləri oxşar formada müqayisə edilir.

Hə, adların taleyə təsirindən danışırdım axı... 1992-ci ildə "525-ci qəzet" yaradılanda bir çox yeni qəzetlər artıq həyata vəsiqə almışdı. Hər kəs də təbiidir ki, yaratdığına diqqət çəkən, uğurlu adlar verməyə çalışırdı. Axı ad qoymaq özü də bir yaradıcılıq tələb edir. Bu baxımdan qəzetin baş redaktoru Rəşad Məcidin qəzetin adı ilə bağlı söylədiyi fikirləri çox maraqlıdır:" 1992-ildə qəzet açılanda bütün qəzetlər məşhur adları götürmüşdülər. Biz rəqəmlə ad qoymaq istəyirdik, əvvəl 2X2 qoymaq istədik, məlum oldu ki, o da qeydiyyatdan keçib... Biz istəyirdik "555-ci qəzet" olsun, yəni üç dəfə beş. Amma gözləmək lazım olduğundan qeydiyyatdan keçdik və adımız "525-ci qəzet" oldu"... Yəni nəticə üç dəfə deyil, Rəşad müəllim, düz beş yüz iyirmi beş dəfə beş oldu!..

Qəzetin olduqca zəhmətkeş və yaradıcı kollektivi vardır. Rəşad Məcid, Yusif Rzayev, Seyfəddin Hüseynov hər biri öz işinin bilicisi olmaqla kollektivlə birlikdə vahid orqanizm kimi çalışır. Qəzetin neçə illərdən bəri formalaşmış bir ənənəsi də yeni, hələ qələm təcrübəsi olmayan əməkdaşları işə qəbul edərək onları peşəkar səviyyədə yetişdirməkdi. Belə jurnalistlərə teatr diliylə "525-ci qəzet"in köynəyindən çıxanlar demək olar. İndi vaxtilə qəzetin müxbir kimi işə başlayan neçə əməkdaşı yüksək təcrübə toplayaraq özünü təsdiq etmiş və artıq müxtəlif məsul vəzifələrdə çalışır...

Qəzet "Əkinçi"nin layiqli varisidir. Yarandığı vaxtdan bəri neçə-neçə ədəbiyyat adamı üçün əziz ünvana çevrilmişdir.

Onun qapıları həmişə hər kəsin üzünə açıqdır, qəzet Azərbaycan dilinin, adət-ənənələrinin də sadiq keşikçisidir. Qəzet səhifələrində yer alan bütün yazı nümunələrində ana dilimizin təmizliyi və şirinliyinin qorunub saxlanması daim diqqət mərkəzindədir.

Hər dəfə qəzet köşklərinin yanından ötəndə baxışlarım uzaqdan belə vitrində "525-ci qəzet"i axtarır, özümü bir az da"525-çi" hesab edirəm. Zarafat deyil, artıq dostluğumuz bir igidin ömrü qədərdir...

Xalqın etimadını, hörmət və sevgisini qazanmaq, həm də bunu qoruyub saxlaya bilmək həm o zaman, həm də indiki qəzet bolluğunda heç də asan iş deyil. "525-ci qəzet" bunu bacardı. Çünki bu sevginin arxasında böyük zəhmət, xalqa, oxucuya hörmət və ən əsası səmimiyyət dayanır. Qəzet həm də yaxşı həmsöhbətdir, əlində bir "525-ci qəzet" varsa tək deyilsən, dünya sənin çevrəndə dönür demək ki!..

**İstəməsəm də yazıya sonuncu nöqtəni qoymaq vaxtı çatır, masamın üstündəki kiçik radonun dalğalarından musiqi səsi otağa yayılır, türk müğənnisi Kənan Doğulu"nə yaparsan yap, aşk ilə yap.., deyə eşqlə oxuyur. Elə "525-ci qəzet" də bu illər içərisində nə etdisə, nə yazdısa sevgiylə etdi, eşqlə yazdı. Odur ki, özü də sevildi, oxucuların qəlbində yurd saldı, gözlənildi, istənildi, axtarıldı... Mahatma Qandinin sözlərilə desəm, "Sevginin olduğu hər yerdə isə həyat var"...**



*Vaqif Yusifli*
*Filologiya elmləri doktoru*

# HƏSRƏTDƏN ZƏFƏRƏ

**Müasir poeziyamızın ikimininci illərini Qarabağsız təsəvvür etmək mümkün deyil. Azərbaycanın ictimai-siyasi-mənəvi həyatında Qarabağ necə önəmli bir yer tutursa, ədəbiyyatımız, o sırada birinci olaraq poeziyamız bu illər ərzində -mübalibəsiz deyə bilərəm ki, Qarabağla birgə kədərlənmiş, sevinmiş, necə deyim Həsrətdən Qələbəyə doğru yol getmişdir. İçində Vətən-Qarabağ duyğusu üaşayan elə bir şairimiz tapa bilməzsiniz ki, onun şeirlərinin aparıcı xətti olmasın. Bu fikri söyləyərkən Sabir Rüstəmxanlının, Əşrəf Veysəllinin, Elçin İsgəndərzadənin, Əbülfət Mədətoğlunun, Rəşid Faxralının, Musa Ələkbərlinin, Rəfail Tağızadənin, Adil Şirinin, Xuraman Hüseynin Qarabağ həqiqətlərini poeziya həqiqətlərinə necə çevirdiklərinin şahidinə çevrilirsən. Bu sıraya Gəray Göyyurdun şeir və poemalarını da daxil etmək olar. Onu əsasən sevgi, təbiət, yurd-ocaq şairi kimi tapnıyırdım və yazdığı şeirlərdə də özünəməxsus deyim tərzi ilə diqqəti cəlb edirdi. Gəray Göyyurdun son illərdə ”Dövlətim var, ordum var” və ”Şuşa bəyannaməsi” adlı iki kitabı işıq üzü görüb və bu kitablarda onun vətənpərvərlik ruhuna köklənən şeirləri, poemaları toplanıb. Əlbəttə, bir şairin çoxlu sayda şeirləri, poemaları eyni mövzuya -Qarabağ-Şuşa hmümkün deyil. əqiqətlərinə, həsrətdən zəfərə gedən yaxın tarixin tarixi hadisələrini əks etdirməsi heç də təəccüblü qarşılanmamalıır. Təbii ki, burada şairin bir mövzuda demək istədiyi həqiqətləri sona qədər, daha doğrusu, ürəyincə söyləmək arzusu iqqəti cəlb edir.**

**Poeziya özü də bir tarixdir, desək, heç də yanılmarıq. Amma bu tarix faktları, ayrı-ayrı hadisələri bir yerə toplamaq və mühakimə yürütmək deyil. Poeziyada tarix-tarixi hadisələr bədii şəkildə öz əksini tapır. Gəray Göyyurdun şeirlərində də keçdiyimiz tarixlə-bu tarixin poetik inkinası ilə qarşılaşırıq. Yəni bir şairin ürəyində illər boyu kök salan duyğular şeirə çevrilir, bir fərd öz düşüncələrini yurddaşları ilə bölüşür.**

**Əlbəttə, Gəray Göyyurdun iki şeirlər-poemalar kitabı haqqında geniş söz açmaq mümkün deyil. Onun istər kiçik ya həcmcə dolu bir şeiri olsun, istərsə də poeması - bu yazılarda bir ümumi xətt var, o da Vətən-Qarabağ sevgisidir.**

***Səni qoyub heç bir yerə getməyim,***
***Sərçə adlı quşun olum, ay vətən.***
***Bəlkə bir gün yağılara atıldım,***
***Bir qaraca daşın olum, ay vətən.***

***Hər dərdini, hər qəmini daşıyım,***
***Loğman olum, yaraların qaşıyım,***
***Kaş ki sənin ürəyində yaşayım,***
***Bilinməyən yaşın olum, ay vətən.***

***Qoymayım ki, bir də sinən ox alsın,***
***Mən oxlanım, sənin qəlbin yuxalsın,***
***Qoy qoynunda bir bulaq da çoxalsın,***
***Süzülən göz yaşın olum, ay vətən.***

**Gərayın Vətənə məhəbbətini izhar edən onlarla belə şeiri var və olsun ki, bu şeirlərdə bir-birinə oxşar misralar nəzərə çarpsın, amma heç birində qeyri-səmimi nəsə gözə dəymir. ”Gözlə gəlirik, ay Şuşa” silsiləli şeirlərdə isə böyük Vətən Şuşanın təcəssümü kimi təqdim edilir.Hiss olunur ki, o illərdə-Şuşanın azad edilməsinə qədər bizim hamımızın qələbəyə ümid bəslədiyimizdə yaşayırdı Şuşa. Artıq Lələtəpə döyüşlərindən sonra hamımız ümidləndik. Gəray da ”Qarabağa hücum var” şeirini yazdı:**

***Ey igid əsgər,***
***Sənlədir zəfər!***
***Ey şanlı ordu,***
***Qoru bu xalqı,***
***Qoru buy urdu!***

**Təkcə Şuşa deyil, Qarabağın hər bir ərazisi Gərayın şeirlərində vəsf olunur. Məsələn, mən onun ”Laçın” şeirini misal göstərə bilərəm ki, bu şeir Laçın həsrətini necə də obrazlı ifadə edir:**

***Yağılara körpü oldun,***
***Nə çoxdur acən, ay Laçın***
***Yoxmu səni ağlamağa,***
***Bir anan, bacın, ay Laçın!***

***Kim bağladı qolumuzu,***
***Unutdurdu ulumuzu,***
***Gözləməkdən yolumuzu***
***Ağarlı saçın, ay Laçın!***

***Aldandıq boş nağıllara,***
***Şəkərlərə, noğullara,***
***Laçın-laçın oğulların***
***Hardadı Laçın, ay Laçın?***

**B, gözəl bir şeirdir və mən deyərdim, Gəray Göyyurdun birinci sırada duran şeirlərindəndir. Buradaca qeyd edim ki, Gəray Göyyurd ədəbiyyata xalq şeirinin qanadlarından gəlib. Ona görə də qoşma, gəraylı və heca şeirinin müxtəlif bölgüləri onun müraciət etdiyi şeir sıralarıdır.**

**Gərayın ”Şuşa bəyannaməsi” kitabında onun on poeması və ”Zəfər şeirləri” silsiləsi toplanıb. Əlbəttə, bu poemaların heç də hamısı janrın tələbləri ilə səsləşmir.**

**Ən başlıca səbəb odur ki, Gəray bəzi poemalarında publisistikaya, daha doğrusu, publisistik pafosa üstünlük verir. Mənim fikrim**

**Cə, onun ”Sumqayıta şəhid gəlir”, ”Kiçik oğlum Ömərlə” və ”Belə gözəl Vətəni necə sevməmək olar?” poemaları uğurludur. ”Sumqayıta şəhid gəlir” poeması Coşqun Zeynallı, Orxan Rəhimli və ümumən bütün şəhidlərə həsr olunub. Burada iki Sumqayıt şəhidinin xatirəsi anılır.**

***Medallar düzülübdür***
***Cənazənin üstünə.***
***Xıncım-xıncım oluram,***
***Dağ yıxılır üstümə!***
***Qıvrılıram ilantək***
***Mən ağrımda, acımda.***
***Coşqun, Orxan- iki dost***
***Şəhid olub Laçında!***

**Gərayın şeir və poemalarında dövlətçilik, millətçilik, tarixi ənənələrimizdən gələn zəfərçilik, qalibiyyətçilik duyğuları çox güclüdür və bunu ”Belə gözəl vətəni necə sevməmək olar?” poemasında daha aydın görmək olur. ”Zəfər şeirləri” silsiləsinə gəldikdə, Gəray birinci kitabda olan vətənpərvərlik missiyasını bu şeirlərdə də davam etdirir.Şəhid analara, şəhid oğullara, müharibə qəhrəmanlarına həsr olunan şeirdlər öz bədii səviyyəsi ilə diqqəti xüsusilə cəlb edir. Mən sözümü çox uzatmaq istəmirəm.**

**Amma Gərayın bir şeirindən bu parçalarla sözümü bitirir və Gəraya poetik uğurlar arzulayıram:**

***Xalqımın bu dünyaya,***
***”Mən haqlıyam” sözüdü.***
***Düşmənin sınan beli,***
***Çiliklənən dizidi***
***Şanlı Şuşa Zəfəri!***

***Dırnağıyla qayanı,***
***Daşı yarmaq kimidi.***
***Mələklərlə əl-ələ***
***Haqqa varmaq kimidi***
***Şanlı Şuşa zəfəri!***

***Düşmənlərin gözünü***
***Tərlan kimi oymaqdı.***
***Dünyanı heyran etmək***
***Cahanı mat qoymaqdı***
***Şanlı Şuşa zəfəri!***

# Çəkic və qələm

*Sadə peşə adamlarına fikir vermisinizsə, onlar daha təbii olurlar. Və bu təbiilikdə sadəliklə bərabər, saflıq, təmizlik özünü qabarıq büruzə verir. Sadələr həm də dünyaya ayıq gözlə baxır, ”dünya gör-götür dünyasıdır” kəlamından əsl nəticəni çıxara bilirlər. Onlar zamanın nəbzini tutub, həyatın gündəlik gedişatını doğru qavrayırlar. Onlar həm sadə, həm də əsl həyat tərzi keçirirlər. Sadələr eyni zamanda kompleksiz olur, onlarla hər şey barəsində ürəkdən, səmimi söhbət etmək adamda yaşamağın nə qədər gözəl və qiymətli olduğunu, insanın həyatda tutduğu yolun əslində necə olmalı olduğundan bizə xəbər verir. Müsahibim sadə peşə adamı, Oqtay Pinəçi ləqəbi ilə şeirlər yazan pinəçi Oqtay idi. Onun haqqında azçox məlumatım var idi. Şeir yazdığını da bilirdim. Odur ki, elə qapıdan içəri girən kimi çox da fikirləşmədən düşdüm üstünə:*



**- Oqtay, pinəçilik hara, şeir hara? Qəfil sualdan xeyli duruxdu. Sonra Oqtay belə cavab verdi:**

- Doğrusu, heç özüm də bu barədə fikirləşməmişəm. Ancaq mənə elə gəlir ki, şeir yazmaq mənə irsən keçib. Ata babam Alış da şeir yazardı. Yaşlı nəsil onu yaxşı tanıyır. Öz aramızdır, babam pis yazmırdı. Yəqin mənə poeziyaya həvəs babamdan irsən keçib. Nə bilim?! Bir də müəllim, axı şeir yazanın heç də həmişə dəqiq bir sənəti olmur. Özünüz yaxşı bilirsiniz, biz şeir yazanlara şair adı versək də, qəti şairlik sənəti yoxdur. Və şeir yazmağı məncə heç bir universitet, peşə məktəbi öyrədə bilməz. Bu istedad gərək adama Yaradan tərəfindən verilə. Və sən də istedadınla əsl poeziya nümunələri yaradıb ətrafı, təbiəti, dünyanızı şeirin dili ilə nəzmə çəkəsən.

**- İlk yazdığın şeir yadındamı? Nə vaxt, nədən yazmışdın?**

- Hardasa 15 yaşım olardı. Bahar gəlmişdi. Hər tərəf al-əlvan don geymişdi. Ağacların, gül-çiçəklərin libası, qoxusu ətrafda xoş ovqat yaradır, yaşamağa çağırırdı. Seyr etdiyim bu mənzərə, bahar tablosu məni qələmə müraciət etməyə vadar etdi. Oturdum. Bir göz qırpımında bahar düşüncələrimi süzgəcdən keçirib, qələmə aldım. İndi də tanıyanlar söyləyirlər ki, bu şeir ilk qələm məhsulu kimi pis alınmamışdı. Yadımdadır, mən təkcə baharın gəlişini ritorik, pafoslu dillə şeirə çevirməmişdim. Yazdığımın mənası o idi ki, bahar heç də gəldi-gedər deyil. Baharın özü və yaratdıqları həyatımızın, dünyamızın bir ayrılmaz parçasıdır.

Bahar ömrünü başa vurub getsə də, sözsüz, ona ürəyimizdə, qəlbimizdə yer ayıracağıq. Ömrün baharını unutmayacağıq...

**- Bəs pinəçi peşəsini necə oldu ki, seçdin?**

- Buna həyatda etdiyim kiçik bir ”səhv” (gülümsəyir) səbəb oldu. Mən tez evləndim, elə əsgərlikdən gələn kimi ailə həyatı qurdum. Sənətim isə yox idi. Hamı əvvəl sənət qazanıb, sonra evlənir. Mən isə bunun tərsini etdim. İlk qazancım evlənmək oldu. Sonra kasıblıq məni (bizi) üstələməsin deyə həvəsim olduğu pinəçi sənətini seçdim. Nəsə bu sənətdə özümə bir yaxınlıq, doğmalıq hiss edirdim. Odur ki, usta yanında pinəçiliyi öyrənib, müstəqil işləməyə başladım. Bu sənətlə ev tikdirdim, övladlarımı böyütdüm. Bir də axı, nə qədər ki, yaşam, insan var pinəçiliyə də ehtiyac olacaqdır. Bu qədim sənət olsa da qocalmır, elə həmişə cavandır. Bizimlə yanaşı addımlayır.

**- Bəs şeir yazmaq pinəçiliyə mane olmur ki?**

- Yox, siz nə deyirsiniz? Onlarla növbə ilə məşğul oluram. Günortaya qədər pinəçilik edir, axşamüstü şeir yazıram (Yenə gülümsəyir). Əlbəttə, zarafat edirəm. Mən peşəmi işlədir, davam etdirirəm. Bu illərdən bəri yaşadığım həyat tərzidir.

Qaldı şeir yazmağa, bəzi ”şairlər” kimi mən qələmi zorlamaq istəmirəm. Yox, bu gün mütləq şeir yazacağam deyə düşünmürəm. Bu cür yanaşma mən pinəçi Oqtayın anlamına görə səhvdir.

Belə ”şeir” sifarişlə yazılan şeydir. Bu cür yazılanlar ancaq ötəri hiss və duyğulardan bəhs edə bilər. Yəni şeiri zamanında, özü gələndə yazmaq lazımdır.

Şeirdə əsas odur ki, poetik dillə deyilən fikir, məna olsun. Yoxsa qafiyə naminə misraları düz, yaz kağıza. Belə şeiri heç bir oxucu bəyənməz. Və bu cür şeir oxucuya heç nə demir, vermir. Mən şəxsən 5 şeirdən olsa-olsa 3-nü üzə çıxarıram. Çünki hər şeiri çapa vermək olmaz. Şeirin səviyyəsi olmalıdır.

**- Oqtay, mənə elə gəlir ki, yaradıcılığına hardasa biganə yanaşırsan. Az çap olunursan. Niyə?**

- Düzünü desəm, bu sualı hərdən özüm də verirəm. Ancaq özümlə, düşüncələrimlə bacara bilmirəm. Hər dəfə özümə söz verirəm ki, məhsuldar olacağam. Yazdıqlarımın qayğısına qalıb, onları ərsəyə çatdıracağam. Amma bu biganəliklə bacara bilmirəm. Mən bu biganəliyə başqa ad verərdim. Yəni cavabdehlik. Mən redaksiyaların qapısını tez-tez döyən müəlliflərdən deyiləm.

Bir də müəllif öz yazılarına kənardan baxmağı, onları dəfələrlə süzgəcdən keçirməyi bacarmalıdır. Mənim təbiətim belədir. Deyirəm az olsun, yaxşı olsun. İmza tanınsın deyə çox yazmaq və çap olunmaq mənim xasiyyətimə yaddır.

**- Şeirlərində ana xətti Vətən sevgisi və məhəbbət təşkil edir. Sevgidən, məhəbbətdən yazmaq səni təkrarçılığa aparıb çıxarmırmı?**

- Mən Vətənə, torpağa olan məhəbbəti heç vaxt bayraq edib, yüksək pafosla başqalarına göstərmək fikrində deyiləm. Ancaq Azərbaycan oğlunun 44 günlük Vətən müharibəsində göstərdiyi rəşadəti, qazandığı qələbəni necə qələmə almayasan? Bu əsl Ana Vətənə bəslənilən məhəbbətin əlçatmaz zirvəsi, təkrarolunmaz nümunəsi idi. Qaldı o biri sevgiyə. Məndən sevgi şairi olmaz. Məhəbbət haqqında Füzuli elə deməyib ki, bu mövzuya qayıtmaq bir də lazm ola. Mən ana, vətən, torpağa olan bir oğulun ilahi sevgisindən yazıram. Bax bu ilahi sevgisi əsl sevgidir. Təmiz və təmənnasız. Əlçatmaz və müqəddəs. Bundan yazmaq hər bir qələm sahibinin insani borcudur.

**- Öz aramızdır, çox vaxt qayğılı görünürsən. Elə indinin özündə də.**

- Səhv etmirəmsə, böyük rus yazıçısı Lev Tolstoyun belə bir fikri var ki, deyir darıxanda fikirləş, gör harda səhv etmisən. Mən də o dahi insanın dediyi kimi, darıxmaq istəmirəm.

Qayğı varsa, demək həyat da var və həyat davam edir. Deməli yaşamağa dəyər. Qayğı da fikrin, yəqin düşünməyin məhsuludur. Kaş həmişə insanın qayğısı ola, insan darıxmaya. Adamın boş vaxtı olmaya. Daim hərəkətdə olasan. Bir işi görmək üçün vaxt çatmaya. Bax məncə, belə olanda insan həyatda öz yerini tapır, kimə və nə üçün lazım olduğunu yaxından anlayır. Demək hələ yaşamağa dəyər .

**- Gələcək arzuların, daha nələr etmək istərdin?**

- Hələ qocalmamışam ki?! *(Gülümsəyir)* Pinəçilik edib, şeirlər yazacağam. Daha dəqiq desək, çəkic və qələmdən bərk yapışacağam. Məni yaşadan onlardır. Övladlarıma yenə dayaq olacağam. Məsləhətə, xeyirli nəsihətə hər yaşda adamın ehtiyacı var. Bir də, indiyədək yazdıqlarımı yığıb kitab şəklində çap etdirmək fikrindəyəm. Sağlıq olsun.

... Əlbəttə, təki sağlıq olsun Oqtay. Sən iki qədim sənətin daşıyıcısısan. Sənə uğurlar arzulayır, yeni kitabının çapını gözləyirik. Çəkicini bərk vur, qələmin iti, kəsərli olsun. Biz də baxıb sevinək.

**Adil MİSİRLİ**

## “Bakcell”in dəstəyi ilə qadınlar üçün İKT üzrə təlimlər başladı

**”Bakcell” şirkətinin dəstəyi ilə qadınların İKT üzrə bilik və bacarıqlarının artırılmasına yönəlmiş xüsusi təqaüd proqramı davam edir. Proqram çərçivəsində iki ay müddətində baş tutacaq ixtisas təlimlərinə start verilib.**

Adalet.az xəbər verir ki, ”Maya Hacıyeva adına İKT bacarıqları” təqaüd proqramı ”Women in Tech” (WIT) beynəlxalq təşkilatı və Təhsilin İnkişafı Fondunun (TİF) birgə təşkilatçılığı, ”Bakcell” şirkətinin dəstəyi ilə həyata keçirilir. Seçim mərhələsini uğurla keçmiş 15-45 yaş aralığında olan xanımlar iki ay ərzində UX/UI dizayn, kibertəhlükəsizlik, rəqəmsal marketinq və digər ixtisaslara yiyələndikdən sonra işlə təmin olunacaqlar. ”Təqaüd proqramına dəstək göstərməkdə əsas məqsədimiz Azərbaycan xanımları arasında informasiya texnologiyaları sektoruna dair məlumatlılıq səviyyəsini yüksəltmək, onları gələcəkdə bu sahə üzrə karyera qurmağa həvəsləndirməkdir. Şirkətimiz özünü inkişaf etdirməyə həvəsli olan xanımlara hər zaman dəstək göstərməyə hazırdır”, - deyə ”Bakcell”in baş icraçı direktoru Klaus Müller bildirib. Azərbaycanın ilk riyaziyyatçı qadın alimi Maya Hacıyevanın adına olan təqaüd proqramı 2023-cü ildə təsis edilib. Proqramın məqsədi cəmiyyətin inkişafında bilavasitə rolu olan qadınların gələcəyin peşələrinə yiyələnərək iqtisadi azadlıqlarını əldə etmələrinə, öz arzularını reallaşdırmağa dəstək göstərməkdir. Qadınların təhsil və məşğulluq imkanlarının artırılması ”Bakcell” şirkətinin korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biridir. Şirkət bu sahədə təşəbbüsləri dəstəkləməyi və daha da genişləndirməyi planlayır.

## Daha bir teatr tətilə getdi



**Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrı tətilə gedir.**

Adalet.az xəbər verir ki, ”Teatr studiyasının vokal qrupu” səs açmaq üçün sənət əsərləri ifa ediblər. Tədbirdə teatrın baş rejissoru, əməkdar incəsənət xadimi Mirbala Səlimli, teatrın aktyor heyəti, televiziya və medya işçiləri iştirak ediblər. Vokal qrupu ilk olaraq Bethovenin sonatası ilə çıxış edib. Fotopianoda Xatirə Orucova ifa edib. Xalq mahnısı ”Kəklik” də vokalçıların ifasında səslənib.Albinonin ”Adajio”, Şekspirin iki soneti və ”Ay Laçın” mahnısını da ifa ediblər.

”Ay Laçın” mahnısını pianoda Tərxan İbrahimov ifa edib.

Qeyd edək ki, teatr 27-28iyul tarixində ”Sən həmişə mənimləsən” tamaşasının premyeras ilə mövsümü bağlı elan edəcək.

**Əntiqə Kərimzadə**



*Ülkər Nicatlı*

## Gülümsə, qadın

**Sən həyatın sevgi fəslisən,
Hər səhər alnından öpür mələklər,
Diksinir
içindəki xatirələr...
Dodağında bir öpüş,
Gözlərində unudulmaq
qorxusu üşüyür.**

**Qar altında gülümsəyən
bənövşə kimisən bir az,
Ətrinə,məsumluğuna can atar
ruhunda səni gəzdirənlər
və səni fəth etmək istəyənlər...**

**Bir ömür
canında balıq kimi çırpınar
fəth olunmaq arzusu,
Utanarsan
işğal olunmuş arzulardan.**

**Sənin adına
hopub Tanrı qoxusu,
Sən bütün duyğuların
and yerisən, qadın.
Baxma ayrılıqlara,
vüsal sənin özünsən,
Qoy fələk səni
qoxlamasın,
Özündən-özünə sarı
yeri sən, qadın**

**Adın çiçəkləyən yerdə
Tanrı gülümsəyir
hər gün, qadın.
Sən də gülümsə,
bəxti açılsın tənhalığın...
Üzü gülsün
daraqsız saçların,
duvaqsız acıların.
Gülümsə, qadın
Tanrı üşüyür...**

## Bayraq

**Mənası uludur, hikməti dərin,
Qanından rəng alıb neçə min ərin.
Şuşa qalasını alan əsgərin,
Təbəssümlə dolu üzüdür bayraq.**

**Ürəklər boyuna açıb qucağın,
Şərəf tarixidir ötən hər çağın.
Millətin qəlbində yanan ocağın,
Heç vədə sönməyn közüdür bayraq.**

**Bir üzü Turandı,bir üzü ”Quran>
Qalalar endirən, sarhədlər quran,
Oğul qəbri üstə səssizcə duran,
Şəhid anasının gözüdür bayraq.**

**Şanlı zəfərinlə, Vətənim, tanın
Şəhid ətirlidir damarda qanın.
Qələbə soraqlı Baş Komandanım
Yurdda dalğalanan sözüdür bayraq.**

**Dağlarda qalmayıb nə duman nə çən,
Şöhrətin boy verir zirvələrəcan
Bu torpaq uğrunda canından keçən,
Şəhid oğulların özüdür bayraq.**

## Günah nağılı

**Gözlərinin gözlərimə yazdığı,
O məktubun gözlərindən gen düşək
Duyğuların əlifbası gizlidir,
Gəl bu gizli əlifbada görüşək.**

**Al ovcuna əllərimi şeirtək,
Xatirələr heca-heca oxunsun.
Sevgi-sevgi çiçəkləyən dodaqlar,
Bir meh kimi yanağıma toxunsun.**

**Əl eyləyək ötüb gedən anlara,
Çıxarmasın bu sevgini yadından.
Bircə misra məktub yazaq Allaha,
Bu bir anlıq xoşbəxtliyin adından.**

**Günahına qurban olum ay Allah,
Bu günahım oğurlayıb ağlı.
Bələnibdir taleyimin ətrinə,
Sevgi dolu bu günahın nağılı.**

## Söylə ki...

**Gözümdə islanan iki misra var,
Biri Leyli misal, biri Əslidir.
Bütün mövsümləri unutdum bu gün,
Mənim ürəyimdə sevgi fəslidir.**

**Oxşa saçlarımı yaz yağışı tək,
İslanım məhəbbət nəğmələrində.
Kövrək duyğuların təbəssümündən,
Könlü çiçəklənsin nəğmələrin də.**

**Bu həzin misranın gözlərini öp,
Saxla ürayində əmanət kimi.
Bir gün soruşacaq bir eşq mələyi,
Bu ürək kimindir əmanət kimin?!**

**Bu alın yazının yolları üstə,
Bir tənha nəğməyəm, bir qərib çiçək.
Söylə ki, ayrılıq qoxusu gəlir,
Qəlbimi üstünə qoy sərim, çiçək...**

## Məni unut demişdin

**Dəniz gözlüm, məni unut demişdin,
Gözün aydın, sətir-sətir unutdum.
Gördüm səni unutmağa tabı yox.
Ürəyimi sənə xətir unutdum.**

**Sevgi mehi öpmaz daha üzündən,
Dadı qaçıb ömür adlı bu yolun.
Götür mənim göz yaşımı nə olar,
Öz əlinlə göz yaşını yu yolun.**

**Çatılıbdı qaşı sənli günlərin,
Xatirələr üzün tutub qəhərdən.
Bütün dünya ayrılığa yoluxub,
Sevgi köçüb sən yaşayan şəhərdən.**

**Vaxtın olsa, bu yaralı misramın,
Könlün alib, göz yaşını silərsən.
Dəniz gözlüm, məni unut demişdin,
Sevmək özü unutmaqdır biləsən.**

## Anama məktub

**Yuxuma gəlmisən bu qış gecəsi,
Qayğılı qəlbinə qurbanam,ana.
Dünyanın ən böyük müqəddəsliyi,
”İncil”im, ”Törat”ım, ”Quran”ım, ana.**

**Yuxuma gəlmisən bu qış gecəsi,
Yastığım bələnib sənin ətrinə.
Yenə də səpilir layla qoxusu,
Ömür kitabının hər bir sətrinə.**

**Yuxuma gəlmisən bu qış gecəsi,
Ömrü çiçəkləyib yuxularımın.
Sənin gəlişinlə həyat qapısı,
Bağlanıb üzünə qorxularımın.**

**Yuxuma gəlmisən bu qış gecəsi,
Köz düşüb üstünə xatirələrin,
Yuxunu yorğan tek çəkir üstümə,
Sənin nəvazişli kövrək əllərin.**

# Rəhim Qocayev: "Güldürmək çətin işdir"

*Müsahibimiz Şəki Dövlət Dram Teatrının aktyoru əməkdar artist Rəhim Qocayevdir. Aktyor teatra gəlişindən, səhnədə ifa etdiyi rollarından və teatr sənətindən danışıb.*

**-Tamaşaçılarınız sizi necə tanıya bilər?**

- Mənim üçün vacib məqam insanın şəxsiyyətidir. Daha sonra onun hansı peşə ilə məşğul olmağı ilə maraqlanıram. Cəmiyyətdə özünü tanıtmaqdan çox şey aslıdır. Davranış qaydaları, danışıq tərzi, ədəb qaydaları da bura daxildir. Düşünürəm ki, tamaşaçılarım məni aktyor kimi səhnədə sevirlər, dostlarım isəməni tanıyaraq hörmət edirlər. Bunu hər zaman ətrafımdan görmüşəm.

Elə sənətkar olub ki, baxırsan ki, sənəti zirvədə olsa da, insanlığı ilə zirvədə ola bilməyib. Görürsən ki, səhnədə elə gözəl rollar ifa edib, amma həyatda yaxın bir dostu belə yoxdur. Məncə belə zirvədə olmaq heç kəsə maraqlı deyil. İlk növbədə insan olmaq gərəkdir. Ancaq sənətlə şəxsiyyət bir- birini tamamlayanda isə çox gözəl olur. Əgər səhnədə yaxşı insan obrazını oynayıramsa, bu xarakter özümdə də olmalıdır ki, o obrazı ustalıqla canlandıra bilim. Təbii ki, səhnədə mənfi rollar da olur. Ancaq belə rollar elə səhnədə qalsa yaxşıdır *(gülür).*

**-Bildiyimiz kimi Şəki teatrının tarixi qədimdir. Aktyor olaraq taleyinizə Şəki teatrının düşməsi sizi nə dərəcədə sevindirir?**

-İnanın ki, bu teatrda işlədiyim üçün özümü çox şanslı aktyor hesab edirəm. Teatra gəlişim elə bir dövrə düşdü ki, artıq teatrlara diqqət-qayğı artırdı.

Deyərdim ki, mən teatrın ”çiçəklənmə” mərhələsinə düşdüm. Ardıcıl tamaşalarda rol almağım, festivallarda çıxış etməyim sənət fəaliyyətimdə müsbət addımlar oldu. Adiyyatı qurumlar da bu zəhmətimi qiymətləndirdi. Mənə 2018-ci ildə Respublikanın əməkdar artisti adı verildi. Teatr fəaliyyətim 1996-cı ilə təsadüf edir. İxtisasım elektron cihazlarla bağlı olduğu üçün teatrda ilk işim səs operatoru olub. Bir müddət işləyəndən sonra hərbi xidmətə getdim. Qayıtdıqdan sonra yenidən həmin işimə davam etdim. Amma həmişə səhndə rol alan aktyorlara həsədlə baxırdım. Yaxşı mənada onlara paxıllıq da edirdim ki, kaş onun yerində mən olardım və ya tərəf müqabili olardıq kimi arzularım da olurdu (gülür). Epizodik rola belə böyük maraq və həvəs göstərirdim. Elə məqam olurdu ki, aktyor sözü unudurdu. Mən dərhal replika ilə ona kömək edib çətin vəziyyətdən çıxarırdım. Hər tamaşanı bütöv mənimsəyirdim.

Ustadım Mirbala Səlimli bu həvəsimi, marağımı görüb mənim aktyorluq qabiliyyətimi yoxlamağa başladı. İlk vaxtlarda epizodik rollardan başladıq. Onun dəstəyi ilə, onun köməyi ilə mən bu sevdiyim sənəti öyrənə bildim. Və hələ də öyrətməkdə davam edir. Mirbala müəllim üzərimdə çox çalışdı deyə teatrda özümə bir yer tapdım.



**-Bir çox aktyorların həmişə oynamaq istədiyi bir rol olur. Sizin də ürəyinizdə belə rol varmı?**

- Ümumiyyətlə, daha çox komediya janrını sevirəm. Komedik rolları ifa etməyi sevirəm. Demək olar ki, hər gün saytlarda, xəbərlərdə daha çox ağır yüklü xəbərlərlə rastlaşırıq. Mən də bu çətin dönəmdə insanların simasında təbəssümə səbəb olmaq istəyirəm. Düşünürəm ki, tamaşaçılar da üzlərində gülüş yaradacaq sənət nümunələri görmək istəyirlər. Hətta sosial şəbəkə hesabımızda belə tamaşaçılarımız özləri bizə yazırlar ki, komediya janrında tamaşalar qurun ki, gündəlik stressdən uzaqlaşaq. Komediya rollarında aktyor daha sərbəst olur. Belə rollarda özümü daha sərbəst hiss edirəm. Ancaq qeyd edim ki, belə rolların çətin tərəfləri də var.

Güldürmək çətin işdir.

**-Güldürə bilməmək sizi məyus edir?**

-Əlbəttə, əhvalımıza pis təsir edir. Amma ruhdan düşməməyə çalışırıq. Və bu uğursuzluğumuzu gələn dəfə təkrar etmirik.

Teatr canlı sənətdir. Bu dəfə etdiyim səhvi mütləq şəkildə gələn dəfə etməməyə çalışıram. Mirbala Səlimli deyir ki, teatrın alınması üçün 4 amil önəmlidir: ssenari, rejissor işi, aktyor və tamaşaçı. Bu dördlük birləşirsə gözəl bir sənət əsəri alınır. Tamaşaçı reaksiya verməyəndə aktyor da tez həvəsdən düşür.

**-İnsanlarda belə bir dşüncə var ki, əyalət teatrlarında tamaşaçılar çox az olur. Şəki teatrı da bu teatrların sırasına daxilirdir, yoxsa bu teatrın tamaşaçı üstünlüyü var?**

-Bizim teatrın daimi və sevimli tamaşaçılar var ki, onlar hər bir tamaşamızı sevə- sevə izləyirlər. Yeni tamaşa olursa, 3-4 seans zal tamamilə tamaşaçı ilə dolu olur. Bunlar sırf daimi tamaşaçılardır ki, sevə- sevə teatra gəlirlər. Hələ xüsusi tamaşaçılarmız da var. Kəmalə xanım adlı bir tamaşaçımız var ki, hər tamaşadan sonra bizimlə görüşür. Tamaşa haqda fikirlərini söyləyir. Gələndə də əliboş gəlmir, bizə sovqat da gətirir (gülür). O xanım çox teatral insandır. Teatrla bağlı, səhnə ilə bağlı maraqlı fikirləri olur.

**-Aktyor teatrdan qazandığı ilə məişət qayğılarını təmin edə bilmir. Bəs siz?**

-Çəkilişlər olur, reklamlardan dəvət alıram. Mənim digər peşəm də var ki, az öncə qeyd etdim. Eelktronika sahəsindən gəlirim olur ki, bu da məişət qayğılarımı təmin etməkdə yardımçı olur.

**-Yeni gələn gənc aktyorlar daha çox nəyi öyrənmək istəyirlər?**

-Burada teatr studiyası var ki, bir çox aktyorlarımız orda dərs alıblar. Onlar bir aktyorun öyrənə biləcəyi çox şeyi burda öyrənirlər.

**-Yeni mövsümdə repertuarınızda hansı tamaşalar gözlənilir?**

- İ. Əfəndiyevin ”Sən həmişə mənimləsən” adlı əsərin əsasında eyni adlı tamaşanın premyerası ilə mövsüm bağlanışımız oldu. Çox güman ki, yeni mövsümü də həmin tamaşa ilə başlayarıq. Sonra isə Mirbala Səlimli gözəl bir tamaşa üzərində çalışır. Bu Şekspirin ”Heç nədən hay-küy” əsəridir”.

**Əntiqə Kərimzadə**



# BAYAT



№ 17 (877)




*Ənvər ƏHMƏD*

## *Bu zülmü mənəm ki çəkirəm, ana!*

Yoxluğun əriyib gözümdən axdı,
Ölümün öldürdü mən qara baxtı.
Hönkürüb, hönkürüb bu gecə vaxtı
Qəbrini bağrıma bükürəm, ana!

Donub ruhum, canım sal buza dönüb,
Taleyim kor olub, ulduzum sönüb,
Üstümə bir dünya ağrılar enib,
Dağ kimi önündə çökürəm, ana!

Ağrınam, acınam, sızlar yaranam,
Bağrımın başında bir damla qanam,
Qıymazdın bu sayaq alışıb yanam,
Bu məhşər odudu, çəkirəm, ana!

Tanrım bu dərd-qəmi ömrümə yazdı,
Diriykən yanında qəbrimi qazdı,
Bu ağrı, bu acı bəlkə də azdı,
Qan-yaşdı gözümdən tökürəm, ana!

Ənvər gecə-gündüz qarğar fələyi,
Dönməz bu ölümə şair ürəyi,
Qəbrinin üstə ki, otu, çiçəyi,
Vallah, göz yaşımla əkirəm, ana!

## *Gəlmişəm*

Xocalı adlı balamı,
Qana bələyib gəlmişəm.
Uçurub könül qalamı,
Canımı oda sərmişəm.

Göz yaşım daş üstə bitib,
Şuşa boyda ömrüm itib.
Yaram məni boyda ötüb,
Dərdi gözümlə dərmişəm.

Yazım açmadı bir çiçək,
Dərdim qanımda bitəcək.
Ömrüm canımda itəcək,
Yaram üstə söz sərmişəm.

O daş yollar məni yedi,
Fələk səbr et, döz-döz dedi.
Gördüm Vətən can üstədi,
Bir də baxım göyərmişəm!

## *Ağlayır*

Ötsün asta-ata segah, şikəstə,
Od yağdı Vaqifin qəbrinin üstə,
Dağıldı yurd-yuva, torpağım xəstə
Qan sızır yaramdan gözüm ağlayır.

Yas tutdu Natəvan, hönkürdü Bülbül,
Olub Qaryağdının naləsi dil-dil,
Yoxdur Qarabağım, fəryad et könül
Sönüb od-ocağım, gözüm ağlayır!

Gəzdiyim oylaqlar geyindi qara,
Çəkildim Şuşada gözümdən dara
Vuruldu sinəmə əbədi yara,
Bulaqlar üstündə izim ağlayır.

Ay Ənvər, fələyin min bir oynu var,
Hanı gurşad səsli, qartallı dağlar,
Elə bil yoxmuş o gözəl çağlar,
Uçdu qəsri qallam, sözüm ağlayır!

## *Çəkinə-çəkinə*

Bir az çəkinə-çəkinə
Mən səni atdım
Yoxluğun içinə.
Daha dünənki
Gün kimi yoxsan,
Sabaha çatmaz əlin
Əriyər gözündə
Yoxluq heykəlin.
Sındı qanadın,
Gedişin getdi,
Gülüşün itdi.
Üç nöqtə qoyuram,
Bu şeirim bitdi...

## *İtir*

Ömrüm bu yollarda itir,
Ağla  məni gültək bitir,
Öldür məni yerdən götür,
Sıxma məni qanım çıxır.

Özüm özümdən düşmüşəm,
Küləm közümdən düşmüşəm.
Yaman gözümdən düşmüşəm,
Budaqla yarpaq kimiyəm
Bir ovuc torpaq kimiyəm.

Əlim çatmaz keçən günə,
Ürəyimdən keçən günə,
Dərd-qəmimi seçən günə,
Allah, bu səs, bu ün mənəm,
Dünənim yox, bu gün mənəm!

Üzüm-gözüm qırış-qırış,
Tale deyir: et yır-yığış,
Yaman soyuq gəlir bu qış,
Qaraltma sən gəl qanımı,
Özün oxu Quranımı!

Ölüm-olum arası az,
Dünya gödək, qəbir dayaz.
Ənvər şeiri dərdinlə yaz,
Dünya sığmır dünyasına
Dünya ağlar öz dünyasına.

## *Kimi*

Bu dünyanın üzü qara
Gecə üzündə xal kimi
Ölüm-itim, hamısı var
Bu həyat bir xəyal kimi.

Baş kəsilir, qan tökülür
Gedirəm, dizim bükülür.
Tanrının evi sökülür
Keyləşmişəm bir lal kimi.

Kim köç edir, kim yurd seçir,
Fələk enib kəfən biçir,
İnsan ağlı qanın içir,
Qalmışam bir sual kimi.

## *Ömrümə*

Göz yaşımla bitən gülsən,
Dil-dil olub ötən dilsən.
Bəlkə bir bulud gölüsən
Yağış kimi yağ ömrümə.

Kipriyimin ucunda qəm,
Gözüm dolu, kədər, ələm.
Doğulmaram hələm-hələm,
Çəkmə, çəkmə dağ ömrümə.

Səhər köçdü, axşam düşdü,
Ayaq dünyadan sürüşdü.
Fələklər baxdı, gülüşdü
Mənim üzü ağ ömrümə.

Dərk et, ömür əfsanədir,
Gülləri seç, ara bir-bir.
Dur get Quran xətm elətdir,
Baxa-baxa sağ ömrümə.

## *Şəkərim var...*

Şəkərim var, şəkərim,
Şəkər mənim şəkərim.
Şəkər yeyir canımı,
Çox qaraldır qanımı.

Həkimlərin hərəsi,
Bir cür resept yazır.
Bu reseptlər elə bil,
Canıma qəbir qazır.

Onları qınamıram,
Hər nə yeyirsən zəhər.
Çoxu deyir ay şair,
Çalış yaşa birtəhər.

Əlacım yeriməkdi,
Canımı sürüməkdi.
Həsrətəm ətə-yağa,
Bala, südə-qaymağa.

İnsaf yoxdu həkimdə,
Gerilik var çəkimdə...
Tez-tez söyləyir mənə,
Dostum, deyirəm sənə.
Şirin şey qəti olmaz
Pəhriz saxla sən bir az!
Yeyəsən qara çörək,
Əməl edəsən gərək
Həkimin hər sözünə.
Qəsd edirsən özünə...
Böyrəklərin işləməz
Gözlərin yaxşı görməz
Papirosda çəkmə sən
Araq, çaxır içmə sən.

Su iç gündə 3-4 litr,
Şəkərini bir az itir.
Dedim pəhriz saxla sən
Az-az yeyə bilərsən
Toyuq əti, dana əti
Göy-göyərti
Həftədə bir yumurta
Ayrı yemək yemə, ta...

Gözün tikir gözümə,
Mat-mat, baxır üzümə
Yazım tez iynəyə keç,
Təzə həyat tərzi seç
Əlavə amaril at
Çarəsiz deyil həyat...

## *Barışdı*

Eh əcəlin gözü kordu,
Kor gözüylə məni yordu.
Hər bir kəsin sonu kordu,
Yaram canıma darışdı.

Ha qaçdım mən ora-bura,
Dözdüm bu sərt vurhavura,
Loğmanım yox, ruhum yara,
Ömrüm əzabla barışdı.

Dərd-qəmimə bata-bata,
Sarındım ilan həyata,
Vaxt çürütdüm yata-yata.
Qanım dərdimə qarışdı.

Kim yoğurdu, kimsə yaptı,
Kimi yağlı kökə tapdı,
Həyat yolu çapa-çapdı,
Ram ol, könül bu yarışdı.

## *Yolçu*

(Özümə)

Yolçu, yolun uzundu,
Çarıq geyin dəmirdən
Bu yolların saçını
Bəyaz qartək ərit sən.

Qarşında dağ görünür,
Zirvəsi çox ucadır?
Bəlkə sənin ömrün
O dağlardan qocadır?!

Yoluna ilan çıxar,
Yolunda qurd ulayar.
Yolunda mənfur həyat,
İttək quyruq bulayar.

Fikir vermə, yeri, get,
Yolunda daşa dönən
Hər kəsə sən nifrət et
O sərt ölüm yoludur,

Sınmır, fələk qoludur
O yolun sön nöqtəsin
Ayağın tapa bilməz.
Get, get yolçu yolunla,
Ölümsüz bir dünya gəz.

## *Dedilər ölübdür, üçüdür bu gün*

Zəng etdim... halını soruşmaq üçün,
Dedilər ölübdür, üçüdür bu gün...
Söz də dəli olar belə xəbərdən
Yığıb bəbəyinə tozlu yollan
Köz də dəli olar belə xəbərdən.

Dünən var, bu gün yox olursa insan
Bir zərif yarpaqtək solursa insan.
Doğulmaq bir azca ar gəlir düzü
Doğulub, yaşayır, ölübdür sözü.
Dəhşətlə səslənir ölüm, qan, qada
Üç gündür o yoxdur, yoxdur dünyada...
... Dərd sənin köksünü eşəsi olsa.

Dərd sənin köksünü deşəsi olsa
Bir azca ağlamaq xoş olar vallah,
Bir azca hönkürmək gərəkdir, Allah!
Dərd duman deyildir külək dağıda
Kədərin dağı da, qəmin dağı da
Birdən çəkiləndə sinənin üstə
Yığılıb diz üstə düşürük xəstə...

Ölübdür sözünün acı zəhəri,
Üçüdür sözünü ahı, qəhəri,
İşləyir iliyə, damara, qana.
Ağır yuxu kimi gəlir insana
İnsanın yoxluğu, əbədi gediş
Amansız bu ağı, dözülməz bir iş,
Varlığın yoxluğu, sənsiz bir həyat
Boğur insanlığı, baxırıq mat-mat
... Zəng etdim... ölü bir ağrı dinlədim.
Ağrıya qoşulub dərdtək inlədim!
Zəng etdim halını soruşmaq üçün
Dedilər ölübdür, üçüdür bu gün!...

## *Bu gecə*

Bu gecə nə gözəl gecədir, könül,
Bu gecə ay necə bədirlənibdir.
Dünya süd gölündə çimir elə bil,
Elə bil üfüqlər yerə enibdir.

Gecə ağ duvaqlı nazlı gəlintək,
Açıb saçlarını yuyur sularda.
Yaylıqtək asılıb ağacdan külək,
Dünya nə gözəlmiş bu ilk baharda...

Bəlkə ikimizik dünyada oyaq,
Bəlkə bu gecənin gəlişi haqdır.
Sən mənə səhərin gözləriylə bax,
Bəxtim günəş kimi doğulacaqdır.

Ulduzlar torpağa tökülür dən-dən,
Çiçək yağışında yuyulur gecə.
Torpağın əliylə yazıla bilən
Gözəl şeir kimi duyulur gecə.

Uzansın bu gecə... Sökülməsin dan,
Bu gecə huşumu başımdan almış,
Utansın bu gecə yanaqlarından,
Bu gecə üzündə bir qara xalmış...

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 28 (2402) 2 avqust 2024-cü il



# Böyük qələbəyə gedən yol

**Dünyanın heç bir ölkəsi Azərbaycan qədər çətinliklər içərisində yaşamayıb. Çünki Azərbaycan müstəqillik qazanan zaman işğala məruz qaldı və torpaqlarının 20 faizi ermənilər tərəfindən ələ keçirildi. Yenicə müstəqillik addımını atan bir ölkənin çiynində bu qədər ağır yük var idi. Üstəlik də dünyanın super gücləri Azərbaycanın haqq sözünü eşitmir və ermənilərə havadarlıq edirdilər. Təbii ki, belə bir çətin, siyasi, iqtisadi və hərbi durumda yalnız ölkəmizin özünə ümid qalırdı. Hətta ümid bəslədiyimiz ölkələr belə bizə lazımi siyasi-iqtisadi və hərbi dəstəyi vermirdi.**

Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişiylə demək olar ki, insanlarda çox böyük inam və ümid yarandı. Bu inam və ümid ondan ibarət idi ki, Azərbaycan xalqı Heydər Əliyevə inanır,



ölkəmizi çətin vəziyyətdən yalnız onun xilas edəcəyini düşünürdülər. Təbii ki, xalq belə düşünməkdə haqlı idi. Çünki ondan əvvəlki dövlət rəhbərləri zəiflik göstərmiş, ölkəmizi beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi, eləcə də işğal altında olan torpaqlarımızın azad edilməsi üçün ciddi bir addım ata bilməmişdilər. Bütün bu ağır yük Ulu Öndər Heydər Əliyevin çiyninə düşmüşdü. O, isə hakimiyyətdə olduğu dövrdə ölkənin siyasi-istisadi, hərbi problemlərini qısa zaman kəsiyində yoluna qoymağı bacardı. Azərbaycan yüksək istisad inkişaf mərhələsinə qədəm qoydu. Və hərbi sahədə böyük irəliləyişlərə nail oldu.

Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Belə ki, cənab İlham Əliyevin 20 illik hakimiyyəti dövründə ölkəmiz siyasi-istisadi və hərbi cəhətdən çox böyük yüksəlişə nail oldu. Belə bir durumda isə ermənilər yenə sərhədboyu kəndlərdə tez-tez atəşkəsi pozur, yaşayış məntəqələrinə fasiləsiz olaraq ağır artilleriyalardan zərbələr endirir və bu zəbələr zaman şəhidlərimiz və yaralılarımız olurdu. Üstəlik də yaşayış məntəqələrinə xeyli ziyan deyirdi. 2020-ci il sentyabrın 26-a qədər ölkəmiz bu hücumlara dözdü. Amma daha dözmək mümkün deyildi. Ona görə də Ali Baş Komandan, Prezident İlham Əliyev Azərbaycan ordusuna əks hücuma keçmək barədə əmr verdi. Bu əmr 2020-ci il sentyabrın 27-də icra edilməyə başlandı. Bir neçə gündə qüdrətli Azərbaycan Ordusu əks hücuma keçərək, Füzulinin və Cəbrayılın 8 kəndini erməni işğalından azad elədi. Azərbaycan Ordusu 30 illik sükuta son qoydu. "Ohanyan səddi" deyilən müdafiə sistemləri möhtəşəm və qüdrətli Azərbaycan ordusunun gücü hesabına darmadağın edildi. Çünki ermənilər 30 il idi ki, Füzuli və Cəbrayıl istiqamətində, eləcə də digər işğal olunmuş yaşayış məntəqələrimizin ərazisində keçilməz müdafiə xətti qurmuşdular. Onların səngərlərindən əvvəl, yeni qarşıda tankların keçməsinin qarşısını almaq üçün böyük dərələr qazılmış, yolla minalanmış, hətta tikanlı məftillər belə yerləşdirilmişdir. İlk baxışdan bu səddi keçmək olduqca çətin bir məsələ idi. Amma Azərbaycan ordusunun istehkamçıları, mina təmizləyənləri əsgərlərimizin hücumu zamanı bütün bu təhlükəni qanları, canları, həyatları bahasına təmizləmiş və zərərsizləşdirmişdilər. Əgər bu təhlükə və müdafiə sistemləri vaxtında zərərsizləşdirilməsəydi, onda canlı qüvvə, texnika sarıdan böyük itkilərimiz ola bilərdi. Məhz buna görə də hərbi əməliyyat başlamamışdan öncə generallarımız bu barədə çox ətraflı götür-qoy eləmiş və nəticədə onların qurduğu taktika və həyata keçirdiyi əməliyyat uğurlu olmuşdu.

Azərbaycan ordusunun gücü və qüdrəti tək onun hərbi arsenalından ibarət deyildi. Azərbaycan ordusunun gücü NATO standartlarına uyğun böyük məktəb keçmiş və təcrübə toplamış zabitlərdən, əsgərlərdən ibarət idi. 44 günlük İkinci Qarabağ savaşında Azərbaycan əsgəri aslan kimi, şir kimi döyüşdü. Onlar nə ermənilərin keçilməz müdafiə səddindən qorxdular, nə də ən müasir döyüş texnikalarından. Çünki Azərbaycan əsgərinə güc, qüvvət və ruh verən ayağının altında olan Vətən torpağı və bir də Vətən torpağının havası idi! Erməni əsgəri heç vaxt Azərbaycan əsgəri kimi döyüşə bilməzdi. Çünki Qarabağ və eləcə də işğal altında olan digər yaşayış məntəqələrimiz onların Vətəni deyildi. Vətəni olmadığına görə də burda ölmək istəmir və qaçıb aradan çıxmağa can atırdılar. Ölməmək üçün çoxu elə qaçdı da! Ermənilərin öz mətbuat orqanları 44 günlük İkinci Qarabağ savaşında yazırdı ki, onların 10 mindən çox döyüş mövqeyindən qaçan fərari əsgərləri var.

Amma bir Azərbaycan əsgəri 44 günlük müharibədə silahını atıb, geri çəkilmədi. Üstəlik də respublikanın bütün rayonlarında Hərbi Səfərbərlik İdarələrinin qarşısında 10 minlərlə gənc könüllü olaraq cəbhəyə döyüşməyə getmək üçün növbəyə durmuşdular. Hardasa 100 minə yaxın belə gənclərimiz növbə gözləyirdilər. Onların çoxuna növbə çatmasa da, bu onu göstərirdi ki, Azərbaycanda 7-77-ə qədər hamı silaha sarılıb Vətən torpağını işğaldan azad etmək istəyirdi. Onsuz da bizim 100 minə yaxın döyüşən əsgərimiz var idi. Onların yarısı 44 günlük İkinci Qarabağ savaşında erməni ordusunu darmadağın etməyə bəs elədi. Bu ordunun gücü ilə Cəbrayıl azad olundu... Hadrut azad olundu... Füzuli azad olundu... Qubadlı azad olundu... Zəngilan azad olundu... Və ən nəhayət, noyabrın 8-də Azərbaycanın ürəyi olan Şuşa azad olundu... Azad olunan bütün yaşayış məntəqələrinə Azərbaycan bayrağı sancıldı!..

Bütün bunlar onu göstərdi ki, Ali Baş Komandan, Prezident İlham Əliyev Azərbaycan Ordusuna əks-hücuma keçmək barədə vaxtında və düzgün əmr vermişdi. 44 günlük möhtəşəm savaş Prezident, Ordu və Xalq birliyi simvoluna çevrildi. Çünki bu üç qüvvə bir yerdə olmasaydı, biz möhtəşəm qələbə qazanıb yeni bir tarix yaza bilməzdik. Və ermənilər məcbur olub 2020-ci il noyabrın 10-da üçtərəfli bəyanata təslim olmaq haqqında imza atmazdı. Üstəlik də ermənilərin Baş naziri Nikol Paşinyan 3 rayonun - Ağdamın, Laçının, Kəlbəcərin razılaşmış vaxtda boşaldılmasına qol çəkmişdi.

**Və həmin rayonlarımız da bir müddətdən sonra erməni işğalçıları tərəfindən boşaldıldı və Azərbaycan ordusu həmin rayonlara daxil olaraq bayrağımızı yüksəkliklərə sancdı. Bu o deməkdir ki, İkinci Qarabağ savaşı Azərbaycan Ordusunun qələbəsi ilə bir tarixə çevrildi. Bu tarix 200 ildən sonra yazılmış yeni bir qızıl tarix idi. Qızıl tarix bu millətin yaddaşında və həyatında ömrü boyu yaşayacaq, xalqımız həmin günlərlə qürur duyacaqdı!..**

**EMİL FAİQOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

GƏNCƏ TİCARƏT NƏQLİYYAT ASC-NİN
MÜHASİBAT BALANSI
31 dekabr 2023ci il tarixinə (manatla)

| Bölümün. Maddənin N-si | | Hesabın N-si | 2022 ci il | 2023 ci il |
|---|---|---|---|---|
| | AKTİVLƏR | | | |
| 11. | Torpaq. Tikili və avadanlıqlar | 111 çıxılsın 112 üstəqəl 113 | 34503.0 | 37083.0 |
| | CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR | | 34503.0 | 37083.0 |
| 2. | Qısamüddətli aktivlər | | | |
| 20. | Ehtiyatlar | 20 X çıxılsın 208 | 518.0 | 518.0 |
| 21 | Qisamüddətli debitor borcları ( Vaxtı keçmiş 1994-95 il.) | 21X çıxılsın 218 | 11877.0 | 11877.0 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | 23 X çıxılsın 235 | 169.0 | 36.0 |
| 24 | Sair qısamüddətli aktivlər | 24. X | 231.0 | 867.0 |
| | | | | |
| | CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR | | 12795.0 | 13298.0 |
| | CƏMİ AKTİVLƏR | | 47298.0 | 50381.0 |
| | KAPİTAL VƏ ÖDƏLİKLƏR | | | |
| 30 | Ödənilmiş nominal (Nizamnamə) kapital | 301 çıxılsın 302 | 44216.0 | 44216.0 |
| 33. | Kapital ehtiyatları | 33X | 69614.0 | 69614.0 |
| 34. | Bölüşdürülməmiş mənfəət (Ödənilməmiş zərər) | 34 X çıxılsın 344 | -71262.0 | -71960.0 |
| 35. | Xalis mənffətdən (başqa məqsədlər üçün ayırmalar) | 344/1 | + 717.0 | +717.0 |
| | ZƏRƏR ( MƏNFƏƏT ) | | -698.0 | +5003.5 |
| | CƏMİ KAPİTAL | | 42587.0 | 47590.5 |
| 5 | Qısamüddətli öhdəliklər (Dividentlə hesablaşma) | | 469.0 | 439.0 |
| 52 | Verqi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 52 X | 3083.0 | 2297.5 |
| 53 | Qısamüddətli kreditor borcları (Ə.h.qı üzrə işçilərlə hesablaşma) | 53 X | 1159.0 | 54.0 |
| | CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | 4711.0 | 2790.5 |
| | CƏMİ ÖHDƏLİKLƏR | | 4711.0 | 2790.5 |
| | CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | 47298.0 | 50381.0 |

Mənfəət və zərər haqqında hesabat (xərclərin xüsusiyyəti üzrə təsnifləşdirilməsi)
31 dekabr 2023 ci il tarixinə.

| bölümin maddəninN si | | Hesabın N-si | 2022 ci il | 2023 ci il |
|---|---|---|---|---|
| 61 | Sair əməliyyət ğəliri | 611 | 27965.0 | 33506.0 |
| | Xərclərin Cəmi : O cümlədən | | 28663.0 | 28225.0 |
| | İşçi heyəti üzrə xərçlər | 533 nömrəli hesabın krediti üzrə dövriyyə | 15220.0 | 14365.0 |
| | Amortizasiya xərçləri | 102.,112,122, 132, 142, nömrəli hesabl. Krediti Üzrə dövriyyə | 338.0 | 685.0 |
| 73 | Sair əməliyyat xərcləri | 731 | 13105.0 | 13175.0 |
| | Əməliyyat mənfəəti (zərəri) | | -698.0 | +5281.0 |
| | Mənfəət üzrə azadolmalar və Qüzəştlər 75 faiz | | ------- | 3961.0 |
| 90 | Mənfəət verqisi | 901 üstəqəl 902 | -------- | 277.5 |
| 80 | Hesabat dövründə xalis mənfəətr (zərər) | 801=Hesablama | -698.0 | +5003.5 |

AUDİTOR RƏYİ.

2023 ci il üçün illik balansın və maliyyə iqtisadi göstəricilərin düzgünlüyünə Azərbaycan Respublikası Auditor Palatasının üzvü sərbəst auditor 21.12 2021 il tarixli icazə N SA /072 Əhmədov Hafiz Məhəmməd oğlu tərəfindən rəy verilmişdir.
Ünvan Gəncə şəh. H.Əliyev meydanı .

*Əli Hüseynov*



# Bütöv Azərbaycanın olimpiya çempionu

***Azərbaycanın igid oğlu Hidayət Heydərov tarix yazaraq olimpiya oyunlarında fransız rəqibinə qalib gəldi.***

***Bu, sadəcə bir idman uğuru deyildi; bu, milli dəyərlərimizin, əzmin və qətiyyətin zəfəri idi.***

***Hidayət Heydərovun üzündəki qətiyyət, gözlərindəki inam, hər zərbəsindəki güc bizim milli ruhumuzun parlaq təcəssümü idi.***

***Bu qələbə böyük bir xalqın birlik və güc simvolu olaraq yadda qalacaq.***



***Hidayətin zəfəri ilə Azərbaycan bayrağı bir daha zirvələrdə dalğalandı.***

***Onun hər bir hərəkətində biz milli dəyərlərimizin gücünü, xalqımızın iradəsini gördük.***

***Hidayət Heydərov bizə öyrətdi ki, milli dəyərlərimizə sadiq qaldıqca, hər bir çətinliyi aşacaq və hər zaman qalib gələcəyik. Zirvəyə qalxan Hidayət öz zəfəri ilə hər bir Azərbaycan vətəndaşının qəlbində əbədi yaşayacaqdır.***

***Çünki o, Azərbaycanın adını daha da uca zirvələrə çıxaran parlaq ulduzudur.***

***Çox sağ ol, Bütöv Azərbaycanın ilk olimpiya çempionu!***
***Çox sağ ol, düşmənlərimizə bir dərs daha verən qızıl oğlan!***
***Hər şey üçün çox sağ ol, Hidayət!***

## *Azərbaycanın UEFA reytinqində mövqeyi dəyişdi*

**Avrokubokların 2-ci təsnifat mərhələsinin bəzi cavab oyunlarından sonra UEFA reytinqi açıqlanıb. QOL.az xəbər verir ki, ”Sumqayıt” Konfrans Liqasının 2-ci mərhələsinin cavab oyununda Macarıstanın ”Fehervar” klubu ilə heç-heçə (0:0) edib və ölkəmizə 0,125 xal qazandırıb.**

Hazırda Azərbaycan 18.125 xalla reytinqdə 25-cidir. Bir həftə əvvələ müqayisədə ölkəmiz 1 pillə geriləyib. 24-cü pilləyə isə Slovakiya yüksəlib. Düzdür, onların da son 5 mövsümün nəticəsinə əsasən 18.125 xalı var. Lakin bu mövsüm Slovakiya (1.500 xal) hələlik Azərbaycandan (1.375) daha çox xal toplayıb. Qeyd edək ki siyahıya 85.732 xalla İngiltərə başçılıq edir.

# ”Qarabağ” darmadağınla növbəti mərhələdə

**UEFA Çempionlar Liqasının II təsnifat mərhələsinin cavab oyunu çərçivəsində Bakıda üz-üzə gələn ”Qarabağ” və ”Linkoln” (Cəbəllütariq) komandaları arasında oyun başa çatıb.**

Adalet.az xəbər verir ki, ilk görüşdə rəqibinə 2:0 hesabı ilə qalib gələn Ağdam klubu doğma meydanda da sevinən tərəf olub - 5:0.

Qolları Olavio Juninyo (3 qol), Yassin Benzia və Leandro Andrade vurublar.

”Qarabağ” Çempionlar Liqasının III raundunda ”Ludaqorets” (Bolqarıstan) - ”Dinamo” (Minsk, Belarus) cütünün güclüsü ilə üz-üzə gələcək. İlk görüşdən Bolqarıstan təmsilçisi 2:0 hesabı ilə üstün ayrılıb.

## *Qurban Qurbanov: “Qarşıya qoyulan minimum məqsədə çatdıq”*

”Olimpiya çempionumuzu təbrik edirəm. Dünən baxırdıq, zövq aldıq ki, belə idmançımız var. Olimpiya oyunlarındakı bütün idmançılarımıza uğurlar arzulayıram. Hidayət Heydərova uğurlar arzulayıram, ailəsinə təşəkkür edirəm ki, belə övlad böyüdüblər. Öz komandama gəldikdə, təbrik edirəm. Qələbə öz yerində, çox səliqəli, intizamlı oyuna görə futbolçularıma təşəkkürümü bildirirəm. Oyun intizamını qoruyub-saxladıq. Bu, qarşıdakı matçlarda bizə çox vacibdir. Azarkeşlərimizə təşəkkürlər, sayları çox idi. Digər klublarımıza da uğurlar arzulayıram”.

Bu sözləri ”Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov Çempionlar Liqasının 2-ci təsnifat mərhələsində bu gün Bakıda ”Linkoln”a qalib gəldikləri oyundan (5:0) sonra mətbuat konfransında deyib.

Q.Qurbanov növbəti mərhələdə rəqibləri ola biləcək hər iki komandanın (”Ludoqorets, ”Dinamo”) yaxşı təsir bağışladığını deyib.

”Qarabağ”ın çalışdırıcısı ardıcıl 11-ci dəfə avrokuboklarda qrup mərhələsinə yüksəlsələr də bununla kifayətlənməli olmadıqlarını qeyd edib:

”Məsuliyyətimiz daha da çoxalır. Azarkeşlərin istəyi, tələbi daha da çoxalır. Tək mən yox, klub və futbolçular olaraq hamımız bunu dərk etməliyik ki, bunu qoruyub-saxlamaq üçün nə etməliyik?

Bir cavabı var, o da çox çalışmaq. Qarşıya qoyulan minimum məqsədə çatdıq. Amma azarkeşlər bundan razıdır? Yox. Özümüz də yox. Daha da irəliyə getməyə çalışırıq. Məsuliyyət və iş saatımız daha da çoxalır”.

## *“Linkoln”un baş məşqçisi: “Qarabağ” çox güclü idi, bacarmadıq”*

Oyun çətin oldu, rəqibin gücünü bilirdik. Dik durmağa çalışdıq. Amma bilirdik ki, hansı komanda ilə oynayırıq. ”Qarabağ” çox güclü idi. Sona qədər vuruşduq. Lakin heç nə alınmadı, bacarmadıq”.




Bu sözləri Çempionlar Liqasının 2-ci təsnifat mərhələsində keçirilən ”Qarabağ” - ”Linkoln” (Cəbəllütariq) oyunundan (5:0) sonra qonaq komandanın baş məşqçisi Xavyer Munyos mətbuat konfransında deyib.

İspaniyalı mütəxəssis ”Qarabağ” Çempionlar Liqasının qrupunda oynaya bilər?” sualnın belə cavablandırıb: ”Həqiqətən, çox güclü komandanız var. Qurban Qurbanov uzun müddətdir buradadır. Bəlli ideyası, strategiyası olan komandası var. Bu komandada olan istedadlı futbolçular, performanslarına görə ÇL-in qrupuna əsas namizədlərdən sayılır. Amma futbol oynamaq, mərhələlər keçmək lazımdır”.

## *Juninyo het-trikindən danışdı*

”İnam qazanmaq baxımından çox önəmli oyun idi. Həmdə oyun ritmini hiss etmək üçün xeyirli oldu. Qarşıda bir həftə var. Bu həftə ərzində növbəti oyuna köklənmək üçün çalışmaq lazımdır”.

Bu sözləri ”Qarabağ”ın futbolçusu Olaviyo Juninyo Çempionlar Liqasının 2-ci təsnifat mərhələsində Bakıda ”Linkoln”u darmadağın etdikləri oyundan (5:0, ilk matç - 2:0) sonra jurnalistlərə açıqlamasında deyib. O, 3 qol vurduğuna baxmayaraq, daha çox çalışdığını qeyd edib: ”Çünki komandaya daha çox fayda vermək istəyirəm. Həm də bu, məşqlərdə çəkdiyimiz əziyyətlərin bəhrəsidir. Mənim ilk növbədə hədəfim komandama kömək etməkdir”. Juninyo ”Linkoln”a Çempionlar Liqasının 2-ci təsnifat mərhələsində 3 qol vuraraq ”Qarabağ”ın Avropada het-trik edən ilk futbolçusu oldu. Hücumçu bu haqda belə deyib: ”İstənilən halda, bu, mənim üçün sevindirici məqamdır. Amma ondan da sevindirici məqam komandamın qələbəsidir”. 27 yaşlı braziliyalı futbolçu azarkeşlərin stadionun doldurmaqlarından da söz açıb: ”Əslində, bu qədər azarkeşin gələcəyini gözləyirdim. Avropa miqyaslı yarışlarda azarkeşlər həmişə bizə dəstək olublar. Ümid edirəm ki, nəinki Avropa yarışlarında, milli çempionatda da azarkeşlər gəlib bizə dəstək olacaqlar”.

O, ”Hədəf Çempionlar Liqasının qrup mərhələsidirmi” sualına belə cavab verib: ”Hələ qarşıda keçilməli yol var. Oyundan oyuna işləmək lazımdır, ondan sonra bilinəcək”. O. Juninyo bu həftə Misli Premyer liqasının ilk turunda ”Araz Naxçıvan”la qarşılaşma haqda belə deyib: ”Yarışdan fərqli olmayaraq hər oyuna istəkli, köklənmiş halda çıxacağıq”.

Səməndər Məmmədov və Eldar Qurbanov Əməkdar jurnalist və tanınmış şair
**Dünyamalı Kərəmin**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə, əzizlərinə dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 189
Çapa imzalanmışdır: 01.08.2024